


TEYMUR KƏRİMLİ

# HEYDƏR ƏLİYEV

## və klassik irs

*Ümummilli Lider **Heydər Əliyevin***
*100 illik yubileyində "Heydər Əliyev İli"nə tapşırıram*

**AMEA MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU**

**TEYMUR KƏRİMLİ**

# HEYDƏR ƏLİYEV
## VƏ KLASSİK İRS

*Bakı – 2023 – Heydər Əliyev İli*

UOT: 821.512.162 (32)
K58

*AMEA Rəyasət Heyətinin 29 dekabr 2022-ci il tarixli
32/1 saylı qərarı və Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun Elmi Şurasının 19 yanvar 2023-cü il
tarixli 1 saylı iclasının qərarı ilə nəşr olunmuşdur.*

*Elmi məsləhətçi:*

**İsa HƏBİBBƏYLİ**
*akademik*

*Redaktor:*

**Cavid CƏFƏROV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**K58** **Kərimli Teymur. Heydər Əliyev və klassik irs.** – Bakı, Elm və təhsil, – 2023. – 188 s.

Kitab Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr olunmuşdur.

Əsərdə Ulu öndər Heydər Əliyevin Azərbaycan klassik irsinə sevgi və qayğısından, bu irsin öyrənilməsi, tədqiqi və təbliği istiqamətindəki unudulmaz fəaliyyətlərindən bəhs olunmuşdur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN:**

© Kərimli T., 2023

*Yüz il sonra sorsan: "Bəs O hardadır?"*
*Hər beyti səslənər: "Burda, burdadır!"*
**Nizami Gəncəvi**

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin özü haqqında səsləndirdiyi bu peyğəmbərcəsinə beyti bir qədər iqtibas etsək, tam mənasilə Azərbaycan xalqının öz qədim və zəngin tarixi boyu yetirdiyi ən böyük şəxsiyyətlərdən biri olan Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyevə də aid etmək olar:

*100 il sonra sorsan: "Bəs O hardadır?"*
*Hər işi səslənər: "Burda, burdadır!"*

Doğrudan da, müstəqil Azərbaycan Respublikasında həyatın hansı sahəsinə nəzər salsan, orada Heydər Əliyevdən bir iz, bir fəaliyyət nəticəsi, mükəmməl şəkildə gerçəkləşdirilmiş bir iş, bir mədəni-mənəvi abidə görəcəksən və bu baxımdan, əlbəttə ki, klassik irslə bağlı Ümummilli Liderin həyata keçirdiyi möhtəşəm fəaliyyət

də istisna edilə bilməz. Çünki bu fəaliyyət birbaşa Heydər Əliyevin formalaşdırdığı, sistemləşdirdiyi və sosial-siyasi-tarixi konsepsiya şəklinə gətirdiyi Azərbaycançılıq ideologiyası ilə bağlıdır və məlumdur ki, Ümummilli Lider bu ideologiyanın təbliğinə, hər bir azərbaycanlının qürur duyacağı və milli varlıq vasitəsinə çevirməyə borclu olduğu bir fəaliyyət stimuluna transformasiya edilməsinə müstəsna dərəcədə böyük önəm verirdi.

"İrs" və "varis". Ərəb dilindəki eyni feil kökündən törəmiş bu iki kəlmə bir-biri ilə həm də mahiyyətcə sıx bağlıdır. Belə ki, biri olmazsa, o birinin də mövcudluğu mənasızlaşar: yəni, irs olmasa, varislik olmaz; varislik olmadıqda isə irs öz mənasını itirir və onun varlığı ilə yoxluğu arasında elə bir fərq olmur. Başqa sözlə desək, varislik irsi bir güzgü kimi özündə əks etdirir və əgər bu güzgü olmasa, yaxud müəyyən səbəblərdən sınsa, o zaman irs, alman filosofu İmmanuil Kantın məşhur ifadəsi ilə desək, "şey özündə" olaraq qalır.

Fərdi səviyyədə götürsək, dünyadan köçən hər hansı bir insanın ölümündən sonra onun mal-dövləti övladlarına və ya başqa varislərinə qalır. Varissiz ölənlər isə bunu kiməsə vəsiyyət edir və ya müəyyən cəmiyyətlərin xeyrinə vəsiyyətnamə yazırlar. Müsəlman ölkələrində bu cür vəsiyyətlər adətən xeyriyyə təşkilatı sayılan təkyələrə və vəqflərə yazılır.

Problemi xalq və dövlət sərvəti olan miras, irs səviyyəsində qəbul etdikdə isə məsələ tamamilə başqa xa-

rakter alır. Burada artıq varis rolunda xalq və dövlət çıxış etdiyindən, bu irsin taleyini müəyyənləşdirən, onu qiymətləndirən, həqiqətən layiq olduğu qiyməti verən ədalətli bir hakimə, daha doğrusu, xalqın və dövlətin başında duran bir liderə ehtiyac olur. Tarixi təcrübədən də bizə yaxşı məlumdur ki, klassik irsə doğru-düzgün qiymət verə bilməyən, xalqın və dövlətin istər çağdaş, istərsə də gələcək taleyində, mübarizə yolunda onun yerini müəyyənləşdirə bilməyən, aktuallığını dəyərləndirməyən bir dövlət başçısı olduqda, həmin irsin özünün də taleyi çox qaranlıq qalır və ən əsası isə, işlək mexanizm kimi ölkəyə və millətə fayda gətirə bilmir.

Bu düşüncələrdən çıxış etsək, əminliklə deyə bilərik ki, Azərbaycan xalqının və dövlətinin, xüsusən son 50 ildəki tale ulduzu çox parlaq olub ki, Ulu Öndər Heydər Əliyev və onun mənəvi-siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kimi klassik irsi qiymətləndirməyi bacaran və onun əhəmiyyətini, xalqın və dövlətin taleyində oynadığı və oynayacağı rolu düzgün müəyyən edən liderlərin başçılığı altında qələbədən qələbəyə gedən şərəfli tarixini baş ucalığı, alın açıqlığı ilə davam etdirib.

10 may 1923 və 12 dekabr 2003. Bəşər tarixinin 29433 günə bərabər olan bir kəsimi və əslində əbədiyyət sayıla bilən bu tarixin sadəcə bir anı. Dünya xalqlarının mifologiyasında, folklorunda, klassik ədəbiyyatında müqəddəs sayılan 3 rəqəmi dahi bir şəxsiyyətin həyat yolun-

da da öz rolunu oynadı. 23-cü ildə doğulub, 2003-cü ildə – böyük və səmərəli ömrünün gün sayında iki 3 sonsuzluq nişanı kimi qoşalaşanda o da sonsuzluğa, əbədiyyətə qovuşdu...

Əbədiyyət nöqtəsindən keçən daha 20 il 80 yaşlı Heydər Əliyevi ilk 100 yaşına çatdırdı. Azərbaycan tarixinin zirvə nöqtələrindən biri sayılacaq 2023-cü ilin 10 may tarixinə sayılı günlərimiz qaldı. Böyük sevgi və ehtiramla gözlədiyimiz bu əlamətdar günə hər bir qeyrətli azərbaycanlı gücü çatan, ünü yetən bir sovqatla, Ulu Öndərin uca şəninə layiq olacaq bir hədiyyə ilə gəlməyi özünə şərəf borcu bilir. Zira təkcə müstəqil Azərbaycan Respublikasının – böyük Heydər Əliyevin şah əsəri olan bu tarixi-siyasi-iqtisadi-mədəni qurumun hər bir vətəndaşının deyil, eləcə də 50 milyonluq dünya azərbaycanlılarının ürəyində millət qeyrəti daşıyan hər bir fərdi özünü bu böyük insan, tarixi şəxsiyyət, vətənpərvər ziyalı, millətsevər azərbaycanlı qarşısında borclu bilir. Həm də bu borc o borclardan deyil ki, qaytarmaqla bitsin, ödədikdən sonra artıq arxayınlıqla nəfəs alaraq bunun haqqında düşünməyəsən. Əslində, Heydər Əliyev doğma xalqı və ölkəsi uğrunda həyata keçirdiyi titanik fəaliyyəti ilə bütün azərbaycanlıların boyununa elə böyük bir minnət qoymuşdur ki, dünya durduqca və xalqımızın, dövlətimizin gündən-günə çiçəklənən həyatı davam etdikcə, bu borcun cüzi bir hissəsini belə, qaytarmaq mümkün olmayacaqdır. Həm də bu borcun azacıq da olsa qaytarılması, bu böyük

xidmətin layiqincə, gərəyincə qiymətləndirilməsi həmişə borcluların ürəyində müqəddəs bir razılıq, bir dinclik, hüzur, arxayınlıq duyğuları oyadacaqdır. Bunun nəticəsi olaraq isə, bir-birini əvəz edən nəsillər də borc qaytarma ənənəsini yaşadaraq, bu prosesi əbədi olaraq davam etdirəcək, bu prosesin gedişindən qürur duyacaqlar. Və hər bir millətin simasının gözəlliyini də elə bu borcu qaytarmağa sədaqət ənənəsinə ciddi şəkildə, tam bir məsuliyyətlə əməl etməsi müəyyənləşdirir.

Biz də məhz bu müqəddəs borc duyğusunun xoş təsiri və məsuliyyəti altında əlimizə qələm alaraq gücümüz daxilində borcumuzdan çıxmağı, daha doğrusu, ömürlük üzərimizdə xoş bir yük olan borcun cüzi bir hissəsini ödəməyi şərəf bildik. Çaba bizdən, uğur Tanrıdan!

***

Nəhənglər (istər coğrafi obyekt olsun, istər şəxsiyyət olsun) məsafədən (istər məkanca, istərsə də zamanca olsun) daha aydın görünürlər, onların nəhəngliyi daha bütöv şəkildə üzə çıxır, ətrafdakılar tərəfindən mükəmməl bir sistem kimi qavranılır. Azərbaycan xalqının öz zəngin və keşməkeşli tarixi boyu yetirdiyi ən böyük şəxsiyyətlərin ön sıralarında duranlardan biri olan, xalqımızın tarixi taleyinin, geosiyasi mövqeyinin müəyyənləşməsində müstəsna rol oynayan və bu taleyi özünün tükənməz enerjisi və istedadı sayəsində əbədi bir səadət məcrasına

yönəldən Heydər Əliyev dühası da bu baxımdan istisna təşkil etmir. Böyük öndərin fiziki fövtündən keçən hər il onun unikal, fədakar, yorulmaz ictimai-siyasi fəaliyyətinin indiyə qədər gizli qalan daha bir cəhətini üzə çıxarır və heç də qəribə deyildir ki, bu cəhətlər praktik baxımdan tükənməzdir; zira, zaman keçdikcə, Azərbaycan torpağında, Türk dünyasında və ümumiyyətlə, dünyada insan nəsilləri bir-birini əvəzlədikcə hər nəsilin öz Heydər Əliyevi olacaq, hər nəsil öz Heydər Əliyevinə öz dünyagörüşü, öz problemləri, inkişaf perspektivləri, mentaliteti baxımından yanaşacaq və onu narahat edən suallara bu nəhəng şəxsiyyətin çoxyönlü fəaliyyət arenasında, əlçatmaz düşüncə göylərində parlayan işıqda cavablar tapacaq. Necə ki, bu gün hər bir azərbaycanlı onu düşündürən suallara cavab almaq, qarşısına çıxan sosial-mədəni-mənəvi problemləri çözmək üçün öz Nizamisinə, öz Füzulisinə, öz Nəsimisinə, öz Axundzadəsinə, öz Cavidinə, öz Mirzə Cəlilinə, öz Sabirinə... üz tutur.

***

Ulu Öndərimizin müqəddəs ruhuna, onu sevənlərə təqdim olunan bu kiçik monoqrafiyanın əsasında dostum və həmkarım professor Vilayət Quliyevlə birgə yazdığımız və 2009-cu ildə nəşr olunaraq, Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabının az qala yarısını

təşkil edən “Heydər Əliyev və klassik ədəbiyyatımız” məqaləsi durur. Təbii ki, müstəqil monoqrafiya hazırlanarkən mümkün qədər professor Vilayət Quliyevin hissələrindən sərfi-nəzər etməyə, çağdaş müəlliflik hüququ baxımından plagiata yol verməməyə çalışmışam. Ancaq ola bilsin ki, şeytan bəzi məqamları gözümdən yayındırıb, bəzi hallarda eyni araşdırma obyektindən yazıldığına görə üst-üstə düşən fikirlərimiz olub – belə bir gözdənqaçma olarsa, hər şeydən öncə qələm dostumdan halallıq istəyirəm. İşdir, belə bir fakt ortaya çıxarsa, qoy buna görə qələm sahibləri məni bağışlasınlar və özlərinə gərək olmayanda gözdəki tiri görməyən, lazım olduqda isə qılı da mikroskop dəqiqliyi ilə seçən eybcuların gözü də bunları görməsin (hərçənd ki, eybculuq da bir peşədir və bu peşənin mükəmməl sahibləri milçəkdən fil düzəltmək sənətində yədi-beyzaya malikdirlər)!

Bir də ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi də özündən öncəki şairlərin süjetlərindən istifadə edərkən deyirdi ki: “Oxlar iki olsa da, hədəf, nişanə birdir...”

Bu belə... Başqa bir tərəfdən, monoqrafiya yazılarkən “klassik irs” anlamı altında təkcə klassik ədəbiyyat nəzərdə tutulmamışdır. Yəqin heç kim mübahisə etməz ki, ən böyük klassik irsimiz elə minillərdən bəri babalardan bizə yadigar qalan Ana Vətənimizdir. Klassik irs – bizim sevə-sevə yaşatdığımız adət-ənənələrimizdir. Dünya xalqları arasında bizim identikliyimizi müəyyənləşdi-

rən milli mentalitetimizdir. Bəşər mədəniyyətinin qızıl fonduna bəxş etdiyimiz böyük musiqi, incəsənət, memarlıq abidələrimizdir. Eləcə də Heydər Əliyevin timsalında o dahi şəxsiyyətin yeri gəldikcə, bəhs etdiyi dünya mədəniyyətinin klassikləridir və s. və i.a. Bu baxımdan klassik ədəbiyyatımıza Ümummilli Lider tərəfindən göstərilmiş diqqət, qayğı, qiymətləndirmə və təbliğ kitabda yalnız bir bölmədə nəzərdən keçirilmişdir.

Bir də ki, bütün bunları mən niyə deyirəm axı? İnşallah səbirli oxucu özünə əziyyət verib bir neçə saatını sərf etsə, hər şeyi özü görəcəkdir. Nahaq yerə deməyiblər ki, Tanrı səbir edənləri sevir...

***

Çağımızın elm və fikir nəhənglərindən, dünya elmi-texnoloji arenasında inqilab yaradanlardan biri, elmi mühitdə birmənalı qarşılanmayan belə bir müdrik kəlam işlədib ki, ədəbiyyat (yəni geniş mənada ədəbiyyat yox, bədii ədəbiyyat) heç bir ağrılı ictimai problemi həll etmir. Bu fikiri eşidəndə lap Mirzə Cəlilin məşhur səhnəciyinin qəhrəmanı kimi adam belə bir sual verməkdən özünü zorla saxlayır: "Cənab nəhəng, yəni heç yerli-dibli həll etmir, yoxsa bir baalaca nəyisə həll edir?" və İntibah dövrünün nəhəng alimlərindən biri olan Qalileo Qaliley demişkən, istər-istəməz belə qənaətə gəlirsən ki: "Hər halda o fırlanır..."

Və elə bunları düşünə-düşünə yadıma Ümummilli Liderimizin ədəbiyyat haqqında, özəlliklə klassik ədəbiyyat haqqında dediyi qiymətli kəlamlar düşdü: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür."[1]

Demək, biz dünya şöhrətli dahiyə etirazımızda yanılmamışıq və ədəbiyyat, yəni həqiqi ilhamın məhsulu olan bədii söz sənəti cəmiyyət həyatının yaxşılaşmasında, insanların mənəvi rahatlığının, estetik zövqünün, dolayısı yolla isə maddi rifah halının təmin edilməsində, insanlığın üz qarası olan vəhşi instinktlərdən uzaqlaşaraq mənəvi kamilliyə doğru irəliləməsində müəyyən qədər rol oynamağa qadirdir. Və zaman-zaman sözün qüdrətinə, dəyişdirici gücünə, "yoxdan var olmasına", "qeyb niqabından üzünü göstərməsinə", "sirlər xəzinəsinin sahibi" olmasına heyran olanların ən böyüklərindən biri – dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli nahaq yerə deməmişdi ki:

*Artıran söz qədrini sidqilə, qədrin artırır,*
*Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz!*

[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999.- s. 410-411.

1995-ci ilin aprel ayında çağımızın böyük şairi Məmməd Arazın yaradıcılıq gecəsindəki çıxışı zamanı bir daha yuxarıda istinad etdiyimiz fikrinə qayıdan, özü də çağdaş siyasətimizin və diplomatiyamızın klassiki olan, möhtəşəm bir klassik irs qoyub gedən Ümummilli Lider Heydər Əliyev klassiklərin daim xalqın gələcəyini, xoşbəxt həyatını düşünməsinə, insanlar arasında ədalətin, əmin-amanlığın, barışın, səmimiliyin bərqərar olması yolunda intellektual əmək sərf etməsinə və bunu özləri üçün istər davranış normasına, istərsə də yaradıcılıq kredosuna çevirməyinə böyük əhəmiyyət verərək deyirdi:

"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir. Bizim mütəfəkkir insanlarımız, şəxsiyyətlərimiz, böyük alimlərimiz, yazıçılarımız məhz bununla fəxr edirlər ki, xalqın içindən çıxaraq böyük mədəniyyət, ədəbiyyat, şeir nümunələri yaradaraq xalqı oyadıblar, qaldırıblar, ruhlandırıblar, mübarizəyə dəvət ediblər."[2]

Heydər Əliyev mədəniyyətə və ədəbiyyata, özəlliklə tarixin keşməkeşli sınaqlarından alnıaçıq çıxaraq hələ də aktuallığını itirməmiş, yeni qlobal-siyasi şərtlər daxilindəki çətin mübarizədə xalqın gücünə güc qatmış klas-

---

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999.- s. 251.

sik irsə, bu irsin daşıdığı humanist dəyərlərə xüsusi diqqət və qayğının göstərilməsini milli mentalitetimizin ayrılmaz əlaməti kimi səciyyələndirir, bir çox dünya xalqlarının milli məziyyətləri ilə müqayisədə bunun böyük mədəni-mənəvi üstünlük olduğunu, xalqımıza şərəf və başucalığı gətirdiyini vurğulayırdı. Və Azərbaycan ədəbiyyatının yaşlı nümayəndələri ilə Prezident Sarayında keçirdiyi 28 oktyabr 1997-ci il tarixli görüşdə bu xüsusda belə deyirdi:

“Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun da kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatımızı, tariximizi və mədəniyyətimizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqları əsərləri həmişə sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır.”[3]

“Bilmirəm, bəlkə səhv edirəm...” Bu da Heydər Əliyevin dahilərə məxsus yüksək təvazökarlığının parlaq təzahürlərindən biri kimi qiymətləndirilə bilər. Axı bütün

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999.- s. 378.

dünya bilirdi və Ulu Öndərin özü də bütün dünyadan əvvəl yaxşı bilirdi ki, heç vaxt yanılmır, səhv eləmir; xüsusən Azərbaycana, Azərbaycan xalqına, bu xalqın alicənablığına, unikallığına, mədəni keçmişinə münasibətdə heç bir səhvdən söz gedə bilməzdi və Heydər Əliyev burada özünəməxsus üslubi priyom işlədərək irəli sürdüyü fikri daha da qabartmaq, onun əhəmiyyətini vurğulamaq, dinləyicinin diqqətini məhz bu cəhətə fokuslamaq, necə deyərlər, düşüncə üçün material vermək istəyir və buna yüksək səviyyədə nail olur.

Bütövlükdə ədəbiyyata, onun ictimai-mənəvi inkişafda oynadığı rola yüksək qiymət verən Heydər Əliyev, xüsusən klassik ədəbiyyatı bu baxımdan fərqləndirir və Azərbaycan xalqının öz klassikası ilə fəxr etməyə haqlı olduğunu göstərirdi. 1997-ci ilin sonlarında Prezident Sarayında Azərbaycan ədəbiyyatının gənc nümayəndələrini qəbul edən Ümummilli Lider onlara ünvanladığı tövsiyələrində və atalıq öyüdlərində xalqımızın malik olduğu ədəbi-mədəni dəyərləri unutmamağa, bunlarla hər zaman qürur duymağa çağıraraq deyirdi:

“Bizim xalqımız ən qədim zamanlardan ədəbiyyatla, ədəbiyyat nümunələri ilə tanınıbdır. Hətta Qərb ölkələrinin, inkişaf etmiş digər ölkələrin tarixini vərəqləyərkən görürük ki, xalqımızın yaratdığı ədəbi əsərlər, şeirlər onlardan xeyli əvvəl yaranıbdır. Beləliklə də, bir daha aydın olur ki, xalqımızın tarixində ədəbiyyat qədim dövrlərdən öz yerini tutubdur və xalqımızın inkişafında çox

böyük rol oynayıbdır."[4]

Heydər Əliyev, belə demək mümkünsə, klassik ədəbi prosesin də gözəl bilicisi idi və bu ədəbiyyatın ağır zəhmətlər, sarsıntılar, mənəvi yaşantılar, bəzən hakim-klerikal təbəqənin təqibləri və cəzalandırma mexanizminə sinə gərmək bahasına başa gəldiyini yaxşı anladığındandır ki, gənclərə də yaradıcılıqda asan yol tutmamağı və bununla da xalq üçün lazımlı ədəbi əsərlər ərsəyə gətirməyi tövsiyə edərək dünyagörmüş bir ağsaqqal müdrikliyi ilə deyirdi: "Ədəbiyyat, mədəniyyət isə həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasalar, böyük sənətkar ola bilməzlər. Siz gənclər bunu bilirsiniz, amma daha dərindən bilməlisiniz ki, ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsərlərinin – Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun, yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yaranması üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər."[5]

Ulu Öndər ədəbiyyatın cəmiyyət həyatında oynadığı müstəsna rolun ümumi tezislərini irəli sürməklə kifa-

[4] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999, - s. 398.
[5] Yenə orada, s. 399.

yətlənməyərək, konkret tarixi situasiyalarda onun təsir mexanizmini də konkret ədəbi abidənin timsalında göstərirdi. 2000-ci il aprel ayının 9-da “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik təntənəli yubiley mərasimindəki nitqində Heydər Əliyevin söylədiyi dahiyanə fikirlər bu baxımdan çox səciyyəvi sayılsın gərək. Həmin fikri ifadə edən qrammatik vahidlər o qədər bütöv və bir-biri ilə üzvi bağlılıqda təqdim olunub ki, hər hansı bir abzasını ixtisar etməyə iqtidarım çatmadı:

“Kitabi-Dədə Qorqud” bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, “Kitabi-Dədə Qorqud” kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, Dədə Qorqud kimi ulu əcdadımız vardır.

“Kitabi-Dədə Qorqud” xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir. 1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir.

Biz dövlət müstəqilliyimizi əldə edəndən, milli azadlığımıza çatandan sonra bu birliyin təmin olunması üçün böyük imkanlar əldə etmişik və bu birliyin bizim xalqlarımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmişik.

“Kitabi-Dədə Qorqud”un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır. Dövlət müstəqilliyi yolu ilə gedən, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər

şeydən vacibdir.

Bu gün biz "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini təntənəli bayram edərək, onun bu vəsiyyətlərinə sədaqətimizi bildiririk və bəyan edirik ki, Azərbaycan xalqı müstəqillik yollarında qarşıda duran bütün ağır və çətin məsələlərin həll edilməsində daha da sıx birləşəcək, daha da əlbir olacaqdır və daim irəliyə doğru gedəcəkdir.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanıdır. Biz "Kitabi-Dədə Qorqud"un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək, xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq. "Kitab-Dədə Qorqud" bu gün bizə çox gərəkdir.

"Kitabi-Dədə Qorqud" insanları, xalqları sülhə, barışa dəvət edibdir. Bizim xalqımız bu gün "Kitabi-Dədə Qorqud"un bu vəsiyyətlərinə sadiqdir. Ermənistan tərəfindən Azərbaycana edilən təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunubdur, işğal edilmiş ərazilərdən bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşüb çadırlarda ağır vəziyyətdə yaşayırlar. Biz böyük zərbələr almışıq. Amma bunlara baxmayaraq, Azərbaycan xalqı yenə də bütün dünyaya öz sülhsevərlik siyasətini nümayiş etdirir. Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bütün ölkələrdə, xüsusən türkdilli ölkələrdə sülhün, əmin-amanlığın bərqərar olunmasını istəyirik. Beləliklə, bu gün biz bu yubiley günündə Dədə Qorqud vəsiyyətlərinə sədaqətimizi bir daha nü-

mayiş etdiririk.

“Kitabi-Dədə Qorqud” özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir.” [6]

Nitqini “Kitabi-Dədə Qorqud” dastanının müasirliyinin dəqiq xarakteristikası ilə bitirən Ümummilli Lider demişdir:

“Kitabi-Dədə Qorqud” yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. “Kitabi-Dədə Qorqud” vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir. Bu məqsədə nail olmaq üçün mən sizin hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına böyük uğurlar arzulayıram.”[7]

Klassikanın yaşarlılığını bundan daha sadə və əyani şəkildə təqdim etmək, məncə, hər hansı bir döşünə döyən folklorçunun, ədəbiyyat tarixçisinin, ya da ədəbiyyat nəzəriyyəçisinin imkanı xaricindədir.

Yubileylərin keçirilməsini “Sovet sisteminin qalığı” sayan, ölkənin maliyyə baxımından çətin vəziyyətində yubileylərə vəsait xərclənməsini lazımsız hesab edənlərə tutarlı cavab verən Ümummilli Lider dövrünün fəl-

[6] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 26. - Bakı: Azərnəşr, - 2009, s. 180-181.
[7] Yenə orada, s. 182

səfi fikrinin aparıcı şəxsiyyətlərindən biri kimi bu cür tədbirlərin cəmiyyət, xalq, ölkə üçün vacibliyinin mahiyyətini açaraq deyir:

"Mən belələrinə əvvəl də cavab vermişəm, bu gün də cavab verirəm və onların hamısına deyirəm ki, bəli, belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara gedirik. Biz beləliklə, özümüz öz varlığımızı, milli köklərimizi dərk edirik. Biz belə yubileylərlə öz keçmişimizə, öz zəngin tariximizə hörmət və ehtiramımızı, qayğı və diqqətimizi ifadə edirik. Biz belə yubileylərlə dost, qardaş ölkələrlə, xalqlarla bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə mənsub olduğumuzu bir daha təsdiq edirik və bugünkü, gələcək nəsillərə nümunə göstəririk."[8]

Azərbaycan folklorunda və ədəbiyyatşünaslığında belə bir məşhur spesifik ifadə vardır: "Dədə Qorqud təəssüfü". Nə deməkdir Dədə Qorqud təəssüfü? Yəni "könlünə Tanrının ilham etdiyi, qaibdən dürlü xəbərlər verən, Oğuzun tamamən bilicisi" olan bir şəxsiyyət də hansısa bir yanlış hərəkətinə, yerinə düşməyən sözünə görə təəssüf edə bilərmi?

Bu suala yenə də zəngin folklorumuzun qoruyub bi-

[8] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 26. - Bakı: Azərnəşr, - 2009, s.86

zə çatdırdığı bir rəvayət cavab verir:

Oğuzun (yəni əslində Türkün) dilini yaradarkən bütün sözlərin mənasını dəqiq verən Dədə Qorqud etiraf edir ki, 4 sözdə yanılıb və buna görə təəssüf edir. Bu dörd söz hansılardır?

*"Gəlin"ə "ayıran" demədim mən Dədə Qorqud,*
*"Ayran"a "doyuran" demədim mən Dədə Qorqud.*
*"İynə"yə "tikən" demədim mən Dədə Qorqud,*
*"Tikan"a "sökən" demədim mən Dədə Qorqud.*

Eynilə dahi Ümummilli Liderimiz Heydər Əliyev də Azərbaycan Respublikasında hakimiyyətinin birinci dövründə "Kitabi-Dədə Qorqud"un yubileyini keçirmədiyinə təəssüflənir, eyni zamanda bunun obyektiv və subyektiv səbəblərini göstərməyi də unutmur:

"... Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri "Kitabi-Dədə Qorqud" dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və "Kitabi-Dədə Qorqud"un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır. Məsələn, 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində mən Azərbaycana rəhbərlik etdiyim zaman biz respublikamızın tarixi, keçmişi, ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirdik. Amma mən bu gün açıq deməliyəm ki, "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs irəli sürülməmişdir. Mən bu gün bunu qətiy-

yətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağanını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq."[9]

Göründüyü kimi, 1970-80-ci illərdə "Kitabi-Dədə Qorqud" tədbirinin keçirilməməsinin subyektiv səbəblərini Ümummilli Lider bu sözləri ilə aydın şəkildə şərh etmişdir. Ancaq bununla yanaşı, obyektiv səbəblər də var idi ki, Ulu Öndər onların da özünəməxsus elmi dəqiqliklə aydınlaşdırılmasını vacib hesab edərək deyirdi:

"Mən bu gün, bu müzakirə zamanı düşünürəm, - bəs nə üçün "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs olmamışdı? Eyni zamanda özüm belə bir cavab verə bilərəm: yəqin ona görə ki, ümumiyyətlə, bizim Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli insanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığına görə alimlərimiz, ictimai xadimlərimiz "Kitabi-Dədə Qorqud" haqqında təşəbbüs qaldırmağa bəlkə də cəsarət etməyiblər."[10]

---

[9] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 19. - Bakı: Azərnəşr, - 2006, s. 171.
[10] Yenə orada, s. 171-172.

Əlbəttə, siyasətdə, diplomatiyada, milli münasibətlərdə tükü tükdən seçməyi bacaran Ümummilli Lider keçmiş Sovet İttifaqında kommunist-xristian ideologiyasının əsasını təşkil edən türkofobiyanın bütün incəliklərinə bələd idi və göstərdiyi obyektiv səbəblər də “Kitabi-Dədə Qorqud”un dünya miqyaslı bir Azərbaycan abidəsi kimi geniş auditoriyada təqdim edilməsinin, Azərbaycan mədəniyyət tarixinin ölməz abidəsi kimi dünyada tanıdılmasının qarşısında duran divarlardan idi. Bu divarları isə Azərbaycanın əbədi, dönməz, sarsılmaz müstəqilliyi darmadağın eləmişdi və dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinin ən yüksək səviyyələrdə qeyd edilməsindən sonra 1997-ci ilin aprelində “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında Heydər Əliyevin imzaladığı fərman bu baxımdan müstəsna əhəmiyyət daşıyırdı. Bu o demək idi ki, bu cahanşümul tədbirin keçirilməsi haqqında möhkəm, sarsılmaz siyasi iradə irəli sürülmüşdür. Bu iradənin möhkəmliyi və sarsılmazlığı isə hər şeydən öncə Azərbaycan sevgisindən, yurd məhəbbətindən, el təəssübkeşliyindən, vətəni dünyada layiqincə tanıtmaq istəyindən qaynaqlandığı üçün heç bir kənar qüvvənin qarşısında geri çəkilə bilməməsində idi.

“Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının 16 fevral 1999-cu ildə keçirilmiş iclasında Ulu Öndər üzünü komissiya üzvlərinə tutub verdiyi tarixi fərmanın böyük əhəmiyyətini açıqla-

yaraq deyirdi:

"Siz bu fərmanın əhəmiyyətini burada çox düzgün qeyd etdiniz. Bu fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, "Kitabi-Dədə Qorqud" dastanının azı 1300 il yaşı vardır. İkincisi, onu bildiririk ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Burada çox deyildi, bəli, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir."[11]

Ümummilli Liderin klassik irsə münasibətinin ən vacib aspektlərindən biri – bu zəngin xəzinəyə perspektiv yöndən yanaşması, onun gələcək nəsillər arasında necə təbliğ edilməsi və milli mentalitetdə oynayacağı müstəsna rolla bağlıdır. Bunları nəzərdə tutan Ulu Öndər Dövlət komissiyasının iclasındakı çıxışını yekunlaşdırarkən demişdir:

"Hesab edirəm ki, 1997-ci ildə verilmiş fərman gələcək çox illər, onillər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl şəkildə həyata keçirməliyik. Biz nə qədər çox işləsək, "Kitabi-Dədə Qorqud"u, tariximizi bugünkü və gələcək nəsillərə daha da dolğun, düzgün çatdıra biləcəyik. Biz bunu mütləq etməliyik."[12]

---

[11] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 19. - Bakı: Azərnəşr, - 2006. - s. 174.

[12] Yenə orada, s. 175.

Klassik irsin öyrənilməsində, qiymətləndirilməsində və təbliğində müstəqil dövlətçiliyin verdiyi imkanları müstəsna dərəcədə yüksək qiymətləndirən Ümummilli Lider bu imkanlardan maksimum dərəcədə səmərəli istifadənin vacibliyini vurğulayaraq onlardan vətənin və xalqın rifahı naminə necə faydalanmağın yollarını da göstərir:

"Nəhayət, həmin fərmanın ("Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin keçirilməsi haqqında" 20 aprel 1997-ci il tarixli Prezident fərmanı nəzərdə tutulur – T.K.) meydana çıxması və indi bu müzakirənin aparılması, gələcəkdə görüləcək işlər Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir. Bəli, biz keçmişdə nə qədər iş görmüşüksə, indi – müstəqil dövlət olduqdan sonra gördüyümüz işlər onların hamısından üstündür. Çünki biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi əks etdiririk və əks etdirəcəyik.

Biz öz tariximizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki "Kitabi-Dədə Qorqud" dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər. bunlar da ölkəmizin müstəqilliyi nəticəsində mümkün olmuşdur. Biz bu müstəqillik dövründən səmərəli istifadə etməliyik."[13]

Başladığı bütün işləri yüksək səviyyədə məntiqi sonuna çatdırmağı bir fəaliyyət üslubu kimi seçmiş, bunu

[13] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K. 19. - Bakı: Azərnəşr, - 2006. - s. 175.

özünün Vətən qarşısında yüksək missiyası kimi təsdiq etmiş Ümummilli Lider "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin də yüksək səviyyədə keçirilməsi üçün bu möhtəşəm tədbirə hazırlıq işlərini daim diqqət mərkəzində saxlamış, rəhbərlik etdiyi komissiya üzvlərindən də ciddi məsuliyyət və işgüzarlıq tələb etmişdir. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının 11 mart 2000-ci ildə keçirilmiş iclasında etdiyi dərin məzmunlu, taleyüklü nitqi bunun parlaq sübutu kimi nəzərdən keçirilə bilər. İclasdakı yekun nitqində yubileylərin keçirilməsi məqsədlərini açıqlayan Heydər Əliyev deyirdi:

"Tarixi şəxsiyyətlər və xüsusən qədim dövrdə Azərbaycan xalqının tarixi şəxsiyyətləri ümumiyyətlə, az öyrənilib, tədqiq olunub və müasir nəsillərə çox az məlumdur. Buna görə də belə tədbirlərin keçirilməsi o demək deyildir ki, yubiley keçirib hansısa konsert dinləyəsən, yaxud hansısa bir şənliyin iştirakçısı olasan. Bunların əsas mənası və məqsədi zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş tədqiq etmək, onu xalqımıza və dünyaya təqdim etmək və beləliklə də əsrlər boyu tarixşünaslıq nöqteyi-nəzərindən itirdiyimiz şeyləri bərpa etməkdir."[14]

Azərbaycan tarixşünaslığı, eləcə də klassik irsinin tədqiqi üçün proqram xarakteri daşıyan bu sözlərin əsas

---

[14] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 25. – Bakı, Azərnəşr, - 2008.- s. 332-333.

məna və məzmun siqləti – Ümummilli Liderin öz qarşısına, eləcə də klassik irs tədqiqatçıları qarşısına qoyduğu bərpaçılıq missiyasıdır ki, bütövlükdə Azərbaycanşünaslıq üçün bunun müstəsna əhəmiyyətini zənnimcə, kimsə inkar edə bilməz.

Onu deməliyik ki, məhz Ümummilli Liderin bu müqəddəs bərpaçılıq missiyasının bərəkətindən tariximizin, klassik irsimizin bir çox "ağ ləkələri" konkret materiallarla doldurulmuş, bu isə öz növbəsində bütövlükdə mədəniyyət tariximizin daha dolğun və zəngin şəkildə həm xalqımıza, həm də bütün dünyaya təqdim edilməsinə səbəb olmuşdur.

"Kitabi-Dədə Qorqud"u xalqımızın "Ana kitabı" adlandıran Heydər Əliyev, Dədə Qorqud sevgisinin əslində Azərbaycan sevgisi olduğunu xüsusi vurğulayaraq deyirdi:

"İndi hamı bu fikirdədir, kitablar da onu göstərir, Drezden kitabxanasından gələn nüsxə də bunu deyir ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim *ana kitabımızdır* (seçmə bizimdir – T.K.). bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər. bu bizim xalqımızın ço-

xəsrlik tarixində yeni bir mərhələdir."[15]

Ümummilli Lider klassik irsimizin ölməz əsərlərini birinci növbədə nəsillər arasında körpü kimi qiymətləndirir, onların başlıca missiyasını ölkə və cəmiyyət üçün layiqli vətəndaş yetişdirməkdə görürdü. Onun fikrincə, klassik irsimiz gənc nəsildə öz zəngin və şərəfli tarixi, mədəniyyəti, ədəbiyyatı ilə qürur duymaq duyğularını gücləndirməli, belə bir ölkənin vətəndaşı, belə bir xalqın nümayəndəsi olduğu üçün fəxr etməyinə səbəb olmalıdır. Xüsusən müstəqil bir ölkədə dövlətçilik tərbiyəsinin yüksək səviyyədə aparılması üçün klassik irsin müstəsna əhəmiyyətini Ulu Öndər hər uyğun situasiyada təkrar etməkdən yorulmurdu:

"Azərbaycan səkkiz ildir ki, müstəqil dövlətdir. Bu illərin çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açmışıq, xalqımıza göstərmişik. Beləliklə də xalqımız öz tarixini, keçmişini daha dəqiq bilərək, daha da məğrur insan, azərbaycanlı, vətəndaş olur. Bu, çox mühüm məsələdir. Çünki dövlət müstəqilliyini əldə etmək, dövlət quruculuğunda dəyişikliklər yaratmaq və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə getmək böyük bir prosesdir. Amma onu elan etmək, bu barədə dövlət tədbirləri həyata keçirmək azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil azərbaycançılığın, Azər-

[15] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 25. – Bakı, Azərnəşr, - 2008.- s..335-336.

baycanın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Biz buna nə qədər çox nail olsaq, bizim millətimizdə millilik, vətənpərvərlik əhval-ruhiyyəsi, öz torpağına, xalqına məhəbbət hissi bir o qədər çox artacaqdır."[16]

Özü də elə düşünülməsin ki, klassik irsə, klassik ədəbiyyata verilən bu cür yüksək dəyər, bu cür müdrik sözlər 75 illik həyat təcrübəsindən müdrikləşmiş, zəngin ictimai-fəlsəfi biliklər toplamış və bu bilikləri ümumiləşdirmə gücü ilə dahiyanə fikirlərə çevirmək qabiliyyəti əldə etmiş bir müdrik ağsaqqalın keçdiyi uzun və səmərəli yolun hər kəsə örnək ola biləcək yekunudur. Bunun belə olmadığına əminlik hasil etmək üçün gəlin, Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyinin başlanğıc illərinə qayıdaq; onda görəcəyik ki, Heydər Əliyev fenomeni, bu tükənməz müdriklik qaynağı elə başlanğıcından bütün gücü və saflığı ilə bu cür dahiyanə fikirlərlə çağlamış, xalqın və ölkənin rifahı naminə bir an belə öz səmərəli fəaliyyətindən geri durmamışdır.

1972-ci il... 45 yaşlı Ulu Öndərin Azərbaycana rəhbərlik stajı cəmi üç ildir. Azərbaycan yazıçılarının V qurultayında o yenə də əsas vurğunu klassik irsin, klassik ədəbiyyatın üzərinə salaraq, ictimai həyatda sənətin və sənətkarın müstəsna rolu haqqındakı fikirlərini bu cür

---

[16] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 25. – Bakı, Azərnəşr, - 2008.- s. 336.

ümumiləşdirir:

"Bizim klassiklərimiz dinə qarşı amansız, barışmaz mübarizədə ədəbiyyat və incəsənətdən cəsarətlə və məharətlə istifadə edirdilər. Çox çətin, həyat üçün təhlükəli şəraitdə Cəlil Məmmədquluzadə, Sabir və başqaları dini, onun xadimlərini qorxu bilmədən ifşa edirdilər, xalqın şüurunu oyadırdılar, həqiqətən böyük vətəndaşlıq hünəri göstərirdilər.

Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər. Bu ənənələri inkişaf etdirmək sizin vəzifənizdir."[17]

"Dinə qarşı mübarizə", "dinin və din xadimlərinin ifşası" ifadələri oxucunu çaşdırmasın, ya da bunu o dövrün kommunist ideologiyasının tələbləri ilə izah etmək cəhdləri göstərilməsin gərək. Məsələ bundadır ki, o dövrdə mütərəqqi söz sənətkarlarının öz ezop dili olduğu kimi, Heydər Əliyev çapında ictimai-siyasi xadimlərin və diplomatların da özlərinə məxsus ezop dili var idi və yuxarıdakı ifadələr altında böyük Heydər Əliyev, qətiyyən şübhə etməyin ki, bir ictimai-tarixi hadisə kimi dini deyil, xalqın bir çox nümayəndələri arasında hökm sürən (çox təəssüf ki, elə indinin özündə də!) avamlığı, cəhaləti, xurafatı, mistikanı, şüur geriliyini nəzərdə tuturdu və klassikləri məhz bu baxımdan öz müasiri olan Azərbaycan yazıçılarına örnək göstərirdi.

Fikrimizi daha aydın şəkildə ifadə etmək üçün Cəlil

[17] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999, - s. 22-23.

Məmmədquluzadənin 125 illik yubileyində Heydər Əliyevin irad etdiyi nitqin bəzi məqamlarına nəzər salmaq kifayətdir. Mirzə Cəlilin "Ölülər" əsərini yeni təfəkkür işığında dahiyanə bir sadəliklə araşdırıb dəyərləndirən Ümummilli Liderimiz klassikanın milli tarixin müxtəlif dönəmlərində müxtəlif problemlərin həllinə yardım göstərdiyini aşağıdakı kimi dəyərləndirirdi:

"...Mirzə Cəlil bu əsəri ("Ölülər" əsərini – T.K.) yaradarkən heç də dinə müxalif çıxmamış, əksinə, bu əsərlə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışmışdır. Eyni zamanda o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edərək tənqid atəşinə tutmuşdur."[18]

Heydər Əliyev "Ölülər" kimi klassik əsərin bu gün də öz əhəmiyyətini itirmədiyini, aktuallığını saxladığını çox inandırıcı şəkildə ortaya qoymağa nail olmuşdur:

"İndi biz öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyildir. Mirzə Cəlil isə beləlvaləri ilə o

[18] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999, - s. 244.

vaxt mübarizə aparmış və "Ölülər" əsəri ilə bizə bunu vəsiyyət etmişdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik."[19]

Yəqin ki, burada bir haşiyə çıxaraq "Ölülər" dramının mənfi qəhrəmanının mənşəyinə qısaca bir nəzər salıb bundan çağdaş dövrümüz üçün müəyyən nəticələr çıxarmağa güclü bir ehtiyac vardır. Əsərin baş qəhrəmanı İskəndər Şeyx Nəsrullahı nifrətlə "İsfahan lotusu" adlandırır. Burada hər halda bir rəmzi məna olmamış deyildir. Belə ki, uzun yüzilliklər ərzində dini siyasi oyunbazlıq və fitnə-fəsad alətinə çevirərək səmimi qonşularına qarşı öz çirkin və riyakar, xain məqsədləri üçün istifadə edən İran klerikallarının ifşası hələ o zaman böyük mütəfəkkir və alovlu vətənpərvər olan Cəlil Məmmədquluzadəni dərindən düşündürmüş və o bu məqsədlə "İsfahan lotusu" Şeyx Nəsrullah kimi qrotesk bir obrazı çox böyük məharətlə yaradaraq amansızlıqla ifşa etmişdir.

Ancaq gəlin görək, bu ölməz əsəri ilə dahi Mirzə Cəlil İran fitnəsinin kökünü kəsib ata bilmişdirmi? Bu xain və namərd xərçəng metastazının bütün qol-budaqlarını satiranın yandırıcı alovu ilə yandırıb qurutmuşdurmu? Bir daha residiv verməməsi üçün xalqın avam kütlələrinin gözünü bütün genişliyi ilə aça bilmişdirmi? Təəssüf ki, əsərin yazılmasından və tamaşaya qoyulmasından 100 ildən artıq bir vaxt keçsə də, bu ağrılı suallara müsbət ca-

[19] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999, - s. 244-245.

vab verə bilmirik hələlik. Hələ də üzdə islamdan və şiəlikdən dəm vurub, arxada islam və türk düşməni, xain və fitnəkar, namərd, alçaq, hiyləgər erməni ilə qol-boyun olan, beynəlxalq hüququn bütün normalarına nümayişkaranə şəkildə tüpürən İran klerikal hakimiyyəti bu gün də öz molla-dronlarını Azərbaycana "uçurtmaqdan", onların daşıdığı xurafat bombaları ilə beyinləri zəhərləməkdən əl çəkmir. İş o yerə çatıb ki, əhalisinin yarıdan çoxu Azərbaycan türkü olan Tehranda, Azərbaycan ərazisinin bir parçası sayılan Azərbaycan Respublikasının səfirliyində günün günorta çağı vətəndaşlarımıza qarşı silahlı sui-qəsd, terror aktı təşkil edir və bunu həyasız bir utanmazlıqla "məişət hadisəsi" adlandırmaqdan da çəkinmir...

Bəli, Türk dünyasının ən böyük şəxsiyyətlərindən biri, peyğəmbərimiz Məhəmməd əleyhüssəlamın çağdaşı, Azərbaycanın ədəbi-tarixi keçmişinin fəxri olan, dünya epos qəhrəmanlarının önündə gedən, vətən, xalq haqqında söylədiyi müdrik fikirləri bu gün də dillər əzbəri olan Dədəm Qorqud hələ 1300 il bundan öncə nahaq yerə demirdi ki, qarı düşmən dost olmaz!

Bu nöqtəyə xüsusi fikir verin: uydurma, antihumanist kommunist ideologiyasının hökm sürdüyü Sovet dönəmində süni olaraq qarşı-qarşıya qoyulan və barışmaz düşmənlər kimi təqdim olunan iki dəyər – islam dini və Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycan xalqının mənəvi yüksəlişinə xidmət meyarı ilə necə də dəqiq və gözəl şəkildə məhək daşına çəkilir və onların hər iki-

sinin eyni ülvi məqsədə xidmət etdiyi və bu yolda hər cür fədakarlıqdan çəkinmədiyi inandırıcı dəlillərlə ortaya qoyulur.

Heydər Əliyevə görə, hər iki dəyər insanı mənəvi şikəstlikdən qorumaq, günahlardan çəkindirmək, haqqın və ədalətin açıq-aydın göstərdiyi doğru yolda öz üzərinə düşən humanist missiyanı şərəflə yerinə yetirir və nə qədər ki, cəmiyyətdə mənən şikəstlər, şeytana qulluq edən iblis xislətli fərdlər, uydurma dəyərlərin təbliğinə uymaqla beynini qurutmuş avam insanlar var, onlara qarşı amansız mübarizədə həqiqi dini dəyərlər və Mirzə Cəlilin simasında klassik ədəbi dəyərlər bizə lazım olacaqdır:

"Bu mənəvi şikəstlik bizim cəmiyyətdə indi də var. İndi də qardaşına, dostuna, yoldaşına xəyanət edənlər, indi də millətinə, xalqına xəyanət edən adamlar vardır. Belələri çoxdur, bəlkə o vaxtkından daha çoxdur. Ona görə də "Ölülər" əsərinin bu cəhəti bizim üçün çox əhəmiyyətlidir və o, böyük bir fəlsəfi əsər kimi bizə bu gün də lazımdır."[20]

Və bu işıqda yanaşsaq, Heydər Əliyevin müstəqillik illərində dinə, daha doğrusu, dini-mənəvi dəyərlərimizə verdiyi böyük önəm də qətiyyən yuxarıda sitat gətirdiyimiz fikirlə ziddiyyət təşkil etmir. Məsələ burasındadır ki, Heydər Əliyevin özünün də etiraf etdiyi kimi, onun həyat və fəaliyyət mövqeyinin, prinsiplərinin müəyyənləşmə-

[20] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 245.

sində və formalaşmasında ülvi bir meyar olub ki, titanik fəaliyyəti boyu hər şeyi bu meyara uyğunlaşdırıb. Hətta lazım gəldikdə dissident olmaqdan belə geri durmayıb. 1997-ci ilin noyabrında Azərbaycan Yazıçılar Birliyinin X qurultayında etdiyi nitqində bu etirafı dilinə gətirən Ulu Öndər deyirdi: "1969-cu ildən başlayaraq 1987-ci ildə istefaya getdiyim zamanadək kommunist partiyasında ən böyük dissidentlərdən biri mən olmuşam. Heç də təsadüfi deyil ki, kommunist partiyasına o qədər xidmət edən bir adam – yəni mən həqiqətən kommunist partiyasına xidmət etmişəm – 1990-cı ilin yanvar hadisələrindən sonra kommunist partiyasını tərk etmişəm. Azərbaycanda bunu etməyə adi adamların cəsarəti çatmadı. Amma mən böyük çətinliklər içərisində və böyük təhlükə altında kommunist partiyasını tərk etdim. Mən adi tərk etmədim, mənim bu barədə bəyanatım qəzetlərdə dərc olunub, oxumusunuz. Mən ittiham verdim, bildirdim ki, nəyə görə kommunist partiyasını tərk edirəm. Ümumiyyətlə, mən nə etmişəmsə, hamısını şüurlu etmişəm. Heç bir şeyi şüursuz etməmişəm. Bütün keçmişimə, həyatıma görə, bütün gördüyüm işlərə görə də heyifsilənmirəm. Hesab edirəm ki, hamısını xalqın naminə, millətin naminə və doğma Azərbaycanın naminə etmişəm."[21]

Bəli, belə bir məşhur söz var ki: "İngiltərənin daimi dostları və daimi düşmənləri yoxdur; İngiltərənin daimi

[21] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 439.

maraqları var...”

Eynilə Ümummilli Lider Heydər Əliyevin də bütün maraqları, ictimai mənafeyi Azərbaycanın, Azərbaycan xalqının mənafeyi, rifahı, firavanlığı, azadlığı, müstəqilliyi, xoşbəxtliyi ilə müəyyən olunurdu. Və bütün bunlara xidmət edən nə vardısa, Heydər Əliyevin prinsiplərini, həyat və fəaliyyət mövqeyini müəyyənləşdirirdi. Elə klassik irsin, klassik ədəbiyyatın əhəmiyyətini və dəyərini də Ulu Öndər bu meyarla müəyyən edir, bu mizan-tərəzidə çəkib sanbalını ortaya qoyurdu. Klassik ədəbiyyatımızın bu cür ölməz qaynaqlarından biri – ana kitabı, “Ümmül-kitab”ı isə, heç şübhəsiz ki, Qurani-Kərim idi.

Yüksək əxlaq və mənəviyyat adamı kimi Heydər Əliyev üçün Qurani-Kərim və onun gətirdiyi islam dini – hər şeydən öncə, mənəvi saflıq, səmimiyyət, doğruluq, sədaqət mənbəyi idi ki, hər hansı bir xalqın xoşbəxtliyini bu cür ülvi sifətlər olmadan təsəvvür etmək yəqin ki, qeyri-mümkün olardı. XIII yüzillikdə anadilli epik şeirimizin şah əsəri sayılan “Dastani-Əhməd Hərami” poemasının leytmotivinə nəzər salsaq, yeddi yüz ildən sonra dahi Heydər Əliyevin də bu klassik abidədə özünə yer tapmış eyni əxlaqi-mənəvi dəyərlərə söykəndiyini, klassikamızın layiqli varisi kimi çıxış etdiyini görərik. Adı tarixin dolanbaclarında itib-batmış dastan müəllifi üzünü yüzillər sonrakı övladlarına – milli mentalitetin daşıyıcılarına tutub türkün “sevgili, ehsaslı dilində” (Məhəmmədhüseyn Şəhriyar) deyirdi:

*Səfa xatirlər içində kin olmaz,*
*Kin olduğu könüllərdə din olmaz!*

Eynilə Heydər Əliyev dühası da özünün "səfa xatiri" – saf ürəyi ilə dini dünyaya qarşı deyil, kinə, xəbisliyə, riyakarlığa, hiyləgərliyə, tülkülüyə, qəddarlığa, qaniçənliyə qarşı qoyurdu və yəqin ki, dünya dövlətlərinin bir çox başçıları bu məsələdə, yəni dinlə dünyanın uyğunlaşdırılması məsələsində Heydər Əliyev məktəbindən hələ çox şey öyrənməli olacaqlar. Xüsusən, sonuncu səmavi din olan islamın səmavi kitabı Qurani-Kərim haqqında Ümummilli Liderin dedikləri proqram xarakterli sözlər bu gün də öz lakonikliyi və dərin mənası ilə dini dəyərlərimizə məhəbbət yaradır, insanları birliyə, qardaşlığa, gözəlliyə çağırır və bundan sonra da yüzilliklər boyu çağıracaqdır:

"Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, dəyanətə dəvət edən tələblərdir, tövsiyələrdir."[22]

Zənnimizcə, hələ belə bir statistika aparılmayıb ki, Heydər Əliyev mədəni-mənəvi həyatımızın hansı sahəsinə daha çox önəm verib, o haqda daha ətraflı bəhs edib, onun inkişafına daha çox diqqət yetirib. Bu cür statistika yəqin heç aparılmayacaq da; çünki Heydər Əliyev bir

[22] Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər.- Bakı, "Azərbaycan Universiteti" Nəşriyyatı.- 1997, - s. 81.

Azərbaycan aşiqi idi və sevgilisinə aid olan heç bir şey onun üçün dərəcələrə bölünmürdü; Azərbaycanla bağlı olan ən kiçik bir cizgi, ilk baxışda əhəmiyyətsiz görünən ən kiçik bir məsələ də onun üçün birinci dərəcəli önəm daşıyırdı. Azərbaycana, Türk dünyasına aid olan ən kiçik təfərrüatlara, ən xırda detallara belə professional səviyyədə bələd olması da məhz bu sevgidən, bu vurğunluqdan qaynaqlanırdı.

Bu yöndən yanaşdıqda məncə, ədəbiyyatçılar, ədəbiyyat adamları gərək çox da qürrələnməsinlər ki, Heydər Əliyev bizə müstəsna diqqət ayırırdı. Bəli, bütün peşə sahiblərinə, bütün Azərbaycan xalqına ayırdığı müstəsna diqqətdən bir pay da ədəbiyyata ayırırdı və bütün Azərbaycan xalqı kimi, ədəbiyyat adamlarının, yazıçı və şairlərin, alimlərin, ədəbiyyatşünasların da bununla qürrələnməyə, fəxr etməyə, qıvanc və güvənc duymağa tamamilə haqları var.

Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusuna maraq hələ Ulu Öndərin sağlığında ədəbiyyatşünas alimlər arasında özünü güclü şəkildə göstərmiş və bu marağın nəticəsi olaraq, "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" monoqrafiyası ərsəyə gəlmişdir. Monoqrafiyada akademik Bəkir Nəbiyev, AMEA-nın müxbir üzvü Yaşar Qarayev, professor Vilayət Quliyev və professor Məhərrəm Qasımlının qələmindən çıxmış qiymətli tədqiqatlar bu gün də ədəbiyyatşünaslıq elmimiz və bütövlükdə heydərəliyevşünaslığımız üçün öz aktuallığını və əhəmiyyə-

tini itirməmişdir. Ancaq Heydər Əliyevin 75 illik yubileyi münasibətilə, 1998-ci ildə işıq üzü görmüş monoqrafiyanın nəşrindən keçən illər ərzində həmin mövzu bir sıra yeni materiallarla zənginləşmişdir ki, bu da problemə bir daha qayıtmağın zəruriliyini şərtləndirir. Belə ki, əsərdə təbii olaraq, Ulu Öndərin yalnız 1998-ci ilə qədər gördüyü işlər, söylədiyi fikir və mülahizələr araşdırma obyektinə çevrilmişdir. Sonrakı altı illik bir dövrün materialını da əhatə etmək məqsədilə, başqa sözlə, heydərəliyevşünaslıqda özünü açıq-aydın göstərən bu boşluğu aradan qaldırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yeni müəlliflər cəlb etməklə monoqrafiyanın ikinci – yenidən işlənilmiş və təkmilləşdirilmiş nəşri hazırlanmışdır.

Monoqrafiyanın istər birinci, istərsə də ikinci nəşrinə qiymətli ön söz yazmış Azərbaycan ədəbiyyatının və Heydər Əliyev irsinin görkəmli bilicisi akademik Bəkir Nəbiyevin 2007-ci ildə nəşr etdirdiyi "Heydər Əliyev haqqında etüdlər" monoqrafiyası da elə bu zərurətin doğurduğu ehtiyacı aradan qaldırmağa yönəldilmişdi. Adından da göründüyü kimi, monoqrafiyada təkcə Heydər Əliyev və Azərbaycan ədəbiyyatı problemi deyil, Ümummilli Liderin çoxyönlü fəaliyyətinin mədəniyyətimiz və mənəviyyatımızla bağlı bir çox fikirlərinin ədəbiyyatşünas-alim və el ağsaqqalı görümündən açıqlanması ülvi və elmi tutumlu bir məqsəd kimi qarşıya qoyulmuş və müəllif bu nəcib məqsədinə çox yüksək səviyyədə yetişmə-

yə nail olmuşdur. Bəs görək hörmətli akademikin özü araşdırmanın giriş bölməsində tədqiqat obyektinə xas olan və müəllifi ilhama gətirən unikal insani cizgilər və özəlliklər barədə nə deyir, necə etirafda bulunur:

"Az qala səksən illik ömrümdə mən Azərbaycanda və xaricdə dəfələrlə böyük alimlər, məşhur ədiblər, mədəniyyət xadimləri, dövlət adamları, bəzi ölkələrin başçıları ilə görüşüb həmsöhbət olmuşam. Onlardan çox şey öyrənmişəm. Amma bu gün bütün varlığımla məmnun-məmnun etiraf edirəm ki, həyatın ən müxtəlif sahələrinə dair biliyinin zənginliyi, maraq dairəsinin vüsəti, yaddaşının itiliyi, tizfəhmliyi, ana dilimizdə və rusca nitqlərinin rəvanlığı baxımından Heydər Əliyevə bərabər olan ikinci bir şəxsiyyəti mən təsəvvürümə gətirə bilmirəm." [23]

Uzun bir həyat və zəngin elmi yaradıcılıq yolu keçmiş görkəmli, şan-şöhrətli bir alimin Heydər Əliyev fenomeninə verdiyi bu dəqiq qiymət – təkcə bir ziyalının, yaradıcı şəxsiyyətin Ulu Öndərə qarşı duyduğu təmənnasız səmimi məhəbbət və heyranlıq hisslərinin deyil, bütövlükdə Azərbaycan xalqının, o sıradan da Azərbaycan ziyalılarının ön cərgələrində qərar tutmuş şəxsiyyətlərin yaxşını və pisi misqalla çəkən tərəzi gözünün, bir qədər riyazi dillə desək, statistik ölçüsüdür, dəqiq, nöqsansız meyarıdır.

Yeri gəlmişkən, Heydər Əliyev diplomatiya və ida-

[23]B.Nəbiyev. Heydər Əliyev haqqında etüdlər. - Bakı: Çinar-çap.- 2007, - s. 4.

rəçilik məktəbinin son mogikanlarından biri olan, yenə də görkəmli ədəbiyyatşünas alim, bizim sabiq həmkarımız professor Vilayət Quliyevin də toplunun ilk nəşrində Heydər Əliyev və Azərbaycan ədəbiyyatı probleminə yanaşma bucağını onun öz sözləri ilə nəzərdən keçirmək maraq doğurur. Bütövlükdə ensiklopedizmə yad olan XX əsrin azsaylı ensiklopedik zəkalarından biri kimi qiymətləndirdiyi Ulu Öndər haqqında Vilayət Quliyevin aşağıdakı sözlərində də dərin səmimiyyət və heyranlıq çınqılarını sezməmək olmur:

“Heydər Əliyevin az qala hər gün yeni nümunələrlə zənginləşən ensiklopedist qənaətlərində ədəbiyyatla bağlı fikir və mülahizələr xüsusi yer tutur. Mübaliğəsiz demək olar ki, məktəb şagirdi kimi yazıb-oxumağı öyrəndiyi dövrdən bu günə kimi (oçerkin yazıldığı 1997-ci il nəzərdə tutulur – T.K.) Azərbaycan ədəbiyyatı Prezidentimizin ən etibarlı yol yoldaşı olmuşdur və olaraq qalır. Təsadüfi deyil ki, o özü də dəfələrlə bir şəxsiyyət kimi formalaşmasında, mənəvi cəhətdən kamilləşməsində doğma ədəbiyyatın əvəzsiz rol oynadığını etiraf edib. Yenə də mübaliğəsiz demək olar ki, Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Heydər Əliyev üçün eyni dərəcədə doğma və yaxın olmuş, onu eyni dərəcədə maraqlandırmışdır. O, folklor haqqında da, klassik və müasir ədəbiyyatın tanınmış nümayəndələri barəsində də eyni sərbəstliklə mülahizə yürüdür. İşinin həddindən artıq çoxluğuna, vaxtının və imkanlarının son

dərəcə məhdudluğuna baxmayaraq ədəbi inkişafın müasir mərhələsi, yeni və ən yeni ədəbi gəncliyin problem və qayğıları ilə maraqlanır. Deməyə ehtiyac yoxdur ki, çağdaş Azərbaycan yazıçılarının müxtəlif nəsilləri də Heydər Əliyevin şəxsində ən tələbkar oxucu və tənqidçilərini, ədəbiyyatın ən yaxın dostunu və təəssübkeşini görürlər.” [24]

Adı çəkilən monoqrafiyada, XX yüzillikdə Azərbaycan ədəbiyyatşünaslıq elminin ən görkəmli simalarından biri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Yaşar Qarayev də öz qiymətli oçerkində Heydər Əliyev və Azərbaycan ədəbiyyatı probleminin başqa bir rakursdan nəzərdən keçirilməsi örnəyini vermişdir. Fenomenal müşahidəçilik qabiliyyətinə və istedadına malik olan bir alim kimi Yaşar müəllimin müəyyən etdiyi bu rakursdan diqqət və zəndlə baxanda, təkcə Heydər Əliyev və Azərbaycan ədəbiyyatı probleminin deyil, bütövlükdə dahi siyasi liderin bədii yaradıcılıq prosesinə təsiri məsələsinin işıqlandırıldığını görürük:

“Bilavasitə tarixi-ictimai həyatda Prezidentin (Ümummilli Lider Heydər Əliyev nəzərdə tutulur – T.K.) siyasəti və əməli-təşkilati fəaliyyəti, həmçinin onun irəli sürdüyü nəzəri-ideoloji prinsiplərin təsirilə şərtlənən poeziya, nəsr və dramaturgiya hadisələri az deyil. Görüşlərindəki ən iti fikirlər nəinki impulsa və bioenerjiyə, üstəlik, nəzəri qənaət və konsepsiya üçün qeyri-rəsmi direktivə də

[24] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. - Bakı: Elm. - 1998, - s. 39-40.

çevrilə bilir.” [25]

Bu fikirlə bağlı, Yaşar Qarayevin yuxarıda toxunduğumuz polemika ilə ilgili Heydər Əliyev mövqeyindən çıxış etməsini sübut edən bir hadisəyə işarəsinin üstündən də sükutla keçmək olmaz. Xalqımızın istiqlal uğrunda mübarizəsinin son dövrlərinin üzərinə işıq salan bu örnəkdə, məhz Heydər Əliyev epoxasında görkəmli sənətkar və ictimai xadim kimi tanınan bir sənətkarın, belə demək mümkünsə, Heydər Əliyev ədəbi məktəbinin yetirməsi olan bir şairin sinəsini irəli verərək meydana atılmasından və ədəbiyyatın ictimai həyatı dəyişdirə bilməsini sübut etməsindən söz açılır. 1990-cı ilin 21 yanvar səhərini xatırlayan alim yazır: “...Bəxtiyar Vahabzadə qanlı qırğının (20 yanvar 1990-cı il qətliamı nəzərdə tutulur – T.K.) səhəri fövqəladə sessiyanın çağırılmasını radioda elan edir və bu elan həmin gün (21 yanvar) 10-15 dəfə təkrar olunur.

Nəhayət, özü çağırdığı sessiyanı Bəxtiyar özü də aparır.

Millət vəkillərinin üçdən ikisi gəlməmişdi, gələnlərin də çoxu uzaq rayon və şəhərlərdən idi... Bəxtiyar iclası aparmaq üçün köməkçi seçərkən də yenə məmurlardan birini yox, öz həmkarını – İsmayıl Şıxlını rəyasət heyətinə çağırır. 21 yanvar sessiyasını Bakıda bir şair və bir nasir aparır!.. Dünya siyasət teatrında görünməmiş bir hadisədir. Bu, ədəbiyyatın milli və siyasi həyatda iştira-

[25] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: “Elm”, 1998, - s. 14.

kının bariz nümunəsi deyilmi?!

Əsgər – Vətən borcunu torpağa qarışan qanı ilə ödədiyi kimi, şair də Vətən borcunu poeziyaya qarışan, şeirə, sözə, əmələ çevrilən qanı ilə ödəyir!..”[26]

Göründüyü kimi, Heydər Əliyev və Azərbaycan ədəbiyyatı problemini ən müxtəlif rakurslardan işıqlandırmaq mümkündür ki, onlar arasında ən önəmlilərindən biri də Ümummilli liderimizin mesenatlıq fəaliyyəti, ədəbi irsimizə - istər klassikamıza, istərsə də çağdaş sənətkarlara, xüsusilə, ədəbi gəncliyə və bütövlükdə dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının inkişafına, nəşrinə və təbliğinə, dünyada layiqincə tanıdılmasına göstərdiyi böyük himayədarlıqdır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının nəşrinə və təbliğinə ayırdığı böyük qayğı ilk növbədə özünü klassik ədəbi abidələrin timsalında göstərir. İlk dəfə Respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən 2003-cü ilə kimi, yəni bir qərinədən artıq tarixi dövr ərzində klassik ədəbi-mədəni irsin öyrənilməsi, təbliği, nəşri, qlobal səviyyədə tanıdılması və bununla da Azərbaycan xalqının, Azərbaycan Respublikasının dünya səviyyəsində layiq olduğu yüksək mövqeyin bərqərar edilməsi, bütün dünya xalqları tərəfindən tanınması bir an belə Heydər Əliyevin diqqətindən kənarda qalmayıb. Hakimiyyətə gəldiyi ilk aylardan mənəvi mədəniyyət və

[26] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. - Bakı: Elm, - 1998, - s. 149.

ədəbiyyat məsələlərini prioritet sahələrdən biri kimi müəyyənləşdirən Ulu Öndər 1969-cu ilin noyabrında, Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə söylədiyi proqram səciyyəli nitqində qarşıda duran mədəniyyət siyasətinin əsas tezislərini belə ifadə etmişdi:

"Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Məşhur filosof Əbülhəsən Bəhmənyarın və mütəfəkkir şair Nizami Gəncəvinin, riyaziyyatçı-astronom Nəsirəddin Tusinin və dahi lirik şair Məhəmməd Füzulinin, orta əsrlərin böyük alimi Rəşidəddinin və üsyankar şair İmadəddin Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqalarının adları bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir.

Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar."[27]

Sonrakı vətənşümul, xalqsevər, millət təəssüblü yorulmaz fəaliyyətində məhz bu taleyüklü tezisdən çıxış edən dahi rəhbər, Vətənin şanlı tarixində əbədi iz salmış bir çox başqa titanik əməlləri ilə yanaşı, "mədəniyyətimi-

[27] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. - Bakı, Ozan. - 1999, - s. 13-14.

zin çoxəsrlik tarixinin bəzəyi" (Heydər Əliyev) olan böyük klassiklərimizin ölməz irsinə özünə layiq və klassiklərə layiq səviyyədə göstərdiyi qayğı və diqqətə görə də, çağdaş və gələcək nəsillərə böyük xidmət göstərmiş, qədirbilən Azərbaycan xalqının ürəyində öz əbədi heykəlini, yıxılmaz mücəssəməsini ucaltmışdır.

Ulu Qorqudun sözləri ilə desək, bu yöndə Heydər Əliyevin vətənə, xalqa məhəbbət və coşqu ilə həyata keçirdiyi xidmətlərini sayacaq olsaq, başa varmaz. Ancaq imkan daxilində müəyyən faktlara diqqəti yönəltməklə problemə azacıq da olsa aydınlıq gətirmək istərdik.

Hamıya məlum olduğu üzrə, keçən yüzilliyin 40-cı illərində 800 illik yubileyi təntənə ilə qeyd olunan və bu münasibətlə keçmiş İttifaq miqyasında əsərləri nəşr və müxtəlif dillərə tərcümə edilən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi-poetik irsinin öyrənilməsi, nəşri və təbliği işində xüsusən keçən əsrin 80-ci illərinə doğru bir durğunluq özünü göstərməkdə idi. Bir peyğəmbər intuisiyası ilə bunun fərqinə varan Heydər Əliyev 1979-cu il yanvarın 6-da "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" tarixi qərar verdikdən sonra böyük sənətkarın irsinin nəşri, təbliği və tədqiqi görünməmiş bir vüsət aldı. Və başqa cür də ola bilməzdi; zira, Heydər Əliyevin qol qoyduğu bir iş, çözülməsini nəzərdə tutduğu bir problem özünün ən yüksək səviyyədə həllini tapma-

mış, tariximizin qızıl səhifələrinə yazılmamış qala bilməzdi. Çünki Onun rəvac verdiyi bütün işlər kimi, bu da bir haqq işi, xalqa, Vətənə, millətə coşğun sevgi üzərində qurulmuş təmənnasız xidmət işi idi.

*Ey Füzuli, intihasız zövq buldun eşqdən;*
*Böylədir hər iş ki, Həq adilə qılsan ibtida!*

Ədəbiyyatımızın ən böyük klassiklərindən biri haqqında verilmiş həmin tarixi qərarın və bu qərarla bağlı fədakarlıqla görülən misilsiz işlərin canlı şahidi kimi deyə bilərik ki, Ulu Öndər tərəfindən Nizami Gəncəvi irsi ilə ilgili qəbul edilmiş tarixi qərarın ən mühüm nəticələrindən biri, qısa müddətdə və o dövrün imkanlarına görə yüksək elmi-poliqrafik keyfiyyətlə çap edilərək oxuculara təqdim edilən qiymətli kitablar oldu.

Heydər Əliyevin Nizami Gəncəvi irsi haqqında verdiyi qərarın irəli sürdüyü vəzifələrə uyğun olaraq, şairin əsərlərinin Azərbaycan və rus dillərində yeni sətri tərcümələri görkəmli mütəxəssislər tərəfindən gerçəkləşdirilərək o zamankı poliqrafiya sənayesinin imkan verdiyi səviyyədə nəfis şəkildə çap olundu. Bu vətənşümul işi qısaca dəyərləndirəcək olsaq, deyə bilərik ki, böyük Nizami, XX əsrin 80-ci illərinin nəsli üçün yenidən doğuldu, yeni bir qüvvə ilə xalqımızın azadlıq uğrunda mübarizəsinə qoşuldu və bu doğuluşun, doğma xalqına bu növbəti qayıdışın baniyi-karı, el-oba dilində desək, baiskarı dahi

Heydər Əliyev oldu. Ən əsası da belə bir cəhəti qeyd etmək vacibdir ki, Azərbaycanın yeni nəslinə, o zaman hələ milli müstəqillik dövründə yaşayacağının fərqinə varmayan, ancaq heç şübhəsiz ki, Ulu Öndərin on illik bir məsafədən artıq gördüyü və yeni nəsli də milli-mənəvi dəyərlər əsasında tərbiyə etməklə bu böyük hadisəyə hazırladığı titanik bir işin tərkib hissəsi oldu Nizaminin qayıtmağı.

Və bu da əlamətdardır ki, o zaman Nizami ilə bir sırada böyük Hüseyn Cavidi də xalqa qaytaran, onun milli müstəqillik dövründəki coşğun həyatına on-on beş il əvvəldən peyğəmbərlik missiyası səviyyəsində hazırlaşan məhz Heydər Əliyev oldu. Kim bilir, bəlkə də iki nəhəng klassikin qayıdışı, elə tarixin təkərinin dönüş istiqamətini dəqiq hesablamış dahi siyasət və diplomatiya klassiki Heydər Əliyevin bir müddətdən sonra baş verəcək öz qayıdışının baş məşqi, prelüdiyası idi? Bu suala da yəqin ki, heydərəliyevşünaslığın növbəti mərhələsində bizdən sonra gələn tədqiqatçılar nəsili elmi tutumlu cavab tapacaqdır...

Heydər Əliyevin klassik irsin, o sıradan da klassik ədəbiyyatın ictimai-mənəvi həyatda, cəmiyyətin mədəni inkişafında, ölkənin və xalqın tarixində oynadığı və perspektivdə də oynayacağı müstəsna rolu yüksək qiymətləndirməsi, ilk növbədə, onun özünün istedadlı və yaradıcı bir şəxsiyyət, yüksək mənəviyyat adamı olması, Azərbaycan sevgisi ilə qırılmaz şəkildə bağlıdır. Bu səbəbdən-

dir ki, klassik irsi dərindən bilən Ulu Öndər, onun əhəmiyyətini, xalqımızın azadlıq mübarizəsində oynaya biləcəyi mühüm rolu da dərindən-dərinə anlayır və təbliğ etməkdən bir an belə usanmırdı.

Heç də təsadüfi sayılmamalıdır ki, Azərbaycanın rəhbərliyinə ikinci dəfə qayıdışından sonra, 1993-cü ildə böyük Nizami Gəncəvinin poetik irsi ilə bağlı qəbul etdiyi tarixi qərarın əhəmiyyətini və mədəniyyətimizin inkişafında oynadığı müstəsna rolu öz fenomenal yaddaşı ilə bir daha xatırlayan Heydər Əliyev aşağıdakı fikirlərini irəli sürmüşdü:

"Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtı ilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yaratmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada, rus dilində çap olunması barəsində qərar qəbul edilmişdi. Lakin sonra öyrəndik ki, "Xudojestvennaya literatura" nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqıma xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim."[28]

[28] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 1. – Bakı, Azərnəşr, - 1997.- s. 157.

Azərbaycan xalqının böyük klassiki haqqında çox vaxtında çıxarılmış tarixi Qərar Nizami Gəncəvinin ölməz ədəbi irsini sözdə deyil, konkret əməldə və fəaliyyətdə Azərbaycan xalqının haqq etdiyi mənəvi sərvətinə çevirmək baxımından, o zamankı adları ilə desək: Azərbaycan Elmlər Akademiyasının, Azərbaycan Yazıçılar İttifaqının, Mədəniyyət nazirliyinin, respublika nəşriyyatlarının və kütləvi informasiya vasitələrinin qarşısında son dərəcə böyük vəzifələr qoymuşdu. Müasir anlamda yanaşdıqda, bir Azərbaycan şairi kimi Nizami Gəncəvinin həyat və yaradıcılığının tədqiqi, nəşri, tərcüməsi və təbliği ilə bağlı böyük tədbirlər keçmiş SSRİ-də və Azərbaycanda 1947-ci ildə, şairin İkinci Dünya müharibəsi səbəbindən gecikmiş 800 illik yubileyi qeyd olunan zaman həyata keçirilmişdi. O dövrdən sonra onun bir sıra əsərləri vaxtaşırı işıq üzü görsə də, həyat və yaradıcılığı haqqında azsaylı araşdırmalar aparılsa da, Nizami irsini kompleks tədqiqata cəlb etmək və miqyaslı şəkildə işıqlandırmaq, ictimailəşdirmək ehtiyacı hələ də qalmaqda idi.

Bu əlahiddə ehtiyacı vaxtında hiss edən Ulu öndər Heydər Əliyev Nizami Gəncəvi haqqında tarixi qərarla təkcə bir dahinin irsini deyil, bu irsin timsalında orta əsrlər Azərbaycan mədəniyyətini də köklü şəkildə öyrənib araşdırmaq, elmi-nəzəri cəhətdən tədqiq etmək, populyarlaşdırmaq üçün həm mükəmməl düşünülmüş bir stra-

tegiya müəyyənləşdirdi, həm də geniş imkanlar yaratmış oldu.

Bu imkanların elmi-mədəni əhəmiyyəti ilə yanaşı o vaxt hələ çoxları tərəfindən tam anlaşılmayan (bu da Ulu öndərin peyğəmbərcəsinə uzaqgörənliyindən qaynaqlanırdı) milli təsiri də vardı: Nizami irsinin lazımi səviyyədə öyrənilməsi, əsərlərinin nəşri və təbliği təkcə elmi-mədəni inkişaf hadisəsi deyildi, əsas məsələ mənəvi tərbiyə işini gücləndirmək, gənc nəsilin milli qürur duyğularını oyatmaq idi.

Azərbaycan ədəbiyyatşünaslığının, xüsusən sovet döneminin 70-ci illərində mütəxəssis sarıdan korluq çəkməyə başlayan mediyevist ədəbiyyatşünaslığın inkişafı üçün çox böyük tarixi əhəmiyyət daşıyan bu qərarın tələblərindən irəli gələn elmi-tədqiqat vəzifələrini gerçəkləşdirmək üçün məsul şəxslərdən təşkil edilmiş xüsusi bir mərkəz yaradıldı və onun funksiyalarını Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Nizami adına Ədəbiyyat İnstitutunda Qərardan irəli gəlməklə yaradılmış Nizamişünaslıq şöbəsi öz üzərinə götürdü. Şöbəyə rəhbərlik, o zamanın dissident alimlərindən biri olan əfsanəvi şərqşünas-mediyevist professor Rüstəm Əliyevə tapşırıldı.

Heydər Əliyevin Nizami Gəncəvi irsi ilə bağlı verdiyi tarixi qərarın elmi-mədəni effekti, mühüm nəticələri özünü çox gözlətmədi. Az müddət sonra bu irsi özündə əks etdirən nəfis tərtibatlı kitablar, Nizami əsərlərinin

Azərbaycan və rus dillərində yeni sətri tərcümələri, sanballı tədqiqat işləri çap olundu. Doğrudur, hər bir geniş kampaniyada təbii olan bəzi kəsirlər də təəssüf ki, özünü göstərdi. Buna örnək olaraq, "Sirlər xəzinəsi" poemasının 1947-ci ildə çap olunmuş Süleyman Rüstəm tərcüməsinin üzərində aparılan "təkmilləşdirmə" işini göstərmək olar. Abbasəli Sarovlunun tərcümə üzərində apardığı iş, nə yazıq ki, əvvəlki tərcümənin forma və məzmunca xeyli itirməsinə gətirib çıxardı. Filoloji tərcümələrdə də bir sıra nöqsanlar aşkar edilmişdir ki, onların gələcək nəşrlərdə aradan qaldırılması nəzərdə tutulur.

Heç də təsadüfi sayılmamalıdır ki, 1981-ci ilin noyabr ayında o zaman Sovet dövlətinin ən nüfuzlu və populyar mərkəzi qəzetlərindən biri olan, Moskvada çıxan həftəlik "Literaturnaya qazeta"nın müxbiri Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevdən götürdüyü məşhur müsahibəsində öz sözünü məhz dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin müdrik kəlamları ilə bitirərək demişdi:

"- Heydər Əliyeviç, poeziyanın ülvi sözləri ilə müvəffəqiyyət arzulamaq lap yerinə düşər.

Nizami demişkən:

*Qoy ədalət zəfər çalsın,*
*Zülüm məhv olub alçalsın.*
*Şərəflənsin qoy səxavət,*
*Mərdlərə halaldır şöhrət."*

Rus müxbirinin Azərbaycanın dahi şairi Nizamidən sitat gətirməsi və hətta müsahibənin adını belə bu böyük azərbaycanlının misrası ilə adlandırması (“Qoy ədalət zəfər çalsın!”), heç şübhəsiz ki, o dövrdə Heydər Əliyevin xidmətləri sayəsində ədəbi-ictimai mühitdə yaşanan, yaxşı mənada “Nizami bumu” ilə bağlı idi və o da əlamətdardır ki, Nizami Gəncəvinin ölməz ədəbi-fəlsəfi irsinin qanuni varisi Heydər Əliyev də müsahibəsini məhz Nizamidən gətirdiyi misralarla yekunlaşdıraraq belə cavab vermişdi:

“ – Bəli, *XII əsrin böyük Azərbaycan şairi Nizami Gəncəvi* (seçmə bizimdir – T.K.) demişdir:

*Təmkinli ol, lovğalığı, sərvəti*
*At, yanıb tonqalda qoy dönsün külə!*
*...Əgər istəyirsən ürəyin gülə,*
*Qoyma pis niyyətlər fikrinə gələ.*
*Nalayiq əməllər görsən harada,*
*Odlu nəfəsinlə yandır, məhv elə!”*

Göründüyü kimi, rus jurnalistinin “unudaraq” Nizaminin milli mənsubiyyətini göstərməmək səhvini, Heydər Əliyev, necə deyərlər, yanından yel ötməmiş islah edir və “XII əsrin böyük Azərbaycan şairi” sözlərini xüsusi vurğu ilə Ümumittifaq oxucusunun “gözünə soxur”.

1981-ci ildə Heydər Əliyev Nizami Gəncəvinin həyatı və poetik irsi haqqında daha bir qərar çıxararaq şairin

anadan olmasının 840 illiyinin Ümumittifaq səviyyəsində qeyd edilməsi üçün möhkəm zəmin yaratmış oldu. Lakin dahi şairin 840 illik yubileyinin keçirilməsi haqqındakı qərar İttifaq səviyyəsində bəzi rəhbər işçilər tərəfindən birmənalı şəkildə qəbul edilməmişdi. İkinci dəfə Azərbaycan hakimiyyətinə qayıtdıqdan sonra Ulu Öndər bunu belə xatırlayırdı:

“Tariximizin böyük səhifələrini - intibah dövrünü, XI-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1947-ci ildə keçirilib... Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyil. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər.” [29]

Tarixin dolaylarından baxdıqda indi bu müqaviməti şərin xeyirə, nahaqqın haqqa, yalanın doğruya müqaviməti kimi qiymətləndirə bilərik və nə yaxşı ki, dünyada baş verən qarşısıalınmaz qlobal ictimai-siyasi hadisələrin və yaxınlaşmaqda olan sosial kataklizmlərin təsiri altında bu müqavimət artıq çürük, dişsiz bir müqavimət idi və Heydər Əliyev kimi qranit tökümlü bir şəxsiyyətin dəmir iradəsi və sarsılmaz məntiqi qarşısında o qədər də davam

[29] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 1. – Bakı, Azərnəşr, - 1997.- s. 156.

və duruş gətirmək qüdrətinə malik deyildi...

Bəlkə bu səbəbdəndir ki, belə müqavimətlərə baxmayaraq, böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 840 illiyi 1981-ci ildə respublikamızda və Sovetlər İttifaqı miqyasında geniş qeyd edildi. O vaxt SSRİ-nin baş mətbu orqanı - "Pravda" qəzeti də Heydər Əliyevin nüfuzu sayəsində Moskvada, siyasi elitanın, o cümlədən Ulu öndərin iştirakı ilə keçirilən Nizami gecəsinə "Şair, mütəfəkkir, humanist" adlı bir yazı həsr etmişdi. Həmin yazıda deyilirdi: "Bəşəriyyətin bədii təfəkkür tarixində yeni səhifə açmış Nizami Gəncəvinin əsərləri əbədiyyən milli və dünya mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Noyabr ayının 17-də Moskvada İttifaqlar evinin Sütunlu zalında böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə həsr olunan təntənəli gecə keçirilmişdir. ...Gecədə qeyd olunmuşdur ki, Nizaminin yaradıcılığı əsrlər boyu təkcə Azərbaycan ədəbiyyatının deyil, eləcə də digər Şərq xalqlarının ədəbiyyatının inkişafına təsir göstərmişdir. Onun adı Firdovsi, Dante, Şekspir, Puşkin kimi mədəniyyət korifeylərinin adı ilə bir cərgədə dayanır."[30]

Heydər Əliyevin klassik ədəbiyyata və onun ölməz nümayəndələrinin irsinə verdiyi müstəsna əhəmiyyət bir də onunla bağlı idi ki, ədəbi inkişafın sonrakı dövrlərində ən istedadlı şair və yazıçılarımız klassik ədəbiyyatda qoyulmuş ümumbəşəri humanist mövzu və obrazlara dönə-dönə

[30] Поэт, мыслитель, гуманист// Правда. – 1981. – 19 ноября.

qayıdır və xalqın, millətin qarşısında duran problemləri həll etmək üçün onlardan uğurla bəhrələnir, öz dövrlərinin ideya-estetik tələblərinə uyğun olaraq yaradıcılıqla istifadə edirdilər. Səməd Vurğun tərəfindən Nizami mövzusu əsasında, Nizami obrazlarından yaradıcı şəkildə bəhrələnməklə yazılmış "Fərhad və Şirin" dramının tamaşasına baxdıqdan sonra Heydər Əliyevin söylədiyi nitqdə də məhz klassik ədəbiyyatda qoyulmuş problemlərin aktuallığı göz önünə çəkilir:

"Bu əsər (Səməd Vurğunun "Fərhad və Şirin" dramı nəzərdə tutulur – T.K.) bu gün aktualdır, bir də ona görə ki, yenə də deyirəm, həm sevgi, məhəbbət saf və pak olmalıdır, həm də xəyanətə, satqınlığa və vəzifəpərəstliyə qarşı mübarizə aparılmalıdır. Əsərdəki Şapur surəti baş vəzir olmaq üçün xəyanətə əl atır. Bütün bunlar yaşadığımız dövr üçün də aktualdır. Bizim dövrümüzdə nə qədər adamlar vəzifə almaq üçün nə qədər xəyanətlər ediblər... Əgər Şapur təkcə Fərhada və yaxud Şirinə, elə Xosrovun özünə xəyanət etdisə, amma bu gün xəyanət edənlər bütün millətə xain çıxıblar, ölkəmizə, dövlətimizə, dövlətçiliyimizə xəyanət ediblər... Mən istərdim ki, məhəbbət, sevgi həmişə olsun, xəyanət, satqınlıq heç vaxt olmasın. Siz də bunu istərdiniz. Ancaq bu nə sizdən, nə də məndən asılı deyildir. Ona görə də bu, çox aktual bir əsərdir və bu əsərin indi səhnəyə gəlməsinin cəmiyyətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün və bizim insanların tərbiyəsi, kamilləşməsi, təkmilləşməsi üçün çox böyük əhə-

miyyəti var.”[31]

Ulu Öndərin son cümləsi – onun klassikaya verdiyi çox böyük önəmdir və elə buradan da məlum olur ki, klassik ədəbiyyat kimi, Heydər Əliyevin də, uğrunda mübarizə apardığı başlıca məqsədlərdən birini cəmiyyətdə kamil insan tərbiyəsi təşkil edir və bu məqsədin gerçəkləşməsində klassik ədəbiyyat ən önəmli vasitələrdən biri kimi qiymətləndirilir.

Elə 2001-ci ilin 1 sentyabrında Səbail rayonundakı 6 saylı məktəb-liseydəki (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vaxtilə təhsil aldığı məktəbdə) görüş zamanı söylədiyi nitqində də Ümummilli Lider Heydər Əliyev Azərbaycan ədəbi dilinin yaxşı öyrənilməsini birinci növbədə, klassik ədəbiyyatdakı ölməz bəşəri-humanist dəyərlərə yiyələnmək yolunda mühüm vasitə hesab edərək deyirdi:

“Bəzən həmin bu rus məktəblərində təhsil almış, Azərbaycan dilinə meyil göstərməmiş gənclərdən Nizaminin, Füzulinin, Nəsiminin, Vaqifin, yaxud da bizim müasirlərimiz olan şair və yazıçıların şeirlərini soruşanda görürdün ki, onlardan xəbərləri yoxdur. Onlar, məsələn, Nizaminin rus dilinə tərcümə olunmuş poemalarını, şeirlərini oxuyurdular. Amma sən onu nə qədər oxusan da, Nizami sənin qəlbinə yatmayacaq. Oxusalar da, bunlar Azərbaycan dilində olan şeirlər deyildi. Ona görə də rus

[31] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 10. – Bakı, Azərnəşr, - 2002.- s. 57.

dilində təhsil alan adamların təəssüf ki, Azərbaycanın tarixi, onun zəngin mədəniyyəti, zəngin ədəbi irsi haqqında məlumatları çox az idi."[32]

Yuvarlaq olmayan 840 illiyin keçirildiyi təntənə səviyyəsini nə yazıq ki, yuvarlaq 850 illikdə müşahidə etmək mümkün olmadı. Sonralar Ulu Öndər bu barədə təəssüfünü gizlətməyərək deyirdi: "Nizami Gəncəvinin 850 illiyi qeyd edilmişdir. Hansı səviyyədə qeyd edildiyini deyə bilmərəm. Ona görə yox ki, bu yubiley böyük bayram kimi keçirilməlidir. Bu, Azərbaycanı, onun tarixini bir daha bütün dünyaya tanıtmaq üçün imkandır."[33]

Müstəqillik dövründə klassik irsin tədqiq istiqamətlərinin Sovet dövründəki ideoloji tələblərdən arınmış, köklü şəkildə fərqli olmasını başlıca şərtlərdən biri hesab edən Ümummilli Lider bu baxımdan elmi obyektivliyin qorunmasını başlıca şərtlərdən biri sayaraq alimləri də bu vacib şərti yerinə yetirməyə, elmi həqiqətləri təhrif etməməyə çağırırdı: "Xatirimdədir, bir dəfə haradasa dedim ki, Nizaminin fəlsəfi görüşləri haqqında çoxlu tədqiqatlar aparmışlar. Şübhəsiz, Nizaminin şeirlərini proletar şeirinə döndərmək mümkün deyildir, ona görə də hamı sübut etməyə çalışmışdır ki, Nizami metafizik yox, dialektik olmuşdur. Əlbəttə, bunlar təbiidir və heç kəsi günahlan-

---

[32] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni dərs ilinin başlanması münasibətilə 6 saylı orta məktəbdə təşkil olunmuş mərasimdə nitqi - 1 sentyabr 2001-ci il// Azərbaycan. -2001.- 2 sentyabr.

[33] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 1. – Bakı, Azərnəşr, - 1997.- s. 157.

dırmaq lazım deyildir. Mən də bu fikirdə deyiləm. Bu, o dövrün nəticəsidir və indi heç kəs deməsin ki, o zaman belə düşünməmişdir. Biz hamımız həmin dövrdə yaşayır və onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o dövrdə yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu, bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz. 1917-ci ildən sonra buna cəhd göstərdilər. Lakin bacarmadılar. O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu günahdır."[34]

Düz sözə nə deyəsən? Doğrudan da son illərdə yalnız cəmiyyət həyatının bir çox sahələri kimi, ədəbiyyatda da, Cəfər Cabbarlının Məmmədəlisi kimi nihilizm yolu tutmaq dəbə düşmüşdür. Başqa sözlə desək, Azərbaycan ədəbiyyatşünaslığı, xüsusən klassik irsə münasibətdə, necə deyərlər, "yağışdan çıxıb yağmura düşmüş", ifratdan təfritə yuvarlanmşdır. Bir sıra klassiklərin yaradıcılığını heçə saymaq, onları çağdaş dövrün uydurma, heç bir əsası olmayan dəyərləri, daha doğrusu, dəyərsizliyi mövqeyindən ittiham etmək cəhdlərilə tez-tez üzləşirik.

Klassik sənətkarı yalnız müasir tələblər baxımından deyil, həm də öz dövrünün şərtləri daxilində yaratdığı

[34] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 2. – Bakı, Azərnəşr, - 1997.- s. 95.

əsərlərə, təmsilçisi olduğu fikir və ideya cərəyanlarına görə qiymətləndirmək lazımdır. Heydər Əliyev özünün klassik Azərbaycan mədəniyyətinin ayrı-ayrı nümayəndələri ilə bağlı çıxış və məruzələrində bu sadə, lakin müdrik həqiqəti dönə-dönə yada salmış, görkəmli sənətkarlarımızın yaradıcılığını və şəxsiyyətini yersiz hücumlardan, əsassız tənqid və təhriflərdən mətanətlə, müsbət mənada, özünəməxsus azərbaycançılıq təəssübü ilə qorumuşdur.[35]

O da əlamətdardır ki, Nizami mövzusu, Nizamiyə məhəbbət Ümummilli Lideri hər zaman məşğul edən mövzulardan olmuş və o, sonralar dəfələrlə bu mövzuya qayıdaraq hər dəfə onda yeni bir cəhət, klassikin yeni bir xidmətini aşkarlamağa nail olmuşdur. 24 may 2000-ci ildə Gəncə şəhərində Nizami Gəncəvinin məqbərəsini ziyarət edərkən söylədiyi dərin məzmunlu nitq bu baxımdan zəngin material verir, çağdaş nizamişünaslığın uğurlarından biri kimi qiymətləndirilməyə layiq olduğunu göstərir.

Ümummilli Liderin buradakı Nizami Gəncəvi məqbərəsi, dahi klassikin xatirəsi ilə bağlı dediyi sözləri oxuduqca onun bu böyük azərbaycanlıya, dünya çaplı bu böyük dahiyə sonsuz məhəbbəti qarşısında ehtiramla əllərini sinəndə qoşalaşdıraraq baş əyməmək mümkün olmur.

Orta əsrlərin kəsif toz-dumanı içindən mənəvi cəhətdən alnıaçıq, üzüağ çıxmış Nizami Gəncəvinin 800 il-

[35] Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: "Elm", 1998, - s. 60.

dən bəri uyuduğu məqbərəsini erməni daşnaklarının riyakar fitnəkarlığı ilə fiziki cəhətdən toz basması Heydər Əliyevi çox narahat etmiş, illərlə bu problemin həlli yollarını axtarmışdır. Ümummilli Lider üzünü gəncəlilərə tutaraq bu barədə səmimiyyətlə belə deyir:

"Bir halda ki, bu gün siz burada yığışmısınız, mən də keçmiş dərdlərimi deyirəm. Bu bizim üçün bir dərd olmuşdur. Yenə də deyirəm, belə böyük müəssisəni, bu cür texnologiyası, məhsulu olan müəssisəni (Kirovabad alüminium zavodunu – T.K.) gətirib Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında tikmək tarixi, mənəvi cinayət olmuşdur. Ancaq nə etməli? O vaxt gərək ya bu müəssisəni dağıdaydıq – bu da mümkün deyildi, çünki Sovet İttifaqının böyük tikintilərindən biri idi – ya da, deyirdilər ki, əgər bu mümkün deyilsə, tədbir görün, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürək.

Onu da etmək mümkün deyildi, bunu da etmək mümkün deyildi. Biz neçə illər bu əziyyəti çəkdik. Sonra burada texnologiya dəyişildi, əsasən boksitə keçildi."[36]

Nizaminin 840 illik yubileyinin keçirilməsi barədə o vaxtkı Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi, partiyanın baş ideoloqu Mixail Andreyeviç Suslovla cəngi-cidalının təfərrüatını ilk dəfə bu çıxışında açan Heydər Əliyev bizim gözümüzdə o dövrün əyalətlərə yuxarıdan aşağı baxan Moskva dino-

[36] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 27. – Bakı, Azərnəşr, - 2009.- s. 304-305.

zavrları ilə yalın əllə qorxub-çəkinmədən vuruşan əfsanəvi qəhrəmanlarımız kimi canlanır.

"Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirtdim, yəni bu tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyasının Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda – çünki onlarsız bu işi görə bilməzdik – dedilər ki, "840 il yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd etmisiniz, 850 illik də ola bilər. amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847." Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi – Suslov, Brejnevin dövründə ikinci katib idi – mənə dedi ki, bu, mümkün deyildir."[37]

Amma ona da Heydər Əliyev deməzdilər ki, Mixail Suslovun rədd cavabından ümidsizliyə düşüb bu işdən əl üzsün... Belə də olur: Ulu Öndərin dəmir məntiqi qarşısında o boyda imperiyanın baş ideoloqu əllərinin dalını özü də bilmədən yerə qoymalı olur...

Çıxışının sonunda Nizami və Gəncə mövzusuna da qısaca toxunan Ulu Öndər bir daha dahi şair və mütəfəkkirin cahanşümul irsinin əhəmiyyətini xatırladaraq demişdir:

"Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr

---

[37] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 27. – Bakı, Azərnəşr, - 2009.- s. 307.

edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. birincisi, ona görə ki, Nizami gəncəlidir, Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır."[38]

Yuxarıda qeyd etmişdik ki, Ulu öndər Azərbaycan klassik irsinin görkəmli nümayəndələrinin yubiley tədbirlərinə sadəcə böyük ədəbi-mədəni bayram hadisəsi kimi yanaşmırdı, Onun fikrincə, bu tədbirlər Azərbaycanı, onun tarixini, mədəniyyətini, ədəbiyyatını, elmini bir daha bütün dünyaya tanıtmaq imkanı idi.

Tarixi şans sayıla biləcək belə bir əlverişli imkandan yenə də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan xalqı, o sıradan ədəbi-elmi ictimaiyyətimiz 1973-cü ildə, faciəli taleyi ilə Şərq ədəbiyyatlarında dillər əzbəri olmuş böyük humanist, filosof şair və mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 600 illiyini dünya miqyasında, UNESCO səviyyəsində qeyd etməklə bir daha faydalanmışdı.

Əgər klassik Azərbaycan ədəbiyyatının pərəstişkarları keçən yüzilliyin 40-50-ci illərində Nizami ilə bağlı ehtiyaclarını müəyyən qədər aradan qaldırmağa nail ol-

[38] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 27. – Bakı, Azərnəşr, - 2009.- s. 307-308

muşdularsa, başqa bir böyük şairimiz – Seyid İmadəddin Nəsimi, necə deyərlər, bu şərəfdən məhrum olmuşdu.

Heydər Əliyevin, klassik ədəbiyyatımızın böyük bir nümayəndəsi və Azərbaycan ədəbi-poetik dilinin beşiyi başında duran söz sənətkarlarından biri kimi Nəsimi irsi ilə yaxından tanışlığı keçən əsrin 60-cı illərinin ikinci yarısında olmuşdu ki, bu barədə məlumatı bütün təfərrüatı ilə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" toplusunun hər iki nəşrindən əldə etmək mümkündür.

Biz isə burada Heydər Əliyevin Nəsimi naminə gördüyü nəhəng işlərin ancaq müəyyən bir hissəsinə işıq salmaq niyyətindəyik.

1993-cü ildə – Nəsimi yubileyinin keçirilməsindən 20 il sonra, Azərbaycan Elmlər Akademiyasının ziyalıları ilə görüşündə Heydər Əliyev bu tədbirin istər o dövr üçün, istərsə də mədəni inkişafımızın sonrakı dövrləri üçün böyük əhəmiyyətini bir daha vurğulayaraq demişdi:

"Yenə də qeyd edirəm ki, tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq de-

məkdir. Mən təkcə şairlər haqda danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur."[39]

Yeri gəlmişkən qeyd edək ki, klassik Azərbaycan ədəbiyyatına, xüsusən onun ən böyük və fəci nümayəndələrindən biri olan İmadəddin Nəsiminin həyat və yaradıcılığının yüksək səviyyədə öyrənilməsinə və təbliğinə bu cür sevgi, sayğı və qayğı Heydər Əliyev məktəbinin ən böyük yetirməsi olan, Heydər Əliyevin istər daxili, istərsə də xarici siyasət və mədəniyyət kursunun davamçısı və inkişaf etdirəni, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də yüksək səviyyədə həyata keçirilməkdədir. 2008-ci ilin noyabr ayında Hələb şəhərində Nəsimi yaradıcılığına həsr edilmiş Beynəlxalq elmi konfransın keçirilməsi bu sevginin və qayğının ən bariz təzahürüdür.

Bu konfransın faydalı cəhətlərindən biri də o oldu ki, Suriyada daha çox din uğrunda şəhid kimi tanınan Nəsimi, Azərbaycan alimlərinin elmi məruzələrindən sonra həm də böyük bir şair, söz sənətkarı kimi ərəb elmi-ədəbi dairələrinə tanıdıldı, onun yaradıcılığı, poetik irsində özünə yer tapan yüksək humanist fikirlərlə tanış olmaq arzusu ədəbi dairələrdə baş qaldırdı. Nəsiminin bir sənətkar və filosof kimi insana bəslədiyi sevgi duyğuları, kamil insan tərbiyə etmək arzuları, şairin öz əsərlərinin örnəyində əyani olaraq dinləyicilərin nəzər-diqqətinə çatdı-

[39] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 185.

rıldı. Qeyd edildi ki, Nəsiminin humanizmi, insan sevgisi bir çox sufi şairlərində olduğu kimi mücərrəd, mistik xarakter daşımayıb, konkret obyektə – kamil insana yönəlmişdir və böyük şair istər zamandaşlarını, istərsə də özündən sonra gələn nəsilləri məntiqi bədii sözün qüdrəti ilə məhz bu ruhda tərbiyə etmək istəyir və bununla da özündən öncə yaşayıb yaratmış böyük humanist şair və filosofların mütərəqqi ənənələrini davam və inkişaf etdirir. "Mərhəba, insani-kamil, canımın cananəsi; aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?!" – deyən şair antroposentrist fikirlərini bu cür bədii örnəklərin vasitəsi ilə öz oxucularına çatdırmağa nail olmuşdur.

Hələb konfransının bir əlamətdar cəhəti də, Nəsiminin 640 illik yubileyi ərəfəsində keçirilməsi idi. Bu, bir növ, yubiley qabağı elmi qüvvələrin sınağa çəkilməsi, Nəsimi irsi üzərində tədqiqatların səviyyəsinin və perspektivlərinin müəyyənləşməsi oldu. Məlum oldu ki, böyük humanist şairin həyat və yaradıcılığının öyrənilməsi, təbliği və nəşri problemlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdə narahatlıq doğurması heç də əsassız deyilmiş. Doğrudur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 25 min tirajla çap olunan kitablar arasında Nəsiminin ikicildliyi də artıq nəfis şəkildə işıq üzü görmüşdü, lakin təəssüf ki, eyni sözü Nəsimi yaradıcılığının tədqiqi və təb-

liği haqqında demək mümkün deyildi. Şübhəsiz ki, cənab Prezidentin şəxsən marağı və qayğısı istər 640 illik yubileyin yüksək beynəlxalq səviyyədə keçirilməsinə, istərsə də nəsimişünaslığın sonrakı inkişafına misilsiz təkan vermiş oldu.

Xüsusilə düzgün yeridilən daxili və xarici siyasət sayəsində milli dövlətçiliyimizin möhkəmləndiyi indiki yüksək inkişaf səviyyəsində xalqımızın yetişdirdiyi dahi söz və fikir adamlarının bütün dünyaya tanıdılması, dünya birliyindəki yerimizin daha da möhkəmlənməsinə, ölkəmizin və xalqımızın layiq olduğu mövqeyi əldə etməsinə öz misilsiz yardımını göstərmiş oldu.

2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsi isə, klassik irsimizə Prezidentin yüksək qayğı və diqqətinin yüksək təzahürü olmaqla yanaşı, həm də nəsimişünaslığın inkişafına güclü təkan vermiş oldu.

Ədəbiyyat tariximiz üçün onu da qeyd etmək yerinə düşər ki, Nəsimi irsinin öyrənilməsi, təbliği, Nəsimi mavzoleyinin dünya standartları səviyyəsində təmiri və bərpası haqqında yüksək Prezident təşəbbüsünün irəli sürülməsindən sonra Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda da bu yöndə alimlərin üzərinə düşən vəzifələrin icrası baxımından yeni bir canlanma özünü göstərdi. Belə ki, Nəsimi yubileyinə hazırlıq çərçivəsində şairin həyat və yaradıcılığı haqqında yeni elmi-kütləvi monoqrafiyanın yazılması, həmin monoqrafiyanın ingilis, rus, alman, fransız, ərəb, çin və b.

dünya mədəniyyətinin aparıcı dillərinə, eləcə də bütün türk xalqlarının dillərinə tərcümə edilməsi və xüsusi Nəsimi saytında yerləşdirilməsi üzərində ciddi işlər aparıldı. Bu, Azərbaycan ədəbiyyatşünaslarının milli dövlətçiliyimizin möhkəmləndirilməsi, milli dəyərlərimizin qlobal səviyyədə tanıdılması yönündə Respublika Prezidentinin apardığı məqsədyönlü fəaliyyətə canla-başla yardımçı olmaq və öz üzərlərinə düşən vəzifələri yüksək elmi-təşkilati səviyyədə yerinə yetirmək istiqamətində atdıqları addımlar kimi qiymətləndirilə bilər. Azərbaycan klassikinə qırx ildən sonra yeni yüksək səviyyədə qayıtmaq isə – bütövlükdə Əliyevlərin elm və mədəniyyət tutumlu daxili siyasətinin parlaq təzahür örnəyi kimi nəzərdən keçirilməlidir.

Bu siyasətin varisliyi üçün əlamətdar olan bir cəhəti də qeyd etmədən keçmək olmaz ki, bu da Nizaminin 1981-ci ildə keçirilmiş 840 illiyi ilə Nəsiminin 2009-cu ildə keçirilmiş 640 illik yubileyindəki rəqəmlərin bənzərliyi, onların hər ikisinin Şərqdə, o sıradan Şərqlə Qərbin qapısı sayılan Azərbaycanda da müqəddəs rəqəm hesab edilən “40” simvolik sayı ilə bitməsidir. Və o da yəqin ki, simvolik məna daşımamış deyil ki, 2009-cu ildə, yəni Nizaminin vəfatından 800, Nəsiminin doğumundan isə 640 il keçərkən Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri olan Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən – xalqımızın və ölkəmizin taleyinə günəş kimi doğmasından da nə az, nə çox – düz qırx il keçir.

Nəsiminin 600 illik yubileyi Ulu Öndərin səyi və qeyrəti ilə qlobal miqyasda – UNESCO səviyyəsində keçirilmişdi. Ancaq bu təşkilat sonu iki sıfırla bitən tarixləri qəbul etdiyi üçün Nəsiminin 640 illiyini bu səviyyədə keçirmək texniki cəhətdən mümkün olmadı. Ancaq UNESCO-nun bu tədbirə qoşulmaması heç də Nəsimi yubileyinin qlobal səviyyədə keçirilə bilməməsi demək deyildi. Yubileyin ən yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan dövlətinin həm kifayət qədər vəsaiti, həm də dünya elmi dairələrində nüfuzu və sanbalı vardır. Məhz buna görə Nəsimi yaradıcılığına həsr edilmiş Beynəlxalq konfransın keçirilməsi Ulu Öndər Heydər Əliyevin mədəniyyət siyasəti işığında klassik irsimizə qayıdış, ehtiram baxımından çox əlamətdar oldu.

Ulu Öndər böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 1994-cü ildə keçirilmiş 500 illik yubileyinə hazırlıq komissiyasının iclasında Suriya səfərinin təfərrüatını açıqlayaraq, Nəsiminin məzarını necə aşkara çıxardığını xatırlayaraq demişdi: “Mən 70-ci illərdə Suriyada olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün xüsusi olaraq Hələb şəhərinə getmişdim. Mənim Hələbə səfərimin təşkili barədə Suriya prezidenti Hafiz Əsədin xüsusi göstərişi var idi. Hələb şəhərinin başçıları axşam mənə bildirdilər ki, səhər Nəsiminin qəbrini ziyarət edəcəyəm. Ertəsi gün üç-dörd saat gözləməli oldum, çünki qəbrin yerini bilmirdilər. Nəhayət, onun yerini bilən bir nəfər tapdılar. Yəqin siz də bilirsiniz, Nəsiminin məzarı ümumi qəbiris-

tandadır. Nəsiminin törəmələri də orada dəfn olunmuşdur. Qəbirüstü abidə və s. yoxdur, orada bu, adət deyil. Ancaq qəbir çox yaxşı vəziyyətdə idi, ona qulluq edən adam da var idi."[40]

Heydər Əliyevin bu sözləri maraqlı bir nüans doğurur ki, onu burada qeyd etməyə bilmərik. Məsələ burasındadır ki, istər Nəsiminin, istərsə də Füzulinin qərib məzarları, onlara yiyəlik eləyən, sahib çıxan tapılmadığı vaxtlarda müəyyən qədər başqa statusda, başqa vəziyyətdə olmuş, sonra isə məhz Heydər Əliyevin yüksək səviyyədə göstərdiyi maraq nəticəsində daha yüksək statusa keçirilmişlər.

1994-cü ildə Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi ərəfəsində biz Ümummilli liderin tapşırığına əsasən, böyük bir nümayəndə heyəti ilə şairin yaşayıb yaratdığı İraqa gedərək Kərbəla torpağında Füzulinin məzarını ziyarət etmiş və yuxarıda söylənilənlərin canlı şahidi olmuşduq.

Əlbəttə, o yerləri ziyarət edərkən Füzulinin öz şeirini Kərbəla torpağı ilə müqayisə etdiyi məşhur qitəsi yada düşməyə bilməzdi:

*Ey Füzuli, məskənim çün Kərbəladır, şeirimin*
*Hörməti hər yanda vardır, xalq onun müştağıdır,*
*Ləl deyil, yaqut deyil, nə inci, nə mirvaridir,*
*Adi torpaqdır, vəlakin Kərbəla torpağıdır...*

[40] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 209.

Biz Kərbəlada olanda artıq Füzulinin dəfn olunduğu məzar sökülərək yerində yol salınmışdı və Azərbaycan ziyalılarının da məzarı Bakıya köçürmək barədə qaldırdıqları məsələ məhz bu problemlə bağlı idi. Füzulinin 500 illik yubileyini keçirən dövlət komissiyasının iclasındakı çıxışında Heydər Əliyev bu ağrılı problemi də diqqətdən qaçırmayaraq öz münasibətini bildirmişdi: "Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülmək məsələsi çox geniş müzakirə edilirdi. Mən bu məsələ ilə məşğul olurdum. 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. O zaman mən bu məsələni Mirzə İbrahimova tapşırdım... O vaxt belə bir məlumat aldıq ki, Kərbəlanın baş planına əsasən yol çəkilir və həmin yol Füzulinin qəbri olan yerdən keçdiyinə görə guya şairin cənazəsinin qalıqlarını hansısa məscidə aparmışlar. Adətən belə hallarda qəbri başqa yerə köçürürlər. Lakin həmin məlumat məni çox narahat etdi, çünki bu, Füzuliyə qarşı çox böyük hörmətsizlik olardı. Şübhəsiz ki, bu halda onun cənazəsinin qalıqlarını Bakıya gətirib ən görkəmli yerdə dəfn edərək şairin məqbərəsini yaratmağa mənəvi haqqımız olardı. Lakin bilirsiniz ki, bundan bir il sonra mən Azərbaycandan getdim və işlərin sonrakı gedişindən xəbərim olmadı. Ancaq indi öyrəndim ki, Füzulinin qəbrini

başqa yerə köçürmüşlər."[41]

Ümumiyyətlə, bu məqamda xüsusilə vurğulamaq yerinə düşər ki, Füzulinin cənazəsinin qalıqlarının Azərbaycana köçürülməsi haqqında söz-söhbət yenidən meydana çıxanda Ümummilli Lider Heydər Əliyev bu məsələdə tələskənliyə yol verməyin zərərli olduğunu, tarixin keşməkeşlərində Azərbaycandan uzaqlarda torpağa tapşırılmış böyük sənətkarlarımızın ruhunu incitməməyi tövsiyə etmişdi.

Aydın məsələdir ki, o vaxt İraqda Füzulinin məzarının üstündən yol salınması haqqında söz-söhbət müəyyən qədər sensasiya yaratmaq xatirinə tirajlanmışdı və Ümummilli lider bunu çox gözəl anlayırdı.

SSRİ kimi nəhəng bir imperiyanın aparıcı simalarından biri kimi, təbii ki, Heydər Əliyevin nəinki klassik Azərbaycan ədəbiyyatına, hətta Azərbaycanın özünə belə ayırmağa vaxtı çox məhdud idi. Ancaq onun quruca adı da bəs etmişdi ki, İraq rəhbərləri Füzulinin qəbrini köçürərkən Azərbaycan şairinə lazımi hörmət və ehtiram göstərsinlər və onu uzun müddət xidmət göstərdiyi İmam Hüseyn türbəsinin kitabxanasının girişində torpağa tapşırsınlar.

Görənlər bilirlər ki, Füzulinin qəbri kitabxananın girişində, birinci mərtəbədə sağ divarın səthində nəbati bəzəkli kaşı ilə işlənmiş bir lövhədən ibarətdir. Həmin

[41] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 208-209.

lövhənin üzərində şairin adı, doğum və ölüm illəri qeyd edilmişdir. Məzarın üzərində ənənəvi başdaşı yoxdur və bu nə qədər mistik səslənsə də, sanki bununla şeirin peyğəmbəri Məhəmməd Füzulinin öz vəsiyyətini yerinə yetirmişlər. Həmin vəsiyyət isə böyük şairin aşağıdakı beytlərində öz əksini tapmışdır:

*Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən,*
*Ki məlum ola dərd əhlinə qəbrim ol əlamətdən.*

*Məzarım üzrə qoymun mil, əgər kuyində can versəm,*
*Qoyun bir sayə düşsün qəbrimə ol sərvqamətdən.*

Füzulişünaslar bilirlər ki, son beytdəki "sərvqamət" obrazı məcazi məna ilə yanaşı, həm də İmam Hüseyn türbəsinin üzərində ucalan minarəyə işarədir və Füzuli bununla, həmin türbəyə yaxın bir yerdə dəfn olunmasını vəsiyyət etmişdi. Ancaq ilk qəbrində, təbii ki, mil, yəni başdaşı olmuşdu; köçürüləndən sonra isə başdaşının olmaması, İmam Hüseyn aşiqi Füzuli vəsiyyətinin olduğu kimi yerinə yetirilməsi ilə nəticələnmişdi.

Onu da qeyd edim ki, bu yaxınlarda Kərbəlaya ziyarətə getmiş bir əməkdaşımızdan xahiş etmişdim ki, Füzulinin adı çəkilən məzarını yoluxsun və şəkil çəksin. Nə yazıq ki, artıq dediyimiz yerdə təsvir etdiyimiz kaşı lövhə yoxdur. Bu məlumatı alarkən çox təsirləndim və dahi şairin doğulduğu yer və ictimai mühit haqqında dediyi bu peyğəmbəranə sözlər yadıma düşdü:

"...Doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və *sakinlərinin şüursuzluğu* (seçmə mənimdir – T.K.) üzündən xərabə qalmış bir ölkədir".

Görünür, aradan 500 ildən artıq bir vaxt keçsə də, hələ də İraqi-Ərəb sakinlərinin şüursuzluğu aradan qalxmayıb, yoxsa Azərbaycan nümayəndə heyəti üçün şou düzəldib sonra dahi şairin xatirəsinə hörmətsizliklə həmin lövhəni söküb atmazdılar...

Ancaq olsun! Ərəblərin qiymət verə bilmədiyi dahi mütəfəkkir Məhəmməd Füzulinin məzarına bu gün təkcə Kərbəladakı sərv qamətli minarənin sayəsi deyil, eyni zamanda, Azərbaycanın müxtəlif yerlərində vüqarla ucalan sərv qamətli Heydər Əliyev heykəllərindən bir sayə, qayğıkeş bir kölgə düşməkdədir. Demək, Ulu Öndərin ruhu bu gün də Füzulini və başqa klassiklərimizi öz himayəsi, sayəsi altında saxlamaqdadır.

Bu yerdə bir haşiyə çıxaraq qeyd edək ki, XV yüzilliyin böyük Azərbaycan şairi Nemətullah Kişvəri daha çox öz taleyindən-bəxtindən gileylənməklə altı yüz il bundan öncə özünü başqa bir nəhəng türk şairi ilə - Əmir Əlişir Nəvai ilə müqayisə edərək yazmışdı:

*Kişvəri şeiri Nəvai şeiridən əksik iməs,*
*Bəxtinə düşsəydi bir Sultan Hüseyni Bayqara.*

Kişvəri bu beytlə hökmdar və sənətkar probleminə

diqqəti çəkmişdi, sənətkarın taleyində hökmdarın necə müstəsna rol oynaya biləcəyini vurğulamışdı. Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına, onun ən böyük simalarına göstərdiyi alovlu sevgi və yüksək himayə - Kişvərinin bu fikrinin nə qədər doğru olduğunu bir daha sübuta yetirdi. İki türk hökmdarının – Şah İsmayıl Xətayinin və Sultan Süleyman Qanuninin vaxtilə yiyə durduqları, təəssübünü çəkdikləri, himayədarlıq etdikləri böyük Füzulinin bəxtinə üçüncü türk hökmdarı – Azərbaycan xalqının Ümummilli Lideri, klassik ədəbiyyatımızın heyrətamiz bilicisi və mesenatı Heydər Əliyev də düşdü. Və bu hökmdarın Füzulinin sənət taleyində oynadığı rol misilsiz oldu. Əgər əvvəlki hökmdarlar Füzulini yalnız Şərqdə və türk ədəbi-mədəni mühitində tanıtmışdılarsa, Heydər Əliyev bu dahi Azərbaycan şairinin şöhrətini bütün dünyaya yaydı. Eyni sözləri sağlığında hökmdar himayəsindən nəinki məhrum olan, üstəlik hökmdarlar tərəfindən təqib edilərək qətlə yetirilən böyük Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsimi haqqında da demək olar. Bir fərqlə ki, 600 ildən sonra Nəsiminin bəxtinə təkcə Ulu Öndər Heydər Əliyev deyil, həm də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev düşdü...

Xalqın lideri, evin kişisi evinə qayıtdı və qısa bir zamanda milli qeyrət hissindən qaynaqlanan heyrətamiz bir səriştə və istedadla bütün işləri yoluna qoymağa, istər evin içində, istərsə də çölündə səliqə-sahman yaratmağa başladı.

1993-cü ilin iyununda Azərbaycan Elmlər Akademiyasında ziyalılarla tarixi görüşdə mədəniyyətə qayğıdan danışan və Füzulinin qarşıdan gələn yubileyinin lazımi səviyyədə keçirilməsinin bütün türk dünyası üçün əhəmiyyətini qeyd edən Heydər Əliyev demişdi: "...Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları tək şair kimi deyil, böyük filosof kimi, dünyaya, dünya mədəniyyətinə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il (1994-cü ildə - T.K.) Füzulinin 500 illik yubileyi olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər..."[42]

Özünəməxsus lakoniklik və dəqiqliklə həmin dövrü xarakterizə edən Heydər Əliyev, geosiyasi şəraitdəki çətinliklərə və gənc müstəqil Azərbaycan Respublikasının iqtisadi durumunun həddən artıq ağır olmasına baxmayaraq, yubileyin yüksək beynəlxalq səviyyədə, Füzulinin adına və şöhrətinə layiq bir şəkildə keçirilməsini vacib hesab edir və bunu belə əsaslandırırdı:

"Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə

[42] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 185.

üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mədəni-mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik."[43]

Uzaqgörən rəhbər, ən çətin anlarda belə xalqın mədəni və mənəvi inkişafı sarıdan müvəqqəti də olsa laqeydlik göstərilməsinə, hər hansı bir vacib tədbirin təxirə salınmasına alternativ görmürdü.

Prezident Heydər Əliyevin bilavasitə rəhbərliyi altında 1994-cü ilin əvvəllərində Füzulinin yubileyinə geniş hazırlıq işləri başlandı. Azərbaycan mədəniyyətinin bütün sahələrini təmsil edən görkəmli mütəxəssislərdən ibarət mötəbər yubiley komissiyası yaradıldı. Füzuli yubileyinə bu dərəcədə böyük əhəmiyyət verilməsinin başqa bir ciddi səbəbi də o idi ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra təbii ki, onun düşmənləri bu böyük tarixi nailiyyətlə barışmaq istəməmiş, hər bir bəhanə ilə tarixin təkərinə çöp uzatmaq fürsətini əldən verməmişdilər. Nəticədə bəzi dairələrdə Azərbaycanın müstəqilliyə layiq olmadığı haqqında cəfəng fikirlər formalaşdırmaq dərəcədə xainliyə də gəlib çatmışdılar. Füzulinin yubileyinin beynəlxalq səviyyədə keçirilməsinin bu cür cəfəngiyyata layiqli bir cavab olacağını vurğulayan Heydər Əliyev özünəməxsus təmkinli bir qəzəblə

[43] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 201.

düşmənləri belə qırmaclayırdı: "...Hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir. Ona görə də Füzuli kimi şəxsiyyəti bir daha dünyaya tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması üçün çalışırıq və bundan sonra da çalışaçağıq."[44]

Heydər Əliyev öz çıxışında dünya ədəbiyyatının klassiki Məhəmməd Füzulinin yalnız Azərbaycanın sərhədlərindən kənarda deyil, ölkə daxilində də yaxşı tanıdılmasını, onun yüksək və nəcib hisslərlə, zəngin və tutarlı fikirlərlə dolu əsərlərinin hər bir Azərbaycanlı evinə, Azərbaycanlı ailəsinə çatdırılmasının vacibliyini və əhəmiyyətini göstərirdi.

---

[44] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 203-204.

Təkcə Azərbaycan türkləri deyil, bütün türk xalqları, eləcə də ərəblər və farslar yaradıcılığı İslam Şərqinin üç klassik dilində olan Məhəmməd Füzulini özlərinə doğma bilir, öz sənətkarları hesab edirlər. Füzuli yaradıcılığının bu beynəlmiləl məzmununu və ensiklopedik xarakterini təkcə Füzulini deyil, həm də onun yüksək poetik səviyyədə təmsil etdiyi Azərbaycan ədəbiyyatını ümumbəşəri və humanist ideallara çatdıran bir sənət kimi qiymətləndirən Prezident deyirdi: "...ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, Azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün."[45]

Əlbəttə, heç kəsə sirr deyil ki, Füzuli yaradıcılığında Ulu öndərin "...Füzuli türk, Azərbaycanlıdır..." fikrinə əsas verən bədii dəlillər yetərincədir: böyük şairin özü də öz sənətini dil və üslub baxımından xarakterizə edərkən, türkcə divanının dibaçəsində başqa qardaş türk xalqlarının poeziya həvəskarlarından, poetik söz xiridarlarından fərqli şəkildə işlətdiyi bəzi spesifik, yəni sırf Azərbaycan türkcəsi ilə olan söz və ifadələrin anlaşılmayacağı təqdirdə sanki üzr istəyərək yazmışdı: "Təvəqqe budur ümumən əhaliyi-izzü etibardən, xüsusən büləğayi-Rum

[45] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 2. – Bakı, Azərnəşr, - 1997.- s. 93.

və füsəhayi-tatardən ki, əgər şahidi-hüsni-ibarətimdə ol diyarın əlfazü ibarətlərindən zivər olmasa və müxəddərəyi-nəzmim ol mülklərin lətayifü zərbül-məsəllərindən zinət bulmasa, bu daini məzur buyuralar. Zira hər mülkün əhlinə ariyətdən ar gəlir və hər tayiəfədən hər nə kim var isə tətəbböi-əğyari mövcibi-qeyrət bilib, bu diyarın istilahatı qeyrə məqdur olmamaq üzrxahımız yetər."[46]

1994-cü il noyabrın 2-də Füzulinin şanlı yubileyi Türkiyə Respublikasının Böyük Millət Məclisində keçirildi. Həmin gün Heydər Əliyevin Türkiyə parlamentindəki nitqi özünün aydınlığı, Heydər Əliyev dilinə xas üslubi xüsusiyyət olan səlisliyi, obrazlılığı ilə dinləyiciləri ovsunlamışdı. Özü də hər şeydən əvvəl bir Füzuli qədirbiləni olan Ulu Öndər xitabət kürsüsündən səmimi-qəlbdən aşağıdakı sözləri demişdi: "Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, sevilmiş, son əsrdə xüsusən yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə,

[46] Məhəmməd Füzuli. Əsərləri. 6 cilddə. C. 1. - Bakı: Şərq-Qərb, - 2005, - s. 32.

keçmişinə, tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir."[47]

Heydər Əliyev 17 noyabr 1994-cü ildə Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən Füzuli gecəsində də dərin məzmunlu nitqi ilə indinin özündə belə, klassik irsi dəyərləndirməyin və təbliğ etməyin klassik örnəyini göstərmişdi: "Bu gün biz fasilədən sonra, müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubileyini birlikdə qeyd edirik. Şairin yubiley ilini YUNESKO Füzuli ili elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada, zəngin mədəni və ədəbi ənənələri olan bir şəhərdə də qeyd edilir... Rus və Azərbaycan xalqlarının incəsənəti və mədəniyyəti, ədəbiyyatı bir-biri ilə elə sıx bağlanmış, bir-biri ilə elə möhkəm çulğalaşmışdır ki, bu əlaqələri məhv etmək mümkün deyildir. Elə bugünkü gecə də buna ən inandırıcı və parlaq sübutdur."[48]

Dahi şairin 1996-cı ilin yazında Bakıda keçirilən yubiley şənlikləri də məhz Prezidentin arzuladığı kimi müstəqil dövlətin ilk böyük ədəbiyyat və mədəniyyət bayramına çevrildi.

Klassik ədəbiyyat, Heydər Əliyev üçün hər şeydən

[47] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 2. – Bakı, Azərnəşr, - 1997.- s. 478.
[48] Yenə orada, s. 514.

əvvəl, müasirliyi, konkret tarixi situasiyada xalqa mədəni-mənəvi xidmət göstərmək potensialı ilə maraqlı və aktual idi. O bu tələbi klassik ədəbiyyatın bütün böyük nümayəndələri qarşısında qoyur və özü də onların həmin tələbə yüksək səviyyədə cavab verdiklərini məntiqi dəlillərlə əsaslandırırdı. Xüsusi halda Füzuli yaradıcılığı barədə dediyi sözləri bu baxımdan bütövlükdə klassik irsə də aid etmək olar:

"Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir."[49]

Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə layiqli qiymətini almış klassiklərdən biri də Molla Pənah Vaqif olmuşdur. Onun Azərbaycan poeziyasının, Azərbaycan ədəbi dilinin inkişafındakı müstəsna xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev sonralar da müxtəlif münasibətlərlə bu böyük şairin yaradıcılığından bəhs etmiş, onun daşıdığı ədəbi-estetik dəyərin müxtəlif

[49] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 313.

yönlərini açıqlamışdı. Bu baxımdan Azərbaycanın xalq şairi Səməd Vurğunun 90 illik yubiley gecəsində söylədiyi nitqindən kiçik bir parça maraq doğurur. Səməd Vurğunun çox möhkəm sələf-xələflik tellərilə bağlı olduğu Vaqif yaradıcılığına bir daha nəzər salan Ulu Öndərimiz çox maraqlı elmi nəticələrə gəlmişdir:

"Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə o, Azərbaycan şeirində yeni bir yol açdı." [50]

Onu da qeyd edək ki, Heydər Əliyevin özü də klassiki ancaq yubileydən-yubileyə öyrənməyin, onun əsərlərini nəşr etməyin əleyhinə olmuş, xalqımızın yetirdiyi ölməz söz nəhənglərinə daim diqqət və qayğı göstərməyi ilk növbədə ziyalılardan və mütəxəssislərdən tələb etmişdir. Bu baxımdan onun, Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında dünya ədəbiyyatının böyük liriki haqqında dediklərini ümumilikdə klassik irsimizə də aid etmək lazımdır: "...Füzulinin öyrənilməsi və təbliği sahəsində işlər yubileydən sonra da davam etdirilməlidir. Bəzən belə olur; yubileyə qədər çox iş görülür, nitqlər söylənilir, təntənələr başa çatır,

---

[50] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 9. – Bakı, Azərnəşr, - 2000.- s. 17.

sonra isə hər şey soyuyur. Əlbəttə, bunun özü də müəyyən qədər təbiidir. Lakin gərək biz belə etməyək."[51]

Bununla yanaşı, Ümummilli Lider bir ictimai-mədəni aksiya və proses kimi görkəmli sənətkarların xatirəsinin anılmasına və yubileylərinə də böyük önəm verir və bu barədəki fəlsəfi mahiyyətli dərin fikirlərini sadə və anlaşıqlı sözlərin köməyi ilə ümumiləşdirərək deyirdi:

"Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir...

...Bir daha qeyd edirəm, bu yubileylərin keçirilməsindən məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəsilə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır."[52]

***

Əlamətdardır ki, Heydər Əliyevin klassik irsə münasibəti təkcə Azərbaycanla məhdudlaşmayıb, qlobal,

---

[51] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar. – Bakı: Ozan. - 1999, - s. 205.
[52] Yenə orada, s. 313.

ümumbəşəri mahiyyət daşıyır. Bu baxımdan 1999-cu ildə İkinci Dünya müharibəsi zamanı Almaniyadan Bakıya gətirilmiş sənət əsərlərinin Almaniyaya qaytarılması üçün göstərdiyi xoş məram çox nümunəvi sayıla bilər. həmin il İstanbulun Çırağan sarayında Almaniya Federativ Respublikasının kansleri Gerhard Şröderlə görüşündə Bremen qalereyasından hərbi qənimət kimi Bakıya gətirilmiş rəsmləri müvafiq rəsmi sənədlərlə kanslerə təqdim edərkən Ümummilli Lider demişdir:

"Mən 1947-ci ildə Azərbaycana gətirilmiş Bremen qalereyası rəsmlərinin Almaniyaya qaytarılması haqqında sərəncamı və məktubu AFR kanslerinə təqdim edirəm. Xatırladım ki, İkinci Dünya müharibəsi qurtardıqdan sonra bir zabit həmin əsərləri Bakıda satmağa cəhd göstərərkən respublikamızın müvafiq orqanları tərəfindən yaxalanmışdı.

Bu əsərlər o vaxt Azərbaycan Dövlət İncəsənət Muzeyinə verilmiş və orada saxlanılmışdır. Lakin 1992-ci ildə muzeydən 130 əsər, o cümlədən Bremen qalereyasının 10 əsəri oğurlanmışdır. Həmin əsərlər 1997-ci ildə Amerikanın Nyu-York şəhərində tutuldu və oğruların orada məhkəməsi oldu. Cənab kansler, biz bu iki əsəri və Nyu-Yorkda məhkəmə orqanlarının sərəncamında olan əsərləri sizə veririk. Mən 1947-ci ildən muzeyimizdə saxladığımız həmin əsərlərlə bağlı sənədləri də sizə təqdim edirəm."[53]

[53] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 23. – Bakı, Azərnəşr, - 2008.- s. 167.

Burada maraq doğuran cəhətlərdən biri də, 1992-ci ildə Azərbaycanda hakimiyyətdə olmuş Xalq cəbhəsi rəhbərlərinin və Respublikada ikinci dəfə hakimiyyətə gəlmiş Heydər Əliyevin klassik irsə münasibətidir; belə ki, əgər Xalq cəbhəsi dövründə muzey sərvətləri talan edilib xaricə daşınmışdısa, məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində onlar tapılıb üzə çıxarılmış və həqiqi varisinə qaytarılmışdı.

O vaxt Ümummilli Liderin bu xidmətini yüksək qiymətləndirən Almaniya kansleri Gerhard Şröder öz minnətdarlığını bu cür ifadə etmişdir:

“Çox səmimi dostluq hərəkətinə görə Sizə ürəkdən təşəkkür edirəm, əmin olduğumu bildirirəm ki, bu addım Azərbaycan ilə Almaniya arasında bütün sahələrdə, həmçinin mədəniyyət sahəsində əlaqələrin daha da inkişaf etməsinə layiqli töhfə olacaqdır.

Cənab Prezident, mən Bremen şəhərinin rəhbərliyinə bu barədə məlumat verəcəyəm və biz müsadirə edilmiş bu əsərlərlə əlaqədar mülkiyyət hüququnu müəyyənləşdirəcəyik. Mən əminəm ki, təkcə bremenlilər deyil, Almaniyanın bütün sakinləri də Sizin bu addımınızı və mədəniyyət sahəsində əməkdaşlığımızı yüksək qiymətləndirəcək, münasibətlərimizə hörmətlə yanaşacaqlar. Bu əsərlərin bizə verilməsi ölkələrimizin siyasi, iqtisadi və mədəni sahədə qarşılıqlı münasibətlərinin daha da inkişaf etməsinə Sizin töhfəniz olacaqdır. Mən Sizə çox minnət-

daram."[54]

Göründüyü kimi, Heydər Əliyevin bu xoşməramlı jesti əslində qlobal mahiyyət daşıyır və müxtəlif tarixi kataklizmlərin təsiri altında öz doğma mühitindən ayrı düşmüş klassik irsin qaytarılması yönündə dünya liderlərinə bir örnək kimi qiymətləndirilə bilər. Nəzərə alsaq ki, eyni yolla Rusiyaya daşınmış və hələ indiyə qədər də Ermitajda, Tretyakov qalereyasında və Rusiyanın bir çox başqa muzeylərində hərbi qənimət kimi saxlanılan minlərlə əsər var, Ümummilli Liderin bu jestinin qlobal səviyyədə necə böyük əhəmiyyət daşıdığını təsəvvür etmək olar. (Bax:[55])

1994-cü ildə Avstriyaya rəsmi səfəri zamanı verdiyi müsahibəsində Heydər Əliyev açıq mətnlə Sovet ordusunun müharibənin sonundakı talançılığını göstərmiş və bunun alman mədəniyyətinə necə böyük bir zərbə olduğunu qeyd etmişdi. Gəncliyində dəfələrlə baxdığı, 1934-cü ildə Avstriyada çəkilmiş "Vyana meşəsinin nağılları" filmindən bəhs edən Ümummilli Lider bu filmin də hərbi qənimət kimi Rusiyaya aparıldığını göstərərək qənimətlərin həddən çox olduğuna da işarə etməklə demişdi:

"Bilirsiniz ki, İkinci Dünya müharibəsi zamanı sovet ordusu müttəfiqlərin qoşunları ilə birlikdə Vyananı,

---

[54] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 23. – Bakı, Azərnəşr, - 2008.- s. 167-168.

[55] Трофейное искусство (Вторая мировая война) / https://ru.wikipedia.org/wiki/Трофейное_искусство_(Вторая_мировая_война)

Avstriyanı azad etmişdi, buradan bir çox qənimətlər götürmüşdü. Həmin film də bunların içərisində idi."[56]

Yeri gəlmişkən qeyd edək ki, burada da Ümummilli Lider özünün unikal ezop dilinin köməyi ilə sovet ordusunun əslində Avstriyanı azad etməsini deyil, işğal etməsini vurğulamışdı; məgər bir ölkəni azad edərkən onun sərvətlərini qənimət şəklində talan edərlərmi? Göründüyü kimi, əslində Heydər Əliyev sovet ordusunun işğalçılıq, talançılıq siyasətini tənqid etmiş və bunu elə üsulla demişdi ki, sovet liderlərinin heç ruhları da inciməmişdi.

Əlbəttə, bu faktın özü də Heydər Əliyevin klassik irsə münasibətindəki həmin irsin mənsub olduğu xalqa qarşı kəskin ədalət duyğularından xəbər verir. Bu isə, Ulu Öndərin indinin özündə və gələcəkdə də işğalçı müharibələrin və talançılığın qəti əleyhdarı kimi dünya liderlərinə bir örnək olduğunu sübut etməkdədir.

***

Klassiklərin irsinin yaşadılmasında və təbliğində onların ev muzeylərinin roluna da böyük önəm verən Heydər Əliyev Xalq şairi Səməd Vurğunun qızı, şairin ev muzeyinin direktoru Aybəniz xanım Vəkilovaya ünvanladığı təbrikində bu barədə fikirlərini lakonik şəkildə ifadə edərək yazırdı:

[56] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 27. – Bakı, Azərnəşr, - 2009.- s. 100.

"Xalqımızın dahi şairi Səməd Vurğunun zəngin irsinin qorunub saxlanmasında və təbliğindəki xidmətləriniz əvəzsizdir. Sizin əməyiniz sayəsində sevimli şairimizin ev muzeyi Azərbaycan xalqının, poeziya pərəstişkarlarının mədəniyyət məbədinə çevrilmişdir...

İnanıram ki, müasir Azərbaycan poeziyasında bütöv bir mərhələ təşkil edən Səməd Vurğun yaradıcılığının təbliği işində əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz."[57]

***

Heydər Əliyevin klassik irsə böyük məhəbbət və qayğısını sənət adamları hələ onun sağlığında yüksək qiymətləndirmiş və özlərinin dərin minnətdarlıqlarını bildirmişlər. Azərbaycan yazıçılarının X qurultayı ərəfəsində yaşlı yazıçılarla keçirdiyi görüşdə Xalq şairi Sabir Rüstəmxanlı bu barədə demişdir: "Mən 1969-cu ildən bəri Azərbaycanda keçirilən bütün yubileyləri – yazıçıların, böyük mədəniyyət xadimlərinin yubileylərini yadıma salıram. Mən repressiya qurbanlarına Sizin verdiyiniz bəraətləri və bu işlərin son nəticəsi, zirvəsi, nida işarəsi kimi Naxçıvanda ucaldılan Hüseyn Cavid məqbərəsini, sülh şəraitində yaşayan heç bir dövlətin edə bilməyəcəyi bir səviyyədə Füzulinin müharibə şəraitində keçirilən

[57] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 276.

500 illik yubileyini, Səməd Vurğunun yubileyini və son vaxtlar keçirilən digər yubileyləri yadıma salıram. Eyni zamanda bizim mənəvi irsimizə münasibəti, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd edilməsi haqqında Sizin fərmanınızı, mədəniyyətimizlə bağlı başqa tədbirləri yadıma salıram və fikirləşirəm ki, kaş Siz Azərbaycana müharibə şəraitində rəhbərlik etməyəydiniz. Kaş dinc vaxt olaydı və mən təsəvvür edirəm ki, onda mədəniyyətə, ədəbiyyata Sizin nə qədər böyük vaxtınız qalardı və Azərbaycan mənəviyyatı Sizin rəhbərliyinizlə nə qədər böyük uğurlar qazanardı. Çünki Siz fikirlərinizin bütün siyasi yönləri ilə yanaşı, əslində həm də böyük mədəniyyət adamısınız."[58]

***

Heydər Əliyev klassik irsdən, klassik ədəbiyyatdan, onun çağdaş əhəmiyyətindən danışarkən çox zaman özünü mükəmməl nəzəriyyəçi alim kimi göstərirdi. Məsələn, 10 iyun 2001-ci ildə Respublika sarayında "Bakılı oğlanlar" şən və hazırcavablar klubunun yeni proqramla hazırlanmış konsertinə baxdıqdan sonra klub üzvləri ilə görüşündə yumor haqqında öz elmi-nəzəri düşüncələrini belə ifadə etmişdi:

"Təbiidir ki, sizin bu çıxışlarınız daha çox yumor

[58] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 13. – Bakı, Azərnəşr, - 2004.- s. 31.

xarakteri daşıyır... Bu da çox vacibdir, əhəmiyyətlidir. Çünki yumor insanlar üçün həmişə mənəvi bir qida olubdur. İkinci tərəfdən də, yumor, eyni zamanda ayrı-ayrı qüsurların tənqididir. Əgər keçmişə nəzər salsaq, yumoristlər keçmişdə müəyyən qədər müxalifətdə olublar. Məsələn, bizim böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında və öz əsərlərində o dövrdə xalqımızın, cəmiyyətin nöqsanlarını, xalqımızın bəzi məsələlərdə geri qalmasını çox yumoristik şəkildə əks etdirirdi. Həmin jurnalın nömrələrinə baxanda bəzi adamlar belə qəbul edirlər ki, bu sözlər, şəkillər sadəcə, insanı güldürməkdən ötrüdür. Amma orada iki mən var: həm insanı güldürür, həm də başa salır ki, bu nöqsanları aradan qaldırmaq lazımdır.

Bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyov "Məşədi İbad" operettasını yaradıbdır. İnsanların, demək olar ki, əksəriyyəti - əgər mütəxəssisləri nəzərə almasaq – indiyə qədər belə hesab edirlər ki, "Məşədi İbad" operettası komediyadır, insanlar gəlib baxsınlar, istirahət etsinlər. Ancaq bu, bir tərəfdən komediyadır, digər tərəfdən əgər bu əsəri dərindən təhlil etsən aydın olar ki, bir tərəfdən, o dövrdə gedən proseslər, digər tərəfdən isə nöqsanlar, çatışmazlıqlar göstərilibdir. Eləcə də məsələn, Qoqolun əsərlərini götürsək, onun əsərlərindəki obrazlar indiyə qədər yaşayırlar. Ona görə də yumor iki məna, məqsəd daşıyır. Bir tərəfdən, insanlar həqiqətən gülür, istirahət edirlər. Deyirlər ki, sizin bu tamaşanız 3 saat 15 dəqiqə

çəkibdir. Başqa bir tamaşada buna dözmək mümkün deyildir. Amma siz bir tərəfdən, insanları güldürürsünüz, ikinci tərəfdən isə, tənqid edirsiniz. Hesab edirəm ki, tənqidi də məhəbbətlə edirsiniz."[59]

Zənnimcə, "tənqidi məhəbbətlə etmək" ifadəsi bir nəzəriyyəçi alim kimi məhz Ümummilli Liderə məxsusdur. Buna qədər bizim, eləcə də yəqin ki, dünya ədəbi-nəzəri fikrinin satira nəzəriyyələrində "göz yaşları içində gülüş" ifadəsinə rast gəlmişik; ancaq "məhəbbət duyğuları ilə tənqid" ifadəsini şəxsən mən az-çox oxumuş ədəbiyyatçı kimi eşitməmişəm. Özəlliklə, bu cür elmi ifadə dövlət başçısının dilindən çıxırsa, həm də xüsusi tədqiqat aparmadan, bədahətən, bilavasitə tamaşa etdiyi yaradıcılıq aktının isti izləri ilə deyilmiş bu sözlər əslində, Heydər Əliyevin özünün də nə qədər hazırlıqlı və nə qədər hazırcavab olduğunu sübuta yetirməkdə, əyani şəkildə göstərməkdədir.

***

Heydər Əliyevin klassik irsə münasibəti, özünün də etiraf etdiyi kimi, həmişə aktiv xarakter daşımışdır. Rusiya Federasiyasının və Moskva şəhərinin Azərbaycanda keçirilən mədəniyyət günlərində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya nümayəndə heyətinin rəhbərləri ilə 26 iyun 2000-ci ildə keçirdiyi görüş zamanı söhbətində

[59] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 34. – Bakı, Azərnəşr, - 2011.- s. 350-351.

Ümummilli Lider xüsusi halda teatr tamaşalarına baxdığı zaman səhnə arxasında yaradıcı heyətlə görüşlərin və tamaşanın təhlilinin onun üçün bir qayda, zərurət, ənənə halını aldığına toxunaraq demişdir: "...Əgər mən teatra gəlmişəmsə, deməli, mütləq səhnə arxasına getməliyəm... Mən sadəcə olaraq gəlib "sağ olun, çox yaxşıdır" demirəm. Mən hökmən pyesin özünün, müəllifin, sonra da tamaşanın quruluşunun məziyyətlərini saf-çürük etməliyəm. Bax, belə bir ənənə yaranmışdır... 30 ildən də əvvəl Azərbaycanın rəhbəri olduğum vaxtdan bəri mən biganə qala bilmirəm. Mən öz fikrimi, öz rəyimi söyləməliyəm."[60]

***

1998-ci il avqustun 21-də Azərbaycanın ədəbiyyat, mədəniyyət, elm, din və idman xadimlərinin böyük bir qrupuna "Şöhrət" ordenlərinin təqdim edilməsi mərasimində söylədiyi dərin məzmunlu yekun nitqində Heydər Əliyev Azərbaycan klassik irsinin böyük bilicisi və qədirbiləni, hamisi, hər bir sənətkarın layiq olduğu qiyməti zərgər dəqiqliyi ilə, obyektivliklə verməyə qadir olduğunu bir daha sübuta yetirmişdir:

"XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xal-

[60] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 28. – Bakı, Azərnəşr, - 2009.- s. 347-348.

qımız çox istedadlı xalqdır və çox qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər. *XX əsrin ikinci yarısı isə bu baxımdan daha da məhsuldar olmuşdur.*" (Seçmə mənimdir – T.K.)[61]

Bəli, məhz "XX əsrin ikinci yarısı", daha doğrusu, Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəldiyi 1969-cu ildən sonrakı dövr çağdaş klassik irsin dövlətin qayğısı və diqqəti altında görünməmiş bir vüsətlə inkişaf etdiyini aşıq-aşkar izləmək olar.

Klassik irsi vahid bir tam kimi, canlı bir orqanizm kimi alıb təhlil edən Heydər Əliyev onun kəsilməzliyini, davamlılığını və bu mənada əbədiliyini xüsusi qeyd edərək deyirdi: "...Azərbaycanda nəsillər bir-birini ardıcıl surətdə əvəz edir. Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəliyə aparır. Gənc də, yaşlı da – hamısı bir yerdədir. Bunun xüsusi əhəmiyyəti vardır. Çünki son illərdə bəziləri Azərbaycanın tarixi keçmişini tamamilə pozmağa, qaralamağa, hör-

[61] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 17. – Bakı, Azərnəşr, - 2006.- s. 160.

mətdən salmağa cəhdlər göstərmişlər.

Şübhəsiz ki, bu cəhdlər heç bir nəticə verə bilməz. Biz Nizamini, Füzulini, Nəsimini, Vaqifi qiymətləndiridiyimiz kimi, Mirzə Fətəli Axundovu da, Üzeyir Hacıbəyovu da, Cəlil Məmmədquluzadəni də, Cəfər Cabbarlını da, Müslüm Maqomayevi də, Səməd Vurğunu da, Rəsul Rzanı da, Süleyman Rəhimovu da, Mehdi Hüseyni də, Qara Qarayevi də, Fikrət Əmirovu da, Niyazini də, Rauf Hacıyevi də və başqalarını da qiymətləndiririk. Biz bu gün yaşayıb yaradanları da qiymətləndiririk. Bunların hamısı bir-biri ilə üzvi surətdə bağlıdır. Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır."[62]

Klassiklərimizin bu cür şifahi nitqdə fenomenal yaddaşın köməyi ilə sadalanması, əlbəttə ki, Ümummilli Liderin bu irsi heyrətamiz dərəcədə əzbər bilməsi və onunla daim qürur duyması, bu irsin bu günümüz üçün, gələcəyimi üçün nə qədər böyük əhəmiyyət daşımasını dərindən-dərinə dərk etməsi və bu duyğunun bütövlükdə Azərbaycan xalqına aşılanması yolunda necə böyük titanik səylər göstərməsinin bariz örnəyini təşkil edir.

O da şübhə doğurmur ki, bu şanlı siyahının ən şərəfli yerlərindən birində Ulu Öndərin öz adı da vüqarla durmaqda, vətənpərvərliyin, insanlığın zirvəsi olan örnə-

[62] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 17. – Bakı, Azərnəşr, - 2006.- s. 163-164.

yi ilə indiki və gələcək nəsilləri millətsevərlik və insansevərlik ruhunda əbədi bir müəllim kimi tərbiyə etməkdədir.

***

O da maraq doğurur ki, Azərbaycan mədəni irsini bütöv şəkildə götürən Heydər Əliyev onun müxtəlif sahələrinin inkişafının bir-biri ilə üzvi şəkildə bağlı olduğunu, bir sahənin inkişafının başqa sahələrə də güclü təsir göstərdiyini qeyd edir. Bu baxımdan onun İçərişəhərlə bağlı verdiyi Sərəncamın preambula hissəsi diqqəti çəkməyə bilmir:

"IV-VIII əsrlərdə Azərbaycanın ərazisində müdafiə xarakterli istehkamlar və qala divarlarının ucaldılması ölkənin təbii sərvətlərinin zənginliyinə, öz dövrü üçün inkişaf etmiş iqtisadi-sosial durumun təşəkkül tapdığına dəlalət edir. Həmin dövrdə Azərbaycanda formalaşmış tarixi mühit ölkə mədəniyyətinin bir çox sahələrinin inkişafına təkan verib. Qədim tarixçilərin və səyyahların qeyd etdikləri kimi, Azərbaycanın Böyük İpək yolunun üstündə yerləşməsi onun Bakı, Naxçıvan, Gəncə, Bərdə, Beyləqan kimi şəhərlərində memarlıq, xalçaçılıq, dulusçuluq, zərgərlik və başqa sənətlərin inkişafı üçün əlverişli şərait yaradıb. Bəşər tarixinə dahi şair və mütəfəkkir Nizami kimi böyük şəxsiyyətlər vermiş XII əsrdə mədəniyyətin demək olar ki, bütün sahələrində böyük vüsət almış dirçəliş memarlığın, şəhərsalma sənətinin də inkişaf et-

məsinə güclü təsir göstərib."[63]

Doğrudur, deyə bilərlər ki, Heydər Əliyev əsas təhsilinə görə tarixçidir, ancaq bu sözləri sinədəftər deyərkən o, bir böyük geosiyasi əhəmiyyət kəsb edən dövlətin başçısı idi və min dənə dərdi-odu vardı; tarixi qaynaqları öyrənməyə vaxtı yox idi. Buna baxmayaraq, yenə də istənilən tarixçi və təkcə tarixçi deyil – alimə dərs verməyə qüdrəti çatardı.

Elə 17 dekabr 1994-cü ildə böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyinə həsr olunmuş sərginin açılışında etdiyi dərin məzmunlu çıxış da buna dəlalət edir ki, klassik irsdən söz düşəndə Ümummilli Lider onun mahiyyətinə varmadan, əhəmiyyətini açıqlamadan, dəyərini dəqiq müəyyənləşdirmədən ötüşə bilmir; yəni bütövlükdə bu, onun klassik irsə kompleks münasibətini təşkil edir:

"Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, ondan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir." [64]

Səttar Bəhlulzadə irsinin orijinallığını bir sənətşünas qabiliyyəti və rəssam intuisiyası ilə qiymətləndirən

---

[63] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 44. – Bakı, Azərnəşr, - 2013.- s. 124-125.

[64] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 3. – Bakı, Azərnəşr, - 1997.- s. 42.

Heydər Əliyev demişdir:

"Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəssam illər boyu yaşayacaq və heç şübhə etmirəm ki, zaman keçdikcə Səttar Bəhlulzadənin yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır."[65]

***

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adının əbədiləşdirilməsi və irsinin dərindən öyrənilməsi ilə bağlı Ulu öndərin cahanşümul fəaliyyətlərini əvvəlki səhifələrdə diqqətə çatdırmışdıq. Buna baxmayaraq, mövzuya bir daha qayıdaraq, Heydər Əliyevin bu dəfə fərqli

[65] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 3. – Bakı, Azərnəşr, - 1997.- s. 42.

bir rakursdan, bir filosof təfəkkürü ilə Nizami ədəbi dünyasına verdiyi qiyməti qabartmaq istəyirik.

9 iyun 2002-ci ildə Sankt-Peterburq şəhərində Nizami abidəsinin təntənəli açılış mərasimindəki dərin, fəlsəfi məzmunlu nitqində Ulu öndər belə deyirdi:

"Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır. Nizami insanın cəmiyyətdəki rolunu özünün dünyagörüşü süzgəcindən keçirərək, yaradıcılığında antik yunan və Roma irsini, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik ənənələrini əks etdirə bilmişdir.

Nizaminin ürəkləri vəcdə gətirən lirikası və qəhrəmanlıq eposunda onun həqiqi humanizm ideyalarını ehtiva edən fəlsəfi konsepsiyası öz əksini tapmışdır.

Məhəbbətin yenilməz qüdrəti, həyatın və ölümün mənası, ideal cəmiyyət, dünyanın və kainatın möhtəşəm sirləri haqqında yaratdığı poemalar əsrlər boyu Şərqdə əsl sənət nümunəsi olaraq qalmışdır. Onun poemalarının xüsusiyyətləri və yaratdığı poetik obrazların dərinliyi Qərbin dahi Höte kimi mütəfəkkirlərini heyran qoymuşdur. Zənnimcə məhz Nizaminin bütün əsərlərində bəşər övladının misilsiz qüdrətinin tərənnüm edilməsi sayəsində Azərbaycan xalqının dahi oğluna bu gün Sankt-Peterburqun təkrarolunmaz görkəminin ayrılmaz hissəsinə çevrilmək şərəfi qismət olmuşdur."[66]

[66] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 39. – Bakı, Azərnəşr, - 2012.- s. 25.

***

Klassik irsin rəngarəng təzahürlərindən birini də Ulu Öndər xalqın tarixində, adət-ənənəsinin yaşarlılığında, xüsusi halda min illərdən bəri sevilə-sevilə yaşadılan və nəsillərdən-nəsillərə ötürülən milli bayramlarda görürdü. 19 mart 1998-ci ildə Ulu Öndər minillərdən bəri yaşadılan Novruz bayramının fəlsəfəsini və xalqımız üçün xüsusi əhəmiyyətini bir etnoqraf alim kimi yüksək səviyyədə elmi cəhətdən açaraq deyirdi:

"Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir.

Zəngin mənəvi dəyərlərimizə söykənərək insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq münasibətlərini bərqərar edən Novruz bayramı xalqda gələcəyə nikbinliklə, ümidlə baxmaq hissləri doğurur."[67]

Elə həmin il aprelin 6-da Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edən Ümummilli Lider bu bayramda həyata keçirilən ziyarətlərin, edilən duaların Tanrı tərəfindən eşidiləcəyinə, xalqımızın haqq işinin

[67] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 57.

qələbə ilə başa çatacağına dərin inamını ifadə edərək yenə özünün peyğəmbərcəsinə uzaqgörənliyini bir daha sübuta yetirmişdir:

"Bu bayram günündə hamımız ulu Tanrıdan doğma Vətənimizin ərazi bütövlüyünün bərpa edilməsini, ölkəmizdə sülhün, əmin-amanlığın bərqərar olmasını, xalqımızın xoşbəxt və firavan həyata qovuşmasını diləyirik. Xalqımızın vətənpərvərliyi, qurub-yaratmaq əzmi, öz milli, dini dəyərlərinə, tarixinə, mədəniyyətinə bağlılığı niyyətlərimizin çin olacağına möhkəm inam yaradır.

Böyük Xaliqin bəxş etdiyi bu minnətdarlıq bayramında Məkkə ziyarətində olan zəvvarlarımızın, bütün Azərbaycan müsəlmanlarının duaları xalqımızın haqq işinin qalib gəlməsinə, Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin dinc yolla həll olunmasına yönəlmişdir.

Bu əziz gündə şəhidlərimizin xatirəsini yad edərək əmin olduğumu bildirirəm ki, onların ruhlarının şad olacağı, torpaqlarımızın erməni qəsbkarlarının tapdağından azad ediləcəyi, qaçqın və köçkün həmvətənlərimizin öz doğma yurd-yuvasına qayıdacağı gün uzaqda deyildir."[68]

Müəyyən mənada Tanrısal diktə mənziləsində olan bu sözlər o zaman deyilib ki, hələ 44 günlük müharibənin başlanmasına 22 il qalırdı və bu inamla qələbəni gözləyən bir Lider ancaq xalqının potensialını bilən və onun

[68] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 72.

mütləq oyanıb işə düşəcəyinə arxayın olan dahi bir şəxsiyyət olmalı idi! Və bu inamın arxasında həm də özünün siyasi varisi, Azərbaycan Respublikasının gələcək Prezidenti və Müzəffər Ali Baş Komandanı İlham Əliyevə, Ümummilli Liderin özünün dediyi kimi, "özü qədər inanmasının" sonsuz möhkəmliyi dururdu!

Və Şuşanı aldıqdan sonra Müzəffər Ali Baş Komandanın Ümummilli Liderin müqəddəs məzarı üzərinə gələrək qələbə raportu verməsi – Azərbaycanın çox minillik tarixinin bəlkə ən uca zirvə nöqtələrindən, qızıl səhifələrindən, "ulduz saatlarından" biri idi. Bəli, irs və varislik bu cür davam edəndə möhtəşəm olur, bütöv bir xalq üçün, qədim bir ölkə üçün taleyüklü səciyyə daşıyır, gələcəyə inamı və qətiyyəti möhkəmləndirir!

Bütün şanlı keçmişi və şərəfli tarixi boyu multikulturalizmin həyat tərzi olduğu, çoxkonfessiyalı bir ölkə kimi tanınan və bununla fəxr edən Azərbaycanda təkcə elit millətin deyil, milli azlıqların da klassik dini-mənəvi irsinə böyük hörmət və qayğı ilə yanaşan Ümummilli Lider milliyyətindən və dini inancından asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarına eyni sevgi və qayğı ilə yanaşır, bunu dövlətçiliyin əsas atributlarından sayırdı.

1999-cu il aprel ayının 10-da Azərbaycanın pravoslav xristianlarına ünvanladığı Pasxa bayramı münasibətilə təbrikində Ulu Öndər yazırdı:

"Əziz həmvətənlər!

Sizi xristianlığın müqəddəs bayramlarından biri olan Pasxa münasibətilə ürəkdən təbrik edir, hamınıza həyatda xoşbəxtlik və səadət arzulayıram."[69]

Müraciətdən də göründüyü kimi, Ümummilli Lider üçün Azərbaycanda yaşayan bütün insanlar – dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq "əziz"dir və "həmvətən"dir, onların hər birinin milli-mənəvi, dini irsinə isə dövlət rəhbəri səviyyəsində yüksək hörmət göstərilir. Xüsusilə, müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətinin tolerantlığı, multikultural siyasəti daha yüksək səviyyədə, bir çox dövlətlərə örnək olacaq dərəcədə özünü büruzə verməkdədir. Ümummilli Lider bu cəhəti xüsusi vurğulayaraq yazırdı:

"Azərbaycan tarixən müxtəlif xalqların mehriban bir ailə kimi dinc yanaşı yaşadığı, milli adətlərin, dini-mənəvi dəyərlərin qorunub saxlandığı bir ölkə olmuşdur. Müstəqillik qazandıqdan sonra bu şərəfli ənənə davam etdirilmiş, hər kəsin vətəndaş hüquqları, vicdan azadlığı və dini etiqad sərbəstliyi təmin olunmuşdur. Təsadüfi deyildir ki, 1934-cü ildə sovet rejiminin dini etiqad azadlığına müdaxiləsi nəticəsində ləğv edilmiş Bakı və Xəzəryanı yeparxiya da müstəqil dövlətçilik şəraitində öz fəaliyyətini yenidən bərpa etmişdir."[70]

---

[69] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 19. – Bakı, Azərnəşr, - 2006.- s. 453.

[70] Yenə orada.

Elə həmin 1999-cu ilin aprel ayında, iki gün sonra Ulu Öndər yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycan yəhudi icmasına müraciət ünvanlamışdır. Müraciətdə İkinci Dünya müharibəsində soyqırımına məruz qalmış, altı milyon günahsız qurban vermiş yəhudi xalqına başsağlığı verməklə yanaşı, Heydər Əliyev böyük humanist kimi baş vermiş dəhşətli faciədən nəticə çıxarmağa, bu cür qeyri-insani hadisələrə bir daha yol verməməyə çağırır, bəşəriyyətin mütərəqqi qüvvələrini bu yolda səylərini birləşdirməyə, əlində olan hərbi gücdən sərsəmləyərək dünya ağalığı iddiasına düşən qlobal manyakların qarşısına sədd çəkmək üçün bir yumruğa dönməyə səsləyir:

"Bütün mütərəqqi bəşəriyyət hər il yəhudi xalqının müsibəti gününü – İkinci Dünya müharibəsində yəhudi xalqına qarşı həyata keçirilmiş soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsini ürək ağrısı ilə yad edir."[71]

Daha sonra Heydər Əliyev təəssüflə bildirir ki, insanlığın bu kimi qlobal faciələrdən nəticə çıxarmaması, dərs almaması ona gətirib çıxarır ki, zaman-zaman müxtəlif ölkələrdə bu cür hadisələr təkrar olunur və nə yazıq ki, Azərbaycan xalqı da öz tarixi boyu bu cür faciələri yaşamışdır:

"O günahsız qurbanların xatirəsini bir daha yad edir və təəssüflə bildirirəm ki, bu gün də dünyada bəzi millət-

[71] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 19. – Bakı, Azərnəşr, - 2006.- s. 455.

çi-separatçı qüvvələrin təhriki ilə insanlar milli mənsubiyyətinə görə məhv edilir, öz tarixi torpaqlarından didərgin salınır və qeyri-insani məhrumiyyətlərə məruz qalır. XIX-XX əsrlərdə Qafqazda böyük dövlətlərin məkrli ermənilərin əli ilə Azərbaycan xalqına qarşı dəfələrlə həyata keçirdikləri soyqırımı siyasəti son on ildə özünün növbəti mərhələsinə qədəm qoymuş, yüz minlərlə dinc əhalimiz milli mənsubiyyətinə görə təqib olunmuş, öz ata-baba yurdundan qovulmuş, qanlı faciələrə sürüklənmişdir."[72]

Ancaq yəhudi və Azərbaycan xalqlarının müsibətlərinin bir fərqi var ki, yəhudi soyqırımını törətmiş alman faşistləri mütərəqqi bəşəriyyətin ədalət məhkəməsində məhşər ayağına çəkilərək layiqli cəzalarını almışlarsa, Azərbaycan xalqının yırtıcıları hələ də əl-qollarını sallayıb sərbəst gəzməkdədirlər. Ümummilli Lider ümid edir və inanırdı ki, erməni vəhşiləri də layiqli cəzalarına çatacaq, dünyanın ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar:

"Yəhudilərin müsibəti günündə öz ağrılarımızın da yada salınması təbiidir. Çünki milli mənsubiyyətinə görə soyqırımı siyasətinə, kütləvi qanlı faciələrə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır. İnanıram ki, faşizmin törətdiyi cinayətlər bütün dünyada öz qiymətini aldığı kimi, ermənilərin xalqımıza qarşı həyata keçirdik-

[72] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 19. – Bakı, Azərnəşr, - 2006.- s. 455.

ləri təcavüzkar, qanlı və mənfur hərəkətlər də öz siyasi və hüquqi qiymətini alacaqdır."[73]

Bəli, bu gün hətta Rusiya kimi nəhəng superdövlətin başçısını da Ukrayna xalqına qarşı törətdiyi cinayətə görə məhşər ayağına çəkir, Dünya Kriminal Məhkəməsinin hökmü ilə haqqında tutuqlama orderi verirlər. Bəs necə olur ki, Ermənistan kimi cırtdan kriminal dövlətin insanlığa qarşı cinayətlərinə göz yumulur, erməni faşistlərinə gözün üstə qaşın var deyən olmur?

Bəli, Ulu Öndər demişkən, vaxt gələr, qlobal ədalətin qılıncı onların başı üzərində də parlayar, insanlıq adına ləkə olan, qaniçənlikdə dördayaqlı yırtıcıların qibtə edə biləcəyi bu ikiayaqlı varlıqları, bu qansızları, türklər demişkən, doğduqlarına peşman edər...

***

Əlbəttə, böyük humanist insan olan Heydər Əliyev öz vətənini, öz xalqını bütün varlığı ilə sevirdi, onun klassik irsi ilə dərindən maraqlanırdı, ancaq bu heç də o demək deyil ki, bu böyük şəxsiyyət bəşəriyyətin öz tarixi boyunca yaratdığı mədəni dəyərlərə, klassik irsə bələd olmayıb, onları qiymətləndirməyib. Bunun qətiyyən belə olmadığını görmək üçün Ulu Öndərin dünya klassik irsinin bir neçə görkəmli nümayəndəsi haqqındakı dəyərli fi-

[73] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 19. – Bakı, Azərnəşr, - 2006.- s. 455-456.

kirlərini qısaca olaraq nəzərdən keçirmək kifayətdir.

Ulu Öndər 1997-ci ildə Polşada səfərdə olarkən başqa ölkələrdəki kimi, adəti üzrə səfər etdiyi ölkənin dünya şöhrətli nümayəndələrinin muzeylərinə, tarixi yerlərinə getmiş, Varşavada dahi polyak bəstəkarı Frederik Şopenin muzeyini gəzdikdən sonra Şopenin əsərlərinin mahir ifaçısı, beynəlxalq müsabiqələr laureatı, 23 yaşlı pianoçu Rafael Luşçevski Heydər Əliyevin şərəfinə Şopenin əsərlərini ifa etmişdir. Ümummilli Lider bu ifadan və sevdiyi bəstəkar olan Şopenin əsərlərindən aldığı təəssüratı bu cür səmimi sözlərlə ifadə etmişdir:

"Şopenin musiqisi özlüyündə polyak xalqı üçün çox böyük fəxr və sərvətdir. Mən proqramla tanış oldum. Siz az bir müddətdə beynəlxalq miqyasda uğurlar qazana bilmisiniz. Musiqini, o cümlədən Şopenin sənətini sevən insan kimi deyə bilərəm ki, siz bu nailiyyətləri tamamilə haqlı olaraq və ədalətli qazanmış, yəni o mükafatlara layiq görülmüsünüz. Bunu bu gün inandırıcı şəkildə nümayiş etdirdiniz. Bu gün bizə böyük zövq bəxş etdiyinizə görə sizə təşəkkür edir və yaradıcılıq fəaliyyətinizdə yeni uğurlar diləyirəm. Şübhə etmirəm ki, parlaq ifaçı, pianoçu kimi, o cümlədən Şopenin əsərlərinin gözəl ifaçısı kimi sizi daha böyük mükafatlar, daha böyük şöhrət gözləyir."[74]

[74] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 98.

Bununla da kifayətlənməyən Ulu Öndər bu gözəl ifaçını Azərbaycana dəvət edir ki, ölkəmizdəki klassik musiqisevərlər və peşəkar musiqiçilər onun ifasının gözəlliyindən bibəhrə qalmasınlar: "İmkanınız olsa, Azərbaycana gəlin, mən sizi dəvət edirəm. Azərbaycanda peşəkar incəsənətin, o cümlədən Şopen yaradıcılığının pərəstişkarları çoxdur. Hesab edirəm ki, siz yaxşı dinləyici auditoriyası ilə qarşılaşacaq və razı qalacaqsınız."[75]

Göründüyü kimi, bu sözlərlə Heydər Əliyev təkcə Şopen yaradıcılığına və pianoçunun ifasına qiymət vermir, həm də Azərbaycanın musiqiyə, incəsənətə olan marağının və həvəsinin ölçüsünü dilə gətirərək, necə deyərlər, az sözlə böyük mənalar ifadə etmiş olur, eyni zamanda Azərbaycan mədəniyyətini Avropada təbliğ edir, tanıtdırır.

Özü ilə çağdaş olan klassik musiqinin Mstislav Rostropoviç, Müslüm Maqomayev, Rəşid Behbudov kimi dahi nümayəndələri ilə həm də yaxın dost olan Ümummilli Lider onların yaradıcılığı haqqında dəfələrlə öz qiymətli fikirlərini bildirmişdir.

22 noyabr 1999-cu ildə dahi musiqiçi, Heydər Əliyevin yaxın dostu, əslən Bakılı Mstislav Rostropoviç ilə Prezident sarayında baş tutan geniş və səmimi söhbət bu baxımdan zəngin material verir. Maraqlıdır ki, Ulu Öndər öz dostuna rəsmi şəkildə adı və atasının adı ilə deyil, çox səmi-

---

[75] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 98-99.

mi və mehribancasına yaxın bir arxadaşı kimi müraciət edir:

“Əzizim Slava, - biz sizə bu cür müraciət etmək barədə razılığa gəlmişik, - şadam ki, siz yenidən doğma torpaqda, Azərbaycandasınız.”[76]

O da maraq doğurur ki, dahi musiqiçinin yaradıcılığına keçməzdən əvvəl Ulu Öndərlə iki Azərbaycan kişisi kimi şəxsiyyətin bütövlüyündən söhbət gedir və heç şübhəsiz ki, burada Heydər Əliyevin möhtəşəm şəxsiyyətinin aurasının təsiri özünü güclü şəkildə göstərməkdədir: “...Burada sizin (Mstislav Rostropoviçin – T.K.) yubileyinizi qeyd etmək üçün mənim dəvətimlə buraya gəldiyiniz vaxtdan bəri öz vətəninizlə, doğma torpağınızla münasibətlərdə yeni mərhələ başlandı. Şadam ki, bu mərhələ çox gözəl nəticələr verir...

...Yaxşı ki, siz bizə yenə də gəldiniz, biz üz-üzə oturub söhbət edə bilərik, nəinki söhbətinizi, həm də musiqinizi dinləyə bilərik.

M.R. Bilirsinizmi, sözümə nə üçün əməl edirəm? Ona görə ki, necə deyərlər, kişi, əsil kişi belə olmalıdır. Bax buna görə.

H.Ə. Siz əsil kişisiniz. Bizim Azərbaycanda kişi sözü çox tutumlu sözdür. Bir var ki, “kişi” sözünü elə-belə deyəsən. Amma sözün əsil mənasında “kişi” o deməkdir ki, bu adam sözübütöv adamdır, sözünün sahibidir, kişilərə xas hər cür ləyaqətə, keyfiyyətlərə malikdir, sözü ilə

[76] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 23. – Bakı, Azərnəşr, - 2008.- s. 194.

əməli birdir."[77]

Dahi musiqiçinin qaçqınlar probleminə ağrılı münasibət göstərməsi də onun bir azərbaycanlı olaraq Azərbaycan rəhbərinin qarşısında səmimi vətənpərvərlik duyğularının təzahürü kimi səslənir:

"M.R. Heydər Əliyeviç, Sizə ağrılı bir sual vermək olarmı? Bilirsinizmi, burada qaçqınlar olmasından çox üzülürəm. Bu məsələnin həllinin bir perspektivi varmı?

H.Ə. Bilirsinizmi, Slava, bu, ağrılı məsələdir, mənim ürəyimdə bir yaradır.

M.R. Mənim də ürəyimdə."[78]

Söhbətin sonuna yaxın Mstislav Rostropoviç klassik rəngkarlıq irsi barəsində söz açıb Heydər Əliyevin yüksək səviyyədə xoş məram göstərərək, İkinci Dünya müharibəsinin sonunda qənimət kimi talanıb Bakıya gətirilmiş Bremen qalereyası rəsmlərinin Almaniyaya qaytarılmasını yüksək qiymətləndirir və bunu nankor qonşularımızın qonşuluq haqqını namərdcəsinə tapdalamasına bir örnək göstərir. Özlüyündə bu, Heydər Əliyevin klassik irsə münasibətinin necə yüksək dərəcədə humanist və qayğıkeş xarakter daşımasının bir vətənpərvər azərbaycanlı, dünya şöhrətli klassik sənətkar tərəfindən layiqincə qiymətləndirilməsidir:

"Bilirsinizmi, rəsm əsərlərini Almaniyaya verməyi-

[77] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 23. – Bakı, Azərnəşr, - 2008.- s. 194-195.
[78] Yenə orada, s. 198.

nizlə əlaqədar xoş məramlı hərəkətinizi artıq indinin özündə çox yüksək qiymətləndirirlər. Çox yüksək qiymətləndirirlər. Hesab edirəm ki, bu, xoş məramın ifadəsi olan gözəl hərəkətdir və dövlət rəhbəri kimi, Sizin ürəyinizin genişliyini göstərir. Belə bir hərəkət hökmən olmalıdır. Gərək qaytarmağı bacarasan. Necə ki, Siz rəsm əsərlərini qaytardınız, eləcə də Ermənistan torpaqları Sizə qaytarmalıdır."[79]

Əlbəttə, son təklifində Azərbaycan torpağının yetirməsi olan dahi musiqiçi Mstislav Rostropoviç elə hesab edir ki, Ermənistanı da Azərbaycanda olduğu kimi, ən azından normal insani duyğusu olan, vəhşi instinktlərin əlində əsir olmayan rəhbərlər idarə edir. Və ümid edir ki, Heydər Əliyevin alicənablığı onlara örnək olacaq... Nə yazıq ki, belə bir məşhur Azərbaycan atalar sözünü unudur: "Yalvarmaqla donuz darıdan çıxmaz!" Və donuzu darıdan (oxu: məsciddən!) çıxarmaq üçün ancaq "donuz gülləsini" onun kinli başına çaxmaq lazımdır!

Bəli, bu sözlərin deyilməsindən 21 il keçdi və Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "donuz gülləsini" donuzun murdar başına çaxaraq darıdan çıxmağa məcbur etdi.

13 oktyabr 2001-ci ildə Respublika Sarayında dahi sənətkar, bənzərsiz mahnı ustası, SSRİ Xalq artisti Rəşid Behbudovun xatirə gecəsində söylədiyi dərin məzmunlu

[79] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 23. – Bakı, Azərnəşr, - 2008.- s. 200.

səmimi nitqində Heydər Əliyev çağdaş klassika, onun indiki və gələcək nəsillər üçün əhəmiyyəti, xalqın qlobal səviyyədə təbliği yolunda müstəsna rolu barədə qiymətli nəzəri fikirlərini səmimi xatirələr işığında ifadə etməyin örnəyini göstərmişdir. Hələ 20 yaşlı bir gənc ikən ilk dəfə Zabitlər Evində Rəşid Behbudovun çıxışını dinlədikdən sonra böyük estetik həzz aldığını etiraf edən Ümummilli Lider deyirdi:

"Mən Rəşid Behbudovu ilk dəfə 1943-cü ildə, İkinci dünya müharibəsinin o ağır dövründə Bakıda Zabitlər Evində dinləmişəm. Ondan sonra mən Rəşid Behbudovun sənətinə, onun səsinə vurğunam və bütün ötən illər onun mahnıları, onun ifa etdiyi gözəl rollar, onun gözəl səsi məni həmişə heyran edibdir."[80]

Rəşid Behbudovun klassik bir sənətkar kimi irsindən danışarkən Heydər Əliyev təkcə onu görkəmli bir incəsənət xadimi kimi hərtərəfli xarakterizə etmək və qiymətləndirməklə kifayətlənmir, həm də ilk növbədə onun vətənpərvərliyini, vətənin qlobal səviyyədə tanıdılması yolunda gördüyü müstəsna fəaliyyəti önə çəkərək vurğunu məhz bu cəhətin üzərinə salır:

"Bilirsiniz, ümumiyyətlə mədəniyyət, xüsusilə musiqi mədəniyyəti, mahnı xalqları başqa xalqlar qarşısında ən gözəl, ən aydın tanıdan bir sahədir. Söz yox ki, hər bir ölkədə hansısa bir alimin ixtirası, hansısa başqa bir hadi-

[80] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 36. – Bakı, Azərnəşr, - 2011.- s. 280.

sə dünya tarixinə daxil olur... Məsələn, dünyada ən məşhur alimlərdən biri Eynşteyn çoxlarına məlumdur, amma çoxlarına da məlum deyildir... Ancaq mədəniyyət, musiqi mədəniyyəti, mahnı mədəniyyəti təkcə bizim üçün deyil, bütün xalqlar üçündür. O qədər cazibədardır ki, dünyada xalqı bütün nailiyyətlərindən daha yaxşı tanıdır."[81]

Dərin yumor hissi, hazırcavablığı, şux, dostyana zarafatı ilə həmişə onu tanıyanları heyran edən Heydər Əliyev bəzən adi bir detala da vətənşümul əhəmiyyət verməyi, ilk baxışda məişət xırdalığı kimi nəzərə çarpan bir hadisədə böyük mənalar axtarmağı bacaran fenomenal bir şəxsiyyət idi. Rəşid Behbudovla birgə Qazaxıstan səfərinə bağlı bir detal bu cəhətdən xarakterik olmaqla, Ulu Öndərin səmimiliyinin daha bir örnəyi kimi qiymətləndirilə bilər. Öz dilindən eşidək:

"Rəşid Behbudov insan kimi də çox maraqlı bir insan idi. Yəni çoxları onu səhnədə görübdür, amma mən onunla bur yerdə çox olmuşam... 1970-ci ildə - mən bir il idi ki, Azərbaycana rəhbər seçilmişdim – biz böyük bir nümayəndə heyəti ilə Qazaxıstana getdik... Bir gün axşam gəldik yemək yeməyə. Bilirsiniz ki, Qazaxıstanda at əti ən mötəbər yeməklərdən biridir. At ətindən mən yedim. Dedim ki, Rəşid, sən də ye. Dedi bu nədir? Dedim ki, bu çox gözəl quzu ətidir. Rəşid böyük həvəslə götürüb yedi. Qurtarıb ayağa duranda dedim: Rəşid, bildin ki, sən

[81] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 36. – Bakı, Azərnəşr, - 2011.- s. 284-285.

nə yedin? Dedi yox, sən dedin ki, quzu ətidir. Dedim ki, sən at əti yemisən. O çox pərişan oldu, birtəhər oldu... Yəni bax, bu millilik də onda var idi. Öz millətinə xas olmayan bir şeyi, yemək də olanda, o, qəbul edə bilmirdi."[82]

Heydər Əliyevin klassik irsə göstərdiyi əsas uzaqgörən məqsədlərindən biri də bu irsin daim yaşaması, gələcək nəsillərin xatirindən çıxmaması, vətənin sosial-iqtisadi-mədəni inkişafına zaman-zaman öz sanballı töhfələrini verməklə yaşarılığını təmin etməsidir. Bunu nəzərdə tutan Ulu Öndər deyirdi:

"“Arşın mal alan” Azərbaycan mədəniyyəti tarixinin ən böyük nailiyyətlərindən biridir. Ona görə də o film yaşamalıdır. O film yaşamalıdır ki, Üzeyir Hacıbəyovun nə qədər böyük bir insan olduğunu gələcək nəsillər də görsün. Rza Təhmasibin nə qədər böyük rejissor olduğunu görsün. Rəşid Behbudovun nə qədər istedadlı müğənni olduğunu gələcək nəsillər görsün. Biz mütləq bunu etməliyik. Biz bunların hamısını görmüşük. Amma gələcək nəsillər haqqında düşünmək lazımdır. Mütləq düşünmək lazımdır."[83]

Ümummilli Liderin çox sevdiyi, sənətini yüksək qiymətləndirdiyi və daim qayğı göstərərək qanadının altında saxladığı dünya şöhrətli azərbaycanlı müğənnilərdən birincisi, şübhəsiz ki, Müslüm Maqomayev olmuşdur.

---

[82] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 36. – Bakı, Azərnəşr, - 2011.- s. 289-290.
[83] Yenə orada, s. 287.

Müsavat qəzetinin 2017-ci il saylarından birində dərc olunmuş məqalədə oxuyuruq:

“Suyu süzülə-süzülə Bakıya qayıdan müğənninin (Müslüm Maqomayevin – T.K.) başağrısı tezliklə yerli partiya rəhbərliyinə, şəxsən Heydər Əliyevə gəlib çatır. Partiya bonzaları – yəni rəhbər işçilər təklifi qəbul edirlər əvvəlcə. Tezbazar istəyirlər hətta Müslümə təzə qondarma bir ad da versinlər. Müzakirəyə Heydər Əliyev qarışanda vəziyyət kökündən dəyişir:

“Bizim müsəlmanlar… siz dediyiniz kimi, “müslüm”lər, görünür, xaricdəkilərdən dəfələrlə ağıllı, istedadlıdırlar. Opera, estradada ən tanınmış Avropa sənətkarını belə yerində otuzdurarlar. Afişalardakı “Müslüm” adını görən bütün müsəlmanlar Maqomayevi özününkü bilib dərhal bilet alacaq bu konsertlərə. Bizdəki xalqlar dostluğuna heyran qalacaq, inanın”.”[84]

“Komsomolskaya pravda”da dərc olunmuş geniş bir materialda Müslüm Maqomayevin uzun illər qayğı və diqqət gördüyü Heydər Əliyevlə sıx dostluq münasibətlərində olması, sonuncunun 2003-cü ildə vəfat etməsini çox ağrılı qəbul etməsi və bu səbəbdən ölənə qədər bir daha səhnəyə çıxmaması, guşənişin həyat keçirməsi etiraf olunur.[85]

[84] H.Herisçi. Müslüm Maqomayev xaricə buraxılmayanda Heydər Əliyev nə edib // Musavat. – 2017.- 3 avqust.
[85] Л.Захаров. Муслим Магомаева любили главные люди страны// Комсомольская правда. – 2018.- 27 октября.

Məhz Azərbaycanın rəhbəri Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində Müslüm Maqomayevə cəmi 29 yaşında Azərbaycanın Xalq artisti adı verilmiş və Ulu Öndərin təkidi ilə cəmi iki il sonra bu ad SSRİ səviyyəsində təsdiq edilərək Azərbaycan müğənnisi imperiyanın ən gənc Xalq artisti olmuşdu. Əlbəttə, bu uğura ancaq Heydər Əliyevin fenomenal şəxsiyyətinin gücü, istedadlı vətən övladlarına qarşı tükənməz məhəbbəti və qayğısı, imperiyanın şovinist ideoloqları ilə fasiləsiz mübarizəsi sayəsində nail olmaq mümkün idi.

Görkəmli müğənninin Bakıda Respublika sarayında 17 oktyabr 1997-ci ildə keçirilən 55 illik yubiley gecəsində geniş çıxış edən Ümummilli Lider sözünə belə başlamışdı:

“Biz bu gün burada Azərbaycanın zəngin mədəniyyətinin ən gözəl nümunələrindən, ən gözəl şaxələrindən biri olan Müslüm Maqomayevin yaradıcılığı ilə, onun mahnıları, əsərləri ilə yenidən görüşdük. Bu, xalqımızın, ölkəmizin həyatında əlamətdar hadisədir. Çünki Müslüm Maqomayev 35 ildir ki, öz sənəti, istedadı, gözəl səsi ilə Azərbaycan musiqisinin, mədəniyyətinin inkişaf etdirilməsində görkəmli xidmətlər göstərib, Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymağa çalışıbdır və bu sahədə də çox gözəl nailiyyətlər əldə edibdir.”[86]

---

[86] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 354.

Göründüyü kimi, həmişə olduğu üzrə, Ümummilli Lider Azərbaycan xalqının dahi şəxsiyyətlərinin, klassiklərin böyüklüyünü onların öz xalqına, öz vətəninə xidmət meyarı ilə ölçür. Şübhəsiz ki, bu da, yuxarıda dəfələrlə qeyd etdiyimiz kimi, Ulu Öndərin Azərbaycana sonsuz məhəbbətindən, inamından və milli təəssübkeşliyindən irəli gəlir.

Eyni fikrini Ümummilli Lider daha sonra belə inkişaf etdirərək deyir:

"Bəli, Müslüm həqiqətən Allahın istedad bəxş etdiyi, çox gözəl, bənzərsiz səsi, incəsənətə, mahnıya, musiqiyə bağlı olan insandır. Əks halda o, bizim bütün bu illər ərzində tanıdığımız kimi ola bilməzdi. Ancaq eyni zamanda Müslüm bütün bu fitri keyfiyyətləri ilə yanaşı, Bakının, Azərbaycanın musiqi, incəsənət, mədəni mühitində idi." [87]

Bu mühitin özünün hansı fundamental əsaslar üzərində formalaşdığını bir incəsənət nəzəriyyəçisi kimi xarakterizə edən Heydər Əliyev tarixə ekskurs etməklə öz dərin fikirlərini əsaslandırır:

"Əsrimizin (XX əsr nəzərdə tutulur – T.K.) əvvəlində musiqidəki, yüksək incəsənətdəki mühit məhz böyük Üzeyir Hacıbəyovun və böyük Müslüm Maqomayevin yaradıcılıqları sayəsində çox güclü şəkildə özünü göstərirdi. Onlar gözəl məktəb yaratmışlar. Üzeyir Hacıbəyo-

[87] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 356.

vun yaratdığı Azərbaycan Dövlət Konservatoriyasını götürək, - bizim musiqiçilərimizin, bəstəkarlarımızın, incəsənətimizin görkəmli xadimlərinin böyük bir nəsili buradan keçmişlər və bütün əsr (XX əsr – T.K.) ərzində Azərbaycanı sevindirirlər, Azərbaycan xalqının musiqidə, incəsənətdə nəyə qadir olduğunu nümayiş etdirirlər."[88]

Bəli, bu abzasdakı açar sözlər məhz "Azərbaycanın sevinci", "Azərbaycan xalqının incəsənətdəki qüdrəti"dir və bu da əlamətdardır ki, bu "sevinci", bu "qüdrəti" Ümummilli Lider vətənimizdəki 30 ildən artıq sürən bütün titanik fəaliyyəti dövründə Azərbaycanın bütün sosial-humanist-iqtisadi sahələrində axtarmış və böyük sevinc hissi ilə tapmış, bir çoxlarını isə məhz öz çoxşaxəli dühası sayəsində özü yaratmış, gələcək inkişaf perspektivlərinin möhkəm bünövrəsini qoymuşdur.

Müslüm Maqomayevin dünya şöhrətli bir sənətkar kimi yetişməsində xidməti olan klassiklərin adlarını hörmət və məhəbbətlə xatırlayan Ulu Öndər bunu məhz klassik irsin kəsilməzliyi, ənənələrin yaşarılığı kimi izah edir, eyni zamanda gələcək perspektivlərə də işıq salmış olur: "Üzeyir Hacıbəyov, Əbdülmüslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi, Rəşid Behbudov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Rauf Hacıyev, indi burada bizimlə bir yerdə olan Tofiq Quliyev və bir çox başqaları – məhz onlar və

[88] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 356.

onların silahdaşları Azərbaycanda bu gözəl musiqi mühitini, bu gözəl incəsənət mühitini yaratmışlar. Otuzuncu, qırxıncı, əllinci illərin və sonrakı illərin Azərbaycanı həqiqətən bununla məşhur idi. Bizim əzizimiz Müslüm də bax, bu mühitdə doğulmuş, boya-başa çatmış və belə böyük müğənni, böyük musiqiçi və *böyük vətəndaş* (seçmə bizimdir – T.K.) olmuşdur."[89]

"BÖYÜK VƏTƏNDAŞ"! Heydər Əliyevin klassik irsin bütün nümayəndələrində görmək istədiyi və gördüyü başlıca ipostas məhz bu idi və o özü də bütün yönləri ilə bu yüksək tələbata cavab verən BÖYÜK VƏTƏNDAŞ, BÖYÜK AZƏRBAYCANLI idi! "İdi" niyə?

Heydər Əliyev Azərbaycan xalqına qoyub getdiyi böyük klassik irslə bu gün də BÖYÜK VƏTƏNDAŞ, BÖYÜK AZƏRBAYCANLI olaraq qalır və yüzillər keçsə də qalmaqda davam edəcəkdir!

Bu dərin mənalı, proqram xarakterli çıxışında Heydər Əliyev klassik irsin başlıca xüsusiyyətlərindən biri kimi, həm də onun gələcəyə yönəlik olması, bu günün problemlərini həll etməklə kifayətlənməməsi, xalqın daha azad, daha firavan yaşaması üçün yollar göstərməsi, müəyyən yarıörtülü işarələr vurması, ağrılı problemlərin həllinə gedən yolları açıqlamasında görürdü. Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısını Ulu Öndər məhz bu kontekstdə təhlil edərək deyirdi: "Bilirsiniz,

[89] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 356-357.

böyük incəsənət ustaları bəzən cəmi bir əsər yaradaraq tarixi şəxsiyyətə çevrilirlər. Əgər Müslümün heç nəyi olmasaydı da, mənim fikrimcə o, təkcə "Azərbaycan" mahnısına görə ən yüksək hörmətə, ən böyük ehtirama layiqdir... Mənə elə gəlir ki, Müslüm Maqomayev bizim gözəl şairimiz Nəbi Xəzri ilə birlikdə bu mahnını yazanda onlar yəqin ki, *gələcəyə baxmışlar* (seçmə bizimdir – T.K.), çünki bu mahnı həqiqətən azad, müstəqil Azərbaycanın himni kimi səslənir."[90]

Təkcə Azərbaycan Respublikasının deyil, bütün dünya Azərbaycanlılarının Prezidenti olmuş Ümummilli Lider Vətənin Güneyinə-Quzeyinə fərq qoymadan mədəniyyətimizə xidmət etməklə xalqımızı bütün dünyada tanıdan sənətkarlara da böyük diqqət və qayğı göstərmiş, onların xidmətini yüksək qiymətləndirmişdir. Bu baxımdan məşhur güneyli müğənni Yaqub Zurufçunun sənətinə verdiyi yüksək qiymət çox əlamətdardır.

Ümummilli Lider Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərində müalicə alarkən Yaqub Zurufçu onun yanına getmiş və həmin görüşün təəssüratlarını onlar 28 iyul 1999-cu ildə Bakıda ətraflı söhbət zamanı məmnuniyyətlə xatırlamış, xoş duyğularla bölüşmüşdülər.

Söhbətin əvvəlində maraq doğuran cəhətlərdən biri də Yaqub Zurufçunun etiraf etdiyi kimi, xaricdə yaşayan

[90] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 12. – Bakı, Azərnəşr, - 2004.- s. 357-358.

Azərbaycanlılar arasında Heydər Əliyevin böyük hörmət və məhəbbətə malik olduğunu xüsusi qeyd etməsidir.

"Cənab Prezident, çox sağ olun ki, Klivlenddə mənə çox böyük diqqət göstərdiniz. Mən qərara aldım ki, Bakıya gəlib Sizinlə bir daha görüşüm. Sizə öz məhəbbətimi bildirim. Kaliforniya ştatında ən azı 300-400 min azərbaycanlı yaşayır. Onlar hamısı Sizinlə görüşüm barədə çəkdiyim videokasetə çox böyük maraqla tamaşa etdilər. Onlar Sizin söhbətlərinizə qulaq asmağa, Sizinlə görüşlərdən bəhs edən videokasetlərə baxmağa həmişə böyük maraq göstərirlər. Onlar istəyirlər ki, Sizin söhbətlərinizi tez-tez eşitsinlər, görsünlər. Azərbaycandakı vəziyyət haqqında geniş məlumat əldə etsinlər."[91]

Bu sözlərin cavabında Heydər Əliyevin səmimi ürək sözləri, əlbəttə, təkcə müğənni Yaqub Zurufçuya deyil, xaricdə yaşayan, ancaq ürəyi Vətən, millət eşqi ilə döyünən bütün soydaşlarımıza aid edilə bilər:

"Mən sənin sənətini çox sevirəm. Bu da təbiidir, Azərbaycanda səni çoxları, bəlkə də hamı sevir. Çünki sən Azərbaycanın ağır illərində öz sənətinlə xalqımıza çox xeyir vermisən. Ona görə də səni Azərbaycanda sevirlər. Mən də səni çox sevirəm."[92]

Öncə gördüyümüz kimi, Heydər Əliyev istedadlı sənətkarların fəaliyyətinin çöxşaxəliliyindən həmişə sə-

[91] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 21. – Bakı, Azərnəşr, - 2007.- s. 78-79.
[92] Yenə orada, s. 79.

mərəli istifadə etməklə, onların vətənə xidmətini də bu yöndə təşkil etməyə üstünlük vermişdir. Yaqub Zurufçunun da xalq arasında yüksək populyarlığı onu təkcə bir müğənni kimi deyil, həm də xalq elçisi kimi görməyə Ulu Öndərə imkan vermişdir:

“Mənim arzum nədir? Arzum budur ki, azərbaycanlılar harada olurlarsa-olsunlar, onlarda milli hiss daha da çox oyansın. Sizin də, bizim hamımızın da borcu ondan ibarətdir ki, Azərbaycandan kənarda yaşayan azərbaycanlıların milli hissiyyatını oyadaq. Nəinki təkcə oyadaq ki, onlar yuxudan oyansınlar, həm də onlar güclənsinlər. Bu millilik bizi birliyə gətirir, yaxınlaşdırır. Bu millilik dövlətimizin əsasını yaradıbdır.

Buna görə də xahiş edirəm, sən mənim bu sözlərimi televiziya vasitəsilə çatdırasan. Heç olmasa Kaliforniyada yaşayan azərbaycanlılar qoy məni eşitsinlər, mənim bu sözlərimi eşitsinlər. Mən arzu edirəm ki, onlar Azərbaycana gəlsinlər, Azərbaycanı görsünlər... Azərbaycan bütün beynəlxalq təşkilatlarda öz mövqeyini göstərir. Azərbaycana hörmət, ehtiram vardır. Bunlar hamısı hər bir azərbaycanlını ruhlandırmalıdır, hər bir azərbaycanlıda milli hissləri daha da gücləndirməlidir. Mən xahiş edirəm bunları çatdırasınız.”[93]

Hələ orta məktəbdə oxuduğu illərdən incəsənətin rəssamlıq, heykəltəraşlıq, memarlıq kimi növlərinə xüsu-

[93] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 21. – Bakı, Azərnəşr, - 2007.- s. 99-100.

si həvəs göstərən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə də bu sahələrə xüsusi maraq göstərmiş, özünün dərin diqqət və qayğısı ilə əhatə etmişdir.

Uşaq vaxtı kölgəsində böyüdüyü, rəhbərlik dövründə isə "kölgəsini" saldığı Naxçıvandakı Möminə Xatun türbəsi Azərbaycan memarlıq tarixinin bu cür möhtəşəm abidələrindən biridir. 1999-cu ildə Naxçıvana səfəri zamanı abidəni bir daha ziyarət edən Ümummilli Lider 70 il əvvəlki xatirələrinə qayıdaraq bu gözəl əsərə öz məhəbbətini belə ifadə edirdi:

"Yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim. Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istəyirdim. Onda memar nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məsələn, Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Möminə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkilmiş çox gözəl şəkillərim vardı."[94]

Doğrusu, elə biz də təəssüf edirik, çünki Heydər Əliyev dühasının və istedadının daha bir yönünə işıq salacaq belə qiymətli bəlgələrin itib-batması, günümüzə

[94] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 267.

gəlib çatmaması bu gün heydərəliyevşünaslığın bütöv şəkildə tədqiq edilməsinə az da olsa maneə törətməkdədir. Yaxşı ki, onlardan çox az bir qismi bizə gəlib çatmışdır.

Möminə Xatun türbəsi kimi qlobal əhəmiyyətli bir abidənin nəinki dünyada layiqincə tanıdılmaması, hətta öz xalqımızın belə onun tarixinə kifayət qədər bələd olmaması, Vətən sevgisini hər şeydən uca tutan bir ziyalı kimi Heydər Əliyevi incidir və o bu incikliyini burada da dilə gətirməkdən çəkinmir. Bunu nəzərdə tutan Ümummilli Lider ürək ağrısı ilə deyirdi:

"...Məni incidən odur ki, bizim xalqımız öz tarixini, mədəniyyətini – zəngin tarixini, zəngin mədəniyyətini, zəngin tarixi köklərini keçən əsrlərdə də, ondan sonrakı dövrdə də, indi, XX əsrdə də, birincisi, öz xalqına göstərə bilməyib, ikincisi də dünyaya göstərə bilməyibdir."[95]

Ulu Öndərin klassik irs haqqında fikirlərini, mülahizə və ideyalarını araşdırdıqca görürsən ki, o hər hansı bir abidə haqqında danışarkən təkcə həmin əsərin və ya hadisənin daxil olduğu dar çərçivə ilə kifayətlənmir, onun qaynaqlarına enir, onun haqqında yazılmış elmi əsərlərə söykənməklə gerçək tarixinin üzə çıxarılmasına, beləliklə də istər regional, istərsə də qlobal səviyyədə obyektiv təqdim edilməsinə xüsusi diqqət ayırır. Möminə Xatun türbəsini ziyarəti zamanı söylədiyi nitq də bu baxımdan istisna təşkil etmir. Ümummilli Lider bu abidənin

[95] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 268.

yarandığı dövr haqqında ən sanballı tarixi əsər olan akademik Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136-1225)" monoqrafiyasına çox yüksək qiymət verərək onun orta əsrlər tarixşünaslığımız üçün müstəsna əhəmiyyətini xüsusi vurğulayır:

"Sizə düzünü deyim ki, Atabəylər dövləti haqqındakı məlumatlarımın hamısı Ziya Bünyadovun kitablarından aldığım məlumatlardır. Ondan əvvəl bunu eşitmişdim, amma məlumatım yox idi. Əgər mənim məlumatım yox idisə, demək digərlərinin məlumatı heç yox idi. Ona görə bu gün biz mərhum Ziya Bünyadova, böyük alimimizə bir daha, bir daha minnətdarlığımızı bildirməliyik... Mən bu gün buradan Azərbaycanın tarixçilərinə, Elmlər Akademiyasına öz göstərişlərimi verirəm: tarixçilərimiz Ziya Bünyadov tarixçilik məktəbi – Azərbaycanın qədim tarixi, orta əsrlər tarixi sahəsində onun kimi fəaliyyət göstərsinlər və belə dəyərli əsərlər yaratsınlar."[96]

Əlbəttə, özü də tarixçilik ixtisası üzrə ali təhsil almış Heydər Əliyev obyektiv tarixin bərpa edilməsinin necə çətin, eyni zamanda şərəfli bir iş olduğunu, təkcə konkret xalqın deyil, bütövlükdə bəşəriyyət tarixinin düzgün, qərəzsiz işıqlandırılması üçün necə müstəsna əhəmiyyət daşıdığını çox gözəl bilirdi və buna görə də Elmlər Akademiyasının tarixçi alimlərinə bu dərəcədə məsul tapşırıqlar, tövsiyələr verirdi.

---

[96] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 268-269.

Abidə haqqında fikirlərini davam etdirən Ümummilli Lider ilk növbədə onun memarlıq incisi kimi necə böyük dəyərə malik olmasına diqqəti cəlb edərək demişdir:

"Əlbəttə, bu abidənin qiyməti yoxdur. Məsələn, çox vaxt, elə bu gün də bunu gözəl memarlıq abidəsi kimi təqdim edirlər. Bu təbiidir, doğrudan da belədir. Dağılanlar dağılıb, amma qalanlar içərisində Möminə Xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da böyük memarlıq məktəbi olduğunu göstərir... Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, Şərq aləminin böyük bir hissəsində onun memarlıq üslubu, memarlıq məktəbi davam edib, böyük əsərlər yaradıbdır."[97]

Ancaq yuxarıda dəfələrlə gördüyümüz kimi, hər hansı klassik irs abidəsi özlüyündə nə qədər gözəl olsa belə, Ümummilli Lider onun ən böyük gözəlliyini çağdaş dövrdəki əhəmiyyəti ilə müəyyənləşdirir və elə beləcə də onun dəyərini qiymətləndirir:

"Ancaq hesab edirəm ki, bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə də daha böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasay-

[97] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 269.

dı, onlar bu cür abidənin yaradılması üçün qərar qəbul edə bilərdilərmi?”[98]

Əlbəttə, özü də bəşər tarixinin ən böyük dövlət xadimlərindən biri olan Heydər Əliyev, dövlətçiliyin və mədəni inkişafın bir-biri ilə necə sıx və dərindən bağlı olduğunu çox gözəl bilir və bu barədəki dürüst fikirlərini sadə bir dillə ifadə edirdi. Ulu Öndər bu barədəki fikirlərini daha da inkişaf etdirərək çağdaş dövr ilə müqayisələr səviyyəsində orta əsrlər Azərbaycan dövlətçiliyinə bir daha yüksək qiymət vermiş olur:

“Elə XX əsri götürün. Məsələn, böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, çünki imkanları yoxdur. Amma Atabəylər həm imkanlı olublar, həm də tarixə, gələcəyə böyük irs qoyublar. O yazı da təsadüfi deyildir (Möminə Xatun türbəsinin qurşağındakı “Biz gedəcəyik, dünya duracaq. Biz öləcəyik, bu yadigar qalacaq” yazısı nəzərdə tutulur – T.K.). Onu bizim üçün yazıblar. Bəli, bizim üçün yazıblar, gələcək nəsillər üçün yazıblar.”[99]

Atabəylər dövləti bir Azərbaycan-Türk dövləti idi və əlbəttə, bu məqamda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ilk epik əsəri olan “Sirlər xəzinəsi” poemasındakı “Sultan Səncər və qarı” hekayətin-

[98] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 270.
[99] Yenə orada.

də qarının dili ilə Türk dövlətləri haqqında dediyi beyti yada salmaya bilmirik:

*Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,*
*Tutmuşdu məmləkəti ədaləti, şöhrəti.*

Nəzərə alsaq ki, Nizami özü də Möminə xatun türbəsinin tikildiyi dövrdə yaşayıb-yaratmışdı, əminliklə demək olar ki, dahi şair "Türk dövləti" deyərkən məhz regionun ən qüvvətli və çiçəklənən dövləti olmuş Atabəylər dövlətini nəzərdə tutmuşdur.

Abidələrlə bağlı klassik irsə Heydər Əliyevin qayğısı və diqqəti bir də onların bərpasında özünü göstərir. O da simvolikdir ki, Naxçıvanda olarkən istər Möminə Xatun, istərsə də Qarabağlar türbəsinin bərpasını və təmirini Ulu Öndər o dövrdə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti olan oğlu, indi Respublikamızın Prezidenti İlham Əliyevə tapşırır. O İlham Əliyevə ki, 4 ildən sonra: "Mən ona özüm qədər inanıram!" deyəcək və canından artıq sevdiyi Azərbaycanın taleyini möhkəm, qüvvətli, etibarlı, ən başlıcası isə, Azərbaycanın çoxminillik tarixində müstəsna rol oynayacaq müzəffər əllərə tapşıracaqdı:

"İlham, bu iş (Möminə Xatun və Qarabağlar türbələrinin bərpası və təmiri – T.K.) sənə həvalə olunur. Mən çox məmnunam ki, siz belə təşəbbüs göstərmisiniz. Bu məsələni öz əlinizə götürün. Özün bu işlə məşğul ol, bü-

tün layihələrə bax. Nə qədər vəsait lazımsa, Dövlət Neft Şirkəti ayıra, təmin edə bilər.” [100]

Azərbaycanın müxtəlif yerlərindəki tarixi abidələrin də bərpasına, təmirinə, qorunmasına, gələcək nəsillərə adekvat şəkildə çatdırılmasına, eləcə də dünyaya tanıdılmasına eyni dərəcədə diqqət göstərən Ümummilli Liderin bu qayğısını 2002-ci ildə Şəkiyə səfəri zamanı Şəki xanlarının sarayını ziyarət edərkən sarayın direktoru da minnətdarlıqla xatırlatmışdı:

“Cənab Prezident, bu qədim abidə (Şəki xanlarının sarayı – T.K.) XVIII əsrdə tikilmiş, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən, iki tərəfdən çayla əhatə edilmiş Şəki xanlarının sarayı bərpa olunur. 2004-cü ilin birinci yarısında başa çatacaq bərpa işlərini Almaniya şirkəti həyata keçirir. Şəkidə tarixi abidələr çoxdur, onlar dövlət tərəfindən qorunur, mühafizə olunur.

Cənab Prezident, bu tarixi abidələrə ikinci ömürü verən Sizsiniz. Bütün tarixi abidələrin bərpası üçün sərəncamlar vermisiniz. Alban məbədi, Mirzə Fətəli Axundovun ev muzeyi bərpa edildi, Sabit Rəhmanın ev muzeyi yaradıldı. Sizin bu xidmətiniz danılmazdır. 1999-cu ildə Sizin hakimiyyətə gəlməyinizin 30 illiyi ilə əlaqədar keçirilən tədbirdə demişdiniz ki, Şəkidə vəziyyət bundan sonra daha da yaxşı olacaqdır. Bu həqiqətdir, çünki Res-

---

[100] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 271.

publikamız kimi, Şəki də günbəgün inkişaf edir, gözəlləşir. Bu gün rayonumuzda əsil toy-bayramdır."[101]

***

Aydınıdır ki, Heydər Əliyev kimi ensiklopedik zəkanın interpretasiyasında klassik irs təkcə qədim dövrdə və orta əsrlərdə yaranmış, mədəni həyatın ən müxtəlif sahələrini əhatə edən, öz janrında yüzillər boyu örnək olan əsərləri nəzərdə tutmur, həm də çağdaş klassikanı, yəni öz janrında örnək ola biləcək əsərləri, yarandığı dövrdən və şəraitdən asılı olmayaraq əhatə edir. Bu baxımdan Ümummilli Liderin klassik kino sənətinə verdiyi qiymət də maraq doğurur və Ulu Öndərin bu sahədəki dərin bilikləri qarşısında səmimi bir hörmət, fenomenal zəka qarşısında heyranlıq doğurmaya bilmir.

1998-ci ilin may ayının 2-də Respublika sarayında dünya kinosunun 100 illiyi münasibətilə Bakıda keçirilən "Festivallar festivalı"nın açılışına həsr olunmuş təntənəli gecədəki dərin məzmunlu nitqi bu baxımdan zəngin material verərək maraqlı mülahizələri ilə seçilir. Əlbəttə, bu da səbəbsiz deyildi və bir çoxları üçün sirr olan bu səbəbi Ümummilli Lider çıxışında özü açaraq kinematoqrafla sıx bağlılığını bu cür izah edir:

---

[101] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 42. – Bakı, Azərnəşr, - 2012.- s. 272.

“Burada bəlkə kiminsə yadındadır, mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Kinematoqrafiya Komitəsinə kuratorluq edirdim. Yermaş (SSRİ Kinematoqrafiya Komitəsinin sədri Filip Timofeyeviç Yermaş – T.K.) yanıma tez-tez gələrdi, biz bir çox məsələləri həll edərdik. Sovet kinematoqrafiyasının inkişafına əhəmiyyətli yardım göstərmək qərara alındı. Siyasi Büroda da, Nazirlər Sovetində də bu sahəyə mən başçılıq etdiyimə görə komissiyaya başçılıq etmək, bu məsələ ilə məşğul olmaq mənə tapşırılmışdı.”[102]

Doğrudan da, ensiklopedik zəka! Və bu zəkanın formalaşması sadəcə bir Allah vergisinin nəticəsi deyil, gərgin əməyin, dərin mütaliənin, məşğul olduğu işin bütün incəliklərinə vaqif olmaq ehtirasının nəticəsi olmuşdur ki, özü də bunu belə etiraf edir:

“Mən isə hər şeylə maraqlanan insanam, nə isə bir iş görmək, nə isə hazırlamaq üçün çox diqqətlə məsələnin kökünə varmaq lazım idi, kinematoqrafı bilməyimdən əlavə, onun vəziyyətini, imkanlarını və sairəni də öyrənməli idim. Mən kinematoqrafiyanın ən böyük xadimləri ilə çoxlu görüşlər keçirdim və hər şeyi – sənəd, qərar layihəsi hazırladıq. Yermaşa dedim ki, siz bizim kinematoqrafın ən görkəmli adamlarını yanınıza çağırın, mən də gələcəyəm. Bu, 84-cü il idi. Biz bir neçə saat söhbət etdik... Sonra biz o dövr üçün çox sanballı sənəd, Sovetlər

[102] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 252.

İttifaqı Kinematoqrafiyasının inkişaf proqramını yaratdıq."[103]

Öhdəsinə düşən hər bir işi sona qədər titanik məsuliyyət və tələbkarlıqla yerinə yetirən Heydər Əliyev, əlbəttə ki, özünü həmin işin ən böyük mütəxəssislərindən biri saymasında yüz dəfə haqlı olardı, ancaq o yenə də özünəməxsus təvazökarlığından əl çəkməyərək, kinematoqrafla sadəcə bağlı olduğunu deməklə kifayətlənir: "Gördüyünüz kimi, mən kinematoqrafiya ilə bilavasitə bağlıyam. Ona görə də sizi sadəcə kino tamaşaçısı kimi ekrandan yox, praktiki fəaliyyətinizdən tanıyıram və sizə böyük hörmətlə yanaşıram. Bilirəm ki, kinematoqraf əməyi çox mürəkkəb, ağırdır. Ümumiyyətlə, artistin əməyi ağır zəhmətdir."[104]

***

Bütün dünya azərbaycanlılarının Prezidenti olan Heydər Əliyev, təbii ki, bütöv Azərbaycan haqqında da həmişə düşünmüş, ancaq ayıq bir siyasətçi kimi bu ideyanı ağına-bozuna baxmadan təbliğ etməmiş, zamanın və şəraitin müsaidə etməsini səbirlə gözləmişdir. Bu gün İranda gedən proseslər, Prezident İlham Əliyevin Cənubdakı soydaşlarımızın taleyi və sosial-siyasi vəziyyəti

[103] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 252-253.
[104] Yenə orada, s. 253.

üçün keçirdiyi narahatlıq, verdiyi bəyanatlar onu göstərir ki, Azərbaycanın bütövləşməsi prosesi artıq qısa bir zaman məsələsinə çevrilməkdədir.

25 il bundan öncə isə, Ümummilli Lider dahi şairimiz Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinə göndərdiyi təbrik məktubunda belə bir hadisənin gec-tez baş verəcəyinə yalnız eyham vura bilərdi və təbii ki, siyasi müdriklik göstərərək həmin eyhamı vurmuşdu.

O da siyasi ehtiyatdan irəli gəlir ki, Ümummilli Lider məktubuna, Məhəmmədhüseyn Şəhriyarın simasında Azərbaycan və İran xalqlarını birləşdirən mədəni tellərdən danışmaqla başlayır:

“Azərbaycan və İran xalqlarını birləşdirən tarixi, dini və mədəni tellər qədim zamanlardan mövcud olmuşdur. Əsrlər boyu xalqlarımız yanaşı yaşamış, eyni adət-ənənəyə malik olmuş, elm və mədəniyyət sahəsində dünya miqyasında dəyərləndirilən ölməz əsərlər yaratmışlar.”[105]

Daha sonra Ulu Öndər Orta yüzilliklərdə yaşayıb-yaratmış, dünya ədəbiyyatı xəzinəsinə solmaz incilər bəxş etmiş Azərbaycan və İran şairlərinin adlarını çəkərək onların yaradıcılığını, bu günümüz və gələcəyimiz üçün əhəmiyyətini yüksək qiymətləndirir:

“Ulu Şərqimizin bəşəriyyətə bəxş etdiyi Firdovsi, Xəyyam, Qətran Təbrizi, Xaqani, Nizami, Sədi, Nəsimi,

[105] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 184.

Hafiz, Xətai, Füzuli kimi nadir dühalarımızın, söz ustadlarımızın bizlər üçün qoyub getdikləri sənət inciləri tarix boyu insanların mənəviyyatının zənginləşməsi və təfəkkürünün yüksək inkişafına xidmət etmişdir."[106]

Göründüyü kimi, Ümummilli Lider 6 Azərbaycan klassikinin adını çəkdiyi halda, farslardan yalnız 4-ünün adını çəkir ki, bu da müəyyən eyhamlardan xali olmamalıdır, zənnimizcə!

Yenə də bu kontekstdə XX yüzillik Azərbaycan dramaturgiyasının klassikası sayıla biləcək Xalq şairi Səməd Vurğunun "Vaqif" dramından Azərbaycan şairi Vaqiflə İran şahı Qacarın arasındakı kəskin dialoq yada düşür. İran şahının istehza ilə:

*Ayağı çarıqlı kiçik bir ölkə*
*Böyük Firdovsilər yaratdı bəlkə?*

Replikasına Vaqifin verdiyi cavabla, Ümummilli Liderin təbrik məktubundakı sənətkarların say nisbətində bir yaxınlıq olmamış deyildir. Azərbaycan şairi İran şahının istehzasına qəzəblə cavab verir:

*Dayan! Bu bağçanın hər bir budağı*
*Üstündə min çiçək, min gül bitirmiş!*
*Sizin güldüyünüz çoban torpağı*
*Nizamilər, Füzulilər yetirmiş!*

[106] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 184.

Şəhriyarın yaradıcılığının qısa xarakteristikasını verərək qiymətləndirən Ulu Öndər onu "böyük vətənpərvər şair-filosofumuz" adlandırır ki, bu da Heydər Əliyevin siyasi üslubu baxımından maraq doğuran bir linqvistik yanaşma sayıla bilər.

"Böyük vətənpərvər şair-filosofumuz Məhəmməd Hüseyn Şəhriyar klassik irs və müasir həyatla bağlı bir sənətkar olmuşdur. O, böyük sənətkar, klassik-romantik poeziyanın mütərəqqi ənənələri ilə bədii ünsiyyətini qoruyaraq, dövrünün novator sənətkarı kimi çağdaş şeirin inkişafında müstəsna rol oynayan yeni ədəbi məktəbin yaranmasına nail olmuşdur."[107]

Klassik irsimizin ən qiymətli xəzinələrindən biri olan Məhəmməd Hüseyn Şəhriyar yaradıcılığının xalqımız, Vətənimiz, tariximiz, bu günümüz. Gələcəyimiz üçün ən böyük əhəmiyyətini, təbii ki, Ümummilli Lider onun sosial-estetik siqlətində görür və bu cür də qiymətləndirir:

"Şəhriyar poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, dövrün, zamanın kəskin ictimai təzadlarını, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə bütün dünyaya car çəkmişdir. Cəmiyyətin inkişafına əngəl olan maneələri kəskin tənqid etdiyi kimi, qabaqcıl

[107] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 184.

ictimai qüvvələri, zəhmətkeşlərin həyat və məişətini, onların ehtiyac və arzularını da böyük məhəbbətlə təsvir və tərənnüm etmişdir. Böyük lirika ustası Şəhriyarın əsərləri öz ideya zənginliyi, bədii saflıq və səmimiyyəti ilə seçilmişdir."[108]

Məhəmməd Hüseyn Şəhriyar poeziyasının başlıca humanist keyfiyyətləri məhz Ulu Öndərin "dövrün, zamanın kəskin ictimai təzadlarını, şərin, mütləqiyyətin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini" sözlərində özünün dəqiq ifadəsini tapmışdır. Xüsusən, İranın müasir tarixinə, molla rejiminin antihumanist xarakterinə nəzər saldıqda, həm Şəhriyar poeziyasının müasirliyinə və aktuallığına, həm də bu poeziyanın müasir əhəmiyyətinə Heydər Əliyevin verdiyi qiymətin dəqiqliyinə şübhə yeri qalmır.

Ən başlıcası isə, bu qiymət təkcə İran istibdadını əhatə etməklə qalmır, qlobal xarakter daşıyaraq, zülm və zorakılıq, ədalətsizlik, qan-qada, od-alov, göz yaşları olan hər bir yer üçün müasirliyini və aktuallığını qoruyub saxlayır. Bunu dahi şairin öz sözləri ilə ifadə etsək:

*Göz yaşına baxan olsa, qan axmaz!*
*İnsan olan xəncər belinə taxmaz!*
*Amma heyif, kor tutduğun buraxmaz...*
*Behiştimiz cəhənnəm olmaqdadır,*
*Zilhiccəmiz məhərrəm olmaqdadır.*

[108] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 184-185.

Bəli, Tanrının insan üçün behişt kimi yaratdığı, hər cür nemətlə təmin etdiyi, bütün kainatın yaraşığı olan doğma Yer kürəmizi cəhənnəmə çevirən də məhz "tutduğunu buraxmayan korlar" deyilmi? Və bu mənəvi korlara qarşı mübarizənin önündə Nizami Gəncəvi kimi, İmadəddin Nəsimi kimi, Məhəmməd Füzuli kimi, Məhəmməd Hüseyn Şəhriyar kimi, Heydər Əliyev kimi nəhəng humanistlər sinələrini sipər edib "cəmiyyətin inkişafına əngəl olan maneələrə" qarşı cəsarət və fədakarlıqla vuruşmurlarmı?

Vuruşurlar! Dünən də vuruşublar, bu gün də vuruşurlar, sabah da vuruşacaqlar və nə qədər ki, Yer üzərindən şərin kökü qazılıb atılmayıb, bu müqəddəs döyüş, bu cihad davam edəcək!

Elə dahi Füzulinin məşhur qitəsindəki ciddi xəbərdarlığa əməl olunsaydı, bu gün bəşəriyyətin boyunu nüvə Damokl qılıncının hər an enə bilmək təhlükəsi qarşısında tir-tir əsməzdi:

*Ey müəllim, aləti-təzvirdir əşrarə elm,*
*Qılma əhli-məkrə təlimi-məarif, zinhar!*
*Hiylə üçün elm təlimin qılan müfsidlərə,*
*Qətli-am üçün verir cəlladə tiği-abidar.*
*Hər nə təzvir etsə əhli-cəhl, ona olmaz səbat,*
*Məkri-əhli-elmdir əsli-fəsadi-ruzigar*!

Azərbaycanın dahi mütəfəkkirinin uzaqgörənliyinə heyran olmamaq olmur. Doğrudan da, şərə, şeytana xid-

mət edən insanların elmi də bəşəriyyətə fəlakət gətirir genosidə, qətliama səbəb olur.

Elə buna görədir ki, Ümummilli Lider Azərbaycanın tarix boyu yetirdiyi böyük humanist şair və mütəfəkkirlərin irsinə müstəsna dərəcədə yüksək qiymət verir və onların bütün dünyada təbliğ edilməsinin böyük əhəmiyyətini dönə-dönə vurğulamaqdan yorulmurdu.

Şəhriyar və başqa klassiklərimizin xalq üçün, Vətən üçün, bütün bəşəriyyət üçün həmişəyaşar olmasına, ölməz ideyalarının bir-birini əvəz edən nəsillər arasında təbliğinə yüksək əhəmiyyət verən Ümummilli Lider bu cəhətdən sənət və elm adamlarının qarşısına da məsul vəzifələr qoyaraq deyir:

"Bugünkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın (Məhəmməd Hüseyn Şəhriyarın – T.K.) yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur."[109]

***

Əlbəttə, Heydər Əliyevin klassik irsə münasibətindən söhbət açarkən birinci növbədə onun Vətən məhəbbəti, Azərbaycan sevgisi, azərbaycanlı olması ilə fəxr etməsi yada düşür. Bütöv Azərbaycan – Ana Vətənin özü

---

[109] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 15. – Bakı, Azərnəşr, - 2005.- s. 185.

kimi, onun hər bir guşəsi də Heydər Əliyev üçün əziz idi, sevimli idi; özəlliklə, onun doğulub uşaqlıq və ilk gənclik illərini keçirdiyi Yavru Vətən – Naxçıvan Heydər Əliyevin ürəyində həmişə ən səmimi duyğuların oyanmasına səbəb olurdu. Respublikada ikinci dəfə hakimiyyətə qayıtmazdan öncə məhz Naxçıvan Ümummilli Liderə doğma balası kimi qucaq açmış, onu bir qala kimi xəbis niyyətli, xain kimsələrin fitnə-fəsadından qorumuşdu.

1999-cu ildə Naxçıvanın muxtariyyət əldə etməsinin 75 illik yubileyi qeyd edilərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən görüş zamanı Heydər Əliyev ata yurduna olan səmimi məhəbbətini gizlətməyərək, bu torpağa sevgisini bu cür ifadə edirdi: "...Naxçıvan haqqında mənim ürəyim o qədər doludur ki, nə qədər desəm də yenə də tükənməz. Mən ayın 12-də (1999-cu ilin oktyabr ayının – T.K.) bunu dedim, bu gün də deyirəm ki, Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün bir doğma vətən kimi əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman (1969-1983-cü illərdəki ilk rəhbərlik nəzərdə tutulur –T.K.) Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, bir yerdə çalışmağım, işləməyim olubdur."[110]

[110] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 273.

Onu da qeyd edək ki, Ümummilli Lider Naxçıvanda yaşadığı 1990-1993-cü illəri nahaq yerə xüsusi olaraq yada salmır. Əslində bu dövr Naxçıvan üçün taleyüklü bütöv bir epoxaya bərabər olmuşdur. Məsələ ondadır ki, Azərbaycanın azadlıq mübarizəsində tarixən müəyyən işlər görmüş Azərbaycan Xalq Cəbhəsi o dövrdə artıq xalqla əlaqəsini kəsərək özündən müştəbeh yarıanarxist bir təşkilata çevrilmişdi və əslində xalqa qarşı fəaliyyət göstərir, istədiyi "başı kəsməkdə" özünü suçlu bilmirdi.

Məşhur bir Çin rəvayətində deyilir ki, bir ölkəni əjdaha tutub insanlara zülm edirmiş. Qeyrətli bir gənc and içir ki, əjdahanı öldürüb xalqı onun zülmündən qurtaracaq. Ona deyirlər ki, ölkənin ən uca dağındakı mağarada müdrik bir qoca yaşayır, get ondan məsləhət al. Gənc gedib həmin qocanı tapır, əjdahanı öldürməyin yollarını ondan öyrənir. Qocanın verdiyi sehirli qılıncla əjdahanı ölümcül yaralayır. Son nəfəsində əjdaha acı-acı gülümsəyib ona qalib gəlmiş gəncə deyir: "Xoş gəldin, əjdaha!"

Xalq cəbhəsi də bunun kimi, guya xalqa zülm edən kommunist rejimini - əjdahanı devirib onun yerinə keçəndən sonra artıq özü də əjdahaya çevrilmişdi və əjdahanın Naxçıvandakı başı məhz o zaman Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyevin müdrik tədbirləri sayəsində kəsilmişdi.

Deməli, əgər Naxçıvan Heydər Əliyevi doğma balası kimi bağrına basıb əzizləmişdisə, Ümummilli Lider də bir sədaqətli övlad kimi borclu qalmamış, çətin gün-

lərdə Naxçıvanı nadan və xain insanların şərindən qurtara bilmişdi. Ancaq hansı əziyyətlərin, hansı streslərin bahasına qurtarmışdı, bütün bunları doğma yurdda bir daha yada salaraq deyirdi:

"Biz belə ağır günləri burada (Naxçıvanda – T.K.) yaşadıq. Ancaq sizinlə bir yerdə şərəflə yaşadıq. İndi təsəvvür edin, mənim kimi adam – 14 il Azərbaycana rəhbərlik etmiş, beş il Kremldə oturaraq dünyanın siyasəti ilə məşğul olmuş, ondan əvvəl 25 il Dövlət Təhlükəsizliyi Komitəsində ən yüksək vəzifələrdə işləmiş və təbiidir ki, bu vəzifələrə görə müvafiq şəraitlərdə yaşamış adam – gəlib düşdüm bura, ağır şəraitdə yaşadım. Bu mənim üçün bir problem olmadı. Amma bu nadanlarla rastlaşdım və bu nadanlar mənim üzümə qayıdırdı. Mən çağırıb onlara söz deyəndə, onlar az qalırdı məni təhqir etsinlər. Mən bunlara dözdüm və dözməli idim, ancaq bunlara heç kəs dözə bilməzdi. Mən dözürdüm, çünki bilirdim ki, bunların axırı yoxdur. Bilirdim ki, biz Naxçıvanı bu ağır günlərdən çıxarmaq üçün dözməliyik. Biz Naxçıvanı bu ağır günlərdən çıxardıq."[111]

Əlbəttə, aydındır ki, cəhalətə, nadanlığa, yekəxanalığa, tərbiyəsizliyə təkbaşına qalib gələ bilməzdi Heydər Əliyev, əgər Naxçıvan xalqının ona qarşı dərin hörməti, məhəbbəti, fədakarcasına dəstəyi olmasaydı. Bu hörmətin, məhəbbətin, sədaqətin, fədakarlığın ifadəsi kimi

[111] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 280.

Ümummilli Lider o zamankı hadisələrin maraqlı bir detalını yada salır:

Xalq cəbhəsinin nadan silahlıları Naxçıvanda hərbi çevriliş etmək istəyəndə Heydər Əliyev, özü dediyi kimi, Əbülfəz Elçibəyə, İsa Qəmbərova, Pənah Hüseynova dəfələrlə zəng edir ki, bunun qarşısını alsınlar. Təbii ki, onlar heç bir tədbir görmürlər, üstəlik də xəyanətə al atırlar ki, bunun da üstünü telefonçu qızlar açaraq Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi xəbərdar edirlər. Həmin çətin günləri yada salan Ümummilli Lider deyir:

“Mən indi bu həqiqəti deməliyəm. Mən həmin telefonçu qızların üzünü görməmişəm. Onlar mənə telefon edib ağlaya-ağlaya, göz yaşı ilə deyirdilər ki, biz qorxuruq, ola bilər bizi öldürsünlər. Amma sizə həqiqəti demək istəyirik. Siz Əbülfəz Elçibəylə danışandan sonra o, Xalq Cəbhəsinə (Naxçıvan şöbəsinə - T.K.) zəng edib deyir ki, möhkəm durun. Siz İsa Qəmbərovla danışandan sonra o götürüb zəng edir ki, möhkəm durun, axıra qədər durun, Heydər Əliyevi orada devirmək lazımdır.”[112]

Bəli, doğrudan da öz liderinə sadiq olan el gücü – qəhrəman babaların genetik-mənəvi kodlarla bizə yadigar qoyduğu ən böyük klassik irsdir və bu irsin sayəsində Heydər Əliyev əvvəlcə Naxçıvanda, sonra isə Bakıda nadanlara və xainlərə qalib gəlməyə müvəffəq olmuşdur. Gəlin, öz müqəddəs dilindən, öz müdrik sözlərini eşidək:

[112] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 281.

"1992-ci ilin oktyabr ayında onlar (Xalq Cəbhəsinin silahlıları – T.K.) burada (Naxçıvanda – T.K.) dövlət çevrilişinə yenə də cəhd göstərdilər. "Yenə" deyəndə mən onu ilk dəfə burada, sonra da Bakıda hiss etdim. Amma mənim çağırışımla xalq buraya toplaşdı və Muxtar respublikanın Daxili İşlər Nazirliyinin binasına soxulmuş Xalq Cəbhəsinin 200-dən artıq silahlı üzvünü xalqın gücü ilə oradan çıxara bildik. Onlar gedib televiziyanı da tutaraq oradan Naxçıvan əhalisinə məlumatlar vermişdilər ki, guya Naxçıvanda hakimiyyət onların əlindədir. Bu adamlar hətta bir PDM (piyadaların döyüş maşını – T.K.) aparıb televiziyanın həyətinə qoymuşdular. Biz xalqın gücü ilə onları oradan da çıxara bildik."[113]

Heydər Əliyev və Azərbaycan xalqı qarşılıqlı münasibətlərindən, bu iki qüvvənin bir-birindən güc almasından söhbət düşdüsə, Baba Vəziroğlunun məşhur şeirini xatırlamasaq, günah olar:

*Gözlərində açılır bu millətin səhəri,*
*Sənin adınla bağlı bu xalqın hər zəfəri.*
*Qədəmin dəyən yerdə səhralar da gül açır,*
*Gülüstana çevrilir yurdun kəndi, şəhəri.*

*Günəş doğur elə bil, harda çəkilir adın,*
*Dosta fəxarət gəlir, gözü kor olur yadın.*

[113] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 276.

*Azərbaycan deyəndə səni düşünürük biz,*
*Azadlığa inamı xalqa sən bağışladın.*

*Sən elə bir zirvəsən, küləklər neyləyəcək?*
*Dünənim, bu günümsən, səninlədir gələcək.*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*
*Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!*

*Sən bu çətin zamanda gücümüz, qüvvətimiz,*
*Sən bizim bu dünyada ən böyük sərvətimiz.*
*Millətin imzası var imzaların içində,*
*Sənə halaldır, halal ülvi məhəbbətimiz.*

Bəli, bütün ömrü, titanik fəaliyyəti boyu öz doğma xalqına arxalanan, ondan güc alan və öz növbəsində ona güc verən Ulu Öndər Heydər Əliyev, Naxçıvandakı nadanlara və xainlərə qarşı mübarizəsində də Vətənin ən böyük, əzəmətli klassik irsi olan XALQla birliyindən qürurla danışır, onun məhəbbətinə və hörmətinə layiq olduğu üçün fəxr edir:

“Mən bütün bunları ona görə xatırlayıram ki, biz burada birlikdə olmuşuq, çalışmışıq. O vaxt biz Naxçıvanın qorunması, yaşaması üçün bu salonda birlikdə tədbirlər görmüşük. Naxçıvan xalqı burada mənə böyük hörmət, qayğı, məhəbbət göstərib, ən ağır anlarda mənim dayağım olub, arxamda durubdur, mənimlə bir yerdə olub-

dur. Ona görə də biz işləmişik, mübarizə aparmışıq, qalib gəlmişik."[114]

Ümummilli Lider vətənsevər, yurdsevər bir övlad kimi o ağır illərin acı xatirələrini çözələdikcə babalardan bizə irs, əmanət qalmış Vətəni necə böyük çətinlik və fədakarlıqla xilas etməyin parlaq örnəyini görür, bu dahi siyasət və idarəçilik adamının diplomatik istedadına, klassik irsə söykənən tükənməz gücünə heyran qalmaya bilmirik:

"Görün Naxçıvan nə günə qalmışdı! Yenə də deyirəm, bir tərəfdən ermənilərin təcavüzü, bir tərəfdən Naxçıvanın blokada şəraiti, blokadaya görə iqtisadi çətinliklər, bir tərəfdən də onlar (Xalq Cəbhəsinin silahlıları – T.K.) burada avtomat çiyinlərində at oynadırdılar. Nə edək, durub bunlarla vuruşaqmı? Vuruşa bilmirdik və vuruşmaq da lazım deyildi. Başa salaqmı? Başa salmaq mümkün deyildi. Başa salmaq mümkün deyildi ki, axı siz Naxçıvanı təhlükəyə salırsınız." [115]

Bu sözləri oxuduqca Heydər Əliyev kimi nəhəng bir şəxsiyyətin, uzaqgörən siyasətçinin, yurdsevər bir övladın açıq-aşkar təhlükə qarşısında olan vətəni üçün hansı həyəcanları, hansı stresləri keçirdiyi sanki adamın gözləri önündə canlanır, özün də o həyəcana, stresə yoluxmaya bilmirsən:

---

[114] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 277.
[115] Yenə orada, s. 279.

"O vaxt (1990-1993-cü illərdə - T.K.) mənim üçün ən böyük fikir ondan ibarət idi ki, Dağlıq Qarabağda (2020-ci ilin 44 günlük müharibəsindən sonra Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi qərarı ilə bu adda inzibati-ərazi vahidi ləğv edilmişdir – T.K.) gedən müharibə buraya sirayət etməsin. Çünki müharibə buraya sirayət etsəydi, Naxçıvan dağılacaqdı."[116]

Xalq Cəbhəsinin "başına şahlıq quşu", çiyninə avtomat qonmuş qanmaz, yekəxana, tərbiyəsiz "Kamaz" sürücülərindən, montyorlarından fərqli olaraq, Ümummilli Lider ulu Tanrının ona bəxş etdiyi dahiyanə intuisiya ilə real təhlükəni görür və buna qarşı konkret tədbirlər hazırlayırdı. Bu yolda gecə-gündüz çalışmaqdan yorulmurdu, yorula bilməzdi – Ana Azərbaycanın bir parçası olan Yavru Naxçıvan dağılmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Şübhəsiz ki, bu yerdə Ulu Öndərin ən böyük silahdaşlarından biri – Xalq şairi Bəxtiyar Vahabzadənin məşhur "Gülüstan" poemasında göz yaşlarından boğula-boğula yazdığı ölməz misralar yada düşməyə bilmir:

*Qoy qalxsın ayağa ruhu Tomrisin,*
*Babəkin qılıncı parlasın yenə.*
*Onlar bu şərtlərə sözünü desin,*
*Zənciri kim vurdu şir biləyinə?*

[116] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 279.

*Hanı bu ellərin mərd oğulları?*
*Açın bərələri, açın yolları.*
*Bəs hanı bu əsrin öz Koroğlusu -*
*Qılınc Koroğlusu, söz Koroğlusu?*

*Babaların şanı, şərəfi, əlbət,*
*Bizə əmanətdir, böyük əmanət..*
*Yoxmu qanımızda xalqın qeyrəti?*
*Belə saxlayarlar bəs əmanəti?*

*Qoy ildırım çaxsın, titrəsin cahan!*
*Ürəklər qəzəbdən coşsun, partlasın.*
*Daim haqq yolunda qılınc qaldıran*
*İgid babaların goru çatlasın.*

*Qoy əysin başını vüqarlı dağlar,*
*Matəmi başlandı böyük bir elin.*
*Mərsiyə söyləsin axar bulaqlar,*
*Ağılar çağırsın bu gün qız, gəlin!..*

Xalq şairi Bəxtiyar Vahabzadə bu poemanı 1958-ci ildə yazıb. Azərbaycanın siyasət, idarəçilik, diplomatiya "Koroğlusu"nun gəlişinə 11 il, "qılınc Koroğlusu"nun gəlişinə isə 45 il, Müzəffər Ali Baş Komandan kimi "babalardan qalan əmanəti", irsi – intizarla azadlığını və xilasını gözləyən Vətəni qəbul edib qaytarmağına 62 il qalmışdı…

Azərbaycan xalqının, Azərbaycan ölkəsinin ən böyük tarixi şansıdır ki, "Gülüstan" poemasının yazılmasından qısa bir zaman keçdikdən sonra "Koroğlu"lar "nərilti-gurultu ilə" (Cəlil Məmmədquluzadə) gəldilər və babaların əmanətinə, ən dəyərli klassik irsimiz olan Vətənə sahib çıxıb, Xalq şairinin ritorik sualına qəti və kəskin cavab verdilər:

"Belə saxlayarlar, bax, əmanəti!"

Ancaq yenə qayıdaq 1999-cu ilə və Heydər Əliyevin hansı zülümlər bahasına Naxçıvanı dağılmaqdan necə qurtarmasının detallarına bir daha diqqət kəsilək. Axı bu bizim şərəf-şan tariximizdir və ən kiçik nüanslarını belə unutmağa haqqımız yoxdur – bu cür xain, nadan, tərbiyəsiz insanların bir daha əldə silah hakimiyyət ambisiyalarına, öz yekəxana iddialarını və şəxsi maraqlarını rəhbər tutaraq xalqa xəyanət etmələrinə yol verməmək üçün:

"Bilirsiniz ki, mən bu barədə (1990-cı illərin əvvəllərində Naxçıvanı dağılmaqdan xilas etmək barəsində - T.K.) bir neçə tədbir gördüm, Ermənistanın rəhbərləri ilə danışdım, gedib sərhəddə görüşlər keçirdim."[117]

Ümummilli Lideri ən çox yandıran odur ki, onun bu möhtəşəm fəaliyyəti "nadürüst, namərd" adamlar tərəfindən nəinki layiqli qiymətini almamış, əksinə, nə qədər acınacaqlı olsa da, Vətənə xəyanət adlandırılmışdı… Tarixi-siyasi korluğun bundan daha absurd örnəyini tapmaq

---

[117] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 279.

çox çətin məsələ olardı. Ümummilli Liderin yenə öz sözlərinə çevrilək:

“İndi nadürüst, namərd adamlar, o cümlədən elə biri bizim naxçıvanlı Rəsul Quliyev məni günahlandırır. Özü oğurladığı pulların üstündə oturub Amerikada kitab yazır. Bəli, yazır ki: “Heydər Əliyev Naxçıvanda ermənilərlə separat danışıqlar aparıb və Meqrinin zəbt olunmasına, Naxçıvanın müharibəyə qoşulmasına yol verməyibdir, beləliklə də xəyanət edib, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinin səbəbkarı olubdur.” Belə vicdansız adamlar çoxdur.”[118]

Ancaq o da var ki, haqq-ədalət əvvəl-axır qalib gəlir, necə deyərlər, haqq nazilir, üzülmür və o keşməkeşli illərdən keçən altı il ərzində bir vaxt dağılmaqdan xilas etdiyi Naxçıvanın inkişaf etməsini, xalqın rifah halının günü-gündən yaxşılaşmasını, Yavru Vətənin saatbasaat gözəlləşməsini görən Ümummilli Lider uşaq kimi sevinir, fərəhlənir və bu sevincini gizlətməyərək qaliblərə məxsus fəxrlə, vüqarla deyir:

“Bunu ona görə yadıma salıram ki, həmin evin (1990-1993-cü illərdə Ulu Öndərin Naxçıvanda yaşadığı ikiotaqlı mənzil nəzərdə tutulur – T.K.) altında mağaza var idi. Səhər durub görürdüm ki, - mən onda Ali Məclisin (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin – T.K.) sədri işləmirdim, - orada dalaşırlar, qışqırırlar. So-

[118] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 279.

ruşurdum, nə olub? Deyirdilər ki, növbədir, gözləyirlər, satışa ət gələcək, kimi alacaq, kimi ala bilməyəcəkdir. Siz bunları məndən yaxşı bilirsiniz. Amma mən bunları görmüşəm. İndi deyəndə ki, ət, süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalıb, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, - mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməni Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işlərə hamıdan qabaq nail oldu, Muxtar respublikanın o qara günləri qurtardı.

Mən indi Naxçıvana gəlmişəm, baxdıqca sevinirəm ki, son illərdə nə qədər gözəl işlər görülübdür, şəhərin, insanların siması nə qədər dəyişilibdir. O vaxt, elə mən burada işlədiyim zaman da insanlar küçədə rahat gedə bilmirdilər. Biz burada işləyirdik, amma Xalq Cəbhəsinin silahlı dəstələri öz işlərini görürdülər."[119]

"Böyük dayaq" (Mirzə İbrahimov) olan xalqa arxalanaraq, Xalq Cəbhəsinin başıpozuq, qanacaqsız silahlılarını zərərsizləşdirərək doğma Naxçıvanı real təhlükələrdən xilas edən Ümummilli Liderin qarşısında daha böyük və məsul bir vəzifə - bütün Azərbaycanı xilas etmək missiyası dururdu. Və bu, xalqın dahi övladı, nəhəng oğulu kimi onun alın yazısı, müqəddəs missiyası idi.

Bu dahi şəxsiyyət, nəhəng oğul üzərinə götürdüyü dağ boyda missiyanın öhdəsindən nəinki kişi kimi gəldi

[119] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 278.

– babaların əmanətini, bizə yadigar qoyduqları müqəddəs mirası xilas etdi, həm də yüzillər sonra bu mirasın möhtəşəmliyini təmin edəcək bir yol göstərdi və bu yolla onun böyük varisi – müstəqil Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev inamla irəliləməkdə, ölkəni beynəlxalq arenada qələbədən qələbəyə aparmaqdadır. "Ana kitabımız" (Heydər Əliyev) "Kitabi-Dədə Qorqud"dan iqtibas etsək:

"Qorqut ata ayıtdı: Axır zamanda Prezidentlik bir nəsilə çata, kimsənə əllərindən almıya, axır zaman olub qiyamət qopunca. Bu dediyi Əliyev nəsilidir, iştə sürüb gedəsidir!"

Şübhəsiz ki, Ata-Oğul Əliyevlərin Prezidentliyə ən layiqli namizəd kimi Azərbaycan xalqı tərəfindən seçilməsi, ilk növbədə onların siyasət, diplomatiya, dövlət idarəçiliyi, hərb sənəti, iqtisadiyyat, mədəniyyət sahəsindəki taysız istedadları, vətən və xalq məhəbbəti, həyat və fəaliyyətlərini son damlasına qədər xalqın və vətənin rifahı yolunda sərf etmələrinə bağlıdır. Yoxsa, adını "Xalq Cəbhəsi" qoyub, xalqın qınaq və nifrətinə qaynaq olmaqla bir düzəməlli iş görmək, vətənin dar günündə xilaskarlıq missiyasını yerinə yetirmək mümkün olmaz!

Ümummilli Liderin Naxçıvandakı nitqində Xalqdan ayrı düşmüş Xalq Cəbhəsinin fiaskosu çox dəqiq və lakonik əksini tapmışdır. Qlobal səviyyəli dövlət xadimi kimi Heydər Əliyev o dövrün antixalq hakimiyyətini kəskin

tənqid etməklə, həm də özündənlider "prezidentin" xarakteristikasını da sərrast ifadələrlə ortaya qoyaraq deyir:

"Şübhəsiz ki, məfkurəsi, düşüncəsi belə olan adam (Əbülfəz Elçibəy – T.K.) dövləti saxlaya bilməzdi. Həm Bakıdan, həm də burada (Naxçıvanda – T.K.) əllərində silah olan adamlar çalışırdılar ki, bizi devirsinlər. Amma xalq bizi müdafiə etdi. Biz həmin silahlı dəstələrin hamısını zərərsizləşdirdik. Ancaq ondan cəmisi 6-7 ay sonra, yəni bu hadisələr 1992-ci il oktyabrın 24-də olubsa, 1993-cü ilin iyun ayında həmin o Əbülfəz Elçibəyin və başqalarının, başda Surət Hüseynov, cənubda isə Ələkram Hümbətov olmaqla, özləri üçün təyin etdiyi komandirlər bunları devirməyə cəhd etdilər." [120]

Əslində, müdrik bir el ağsaqqalı kimi, gücü çatmayan bir yükün altına girmiş bu cür səriştəsiz insanlara, hər halda, Surət Hüseynov, Ələkram Hümbətov kimi juliklərə deyil, ən azından Əbülfəz Elçibəyə yazığı gəlir Heydər Əliyevin və öz təəssüfünü öz orijinal ifadələri ilə bildirir:

"Yaxşı, əgər Xalq Cəbhəsisənsə, xalq sizin arxanızdadırsa, xalqı çağırın, qoy xalq sizi müdafiə etsin. Amma müraciət etdilər, xalq onların iç üzünü gördü, onların arxasınca getmədi."[121]

Bunun ardınca Ümummilli Lider yenə də dövlət idarəçiliyinin onurğa sütununu, başlıca aparıcı amilini

[120] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 282.
[121] Yenə orada.

təşkil edən Lider-Xalq vəhdətindən danışır və bunsuz heç nəyə nail olmağın mümkün olmadığını bir daha xüsusi vurğulayaraq altından qırmızı cizgi çəkir:

“Bilirsiniz, xalqa arxalanmayan, xalqın inamını qazanmayan adam heç bir yerdə heç bir şey edə bilməz. Mənim üç il ağır dövrdə burada (Naxçıvanda – T.K.) yaşamağımın, sizinlə birlikdə Naxçıvanı saxlamağımın əsas səbəbi o idi ki, xalqın mənə inamı olmuşdur. Bu inam da məni yaşatmış, ruhlandırmış, mən də sizinlə birlikdə bu Naxçıvanı qoruyub saxlamışam. Bunlar Naxçıvanın qara günləri idi və indi onlar tarixdə qaldı. Görün Naxçıvanın nə qədər işıqlı, sevindirici günləri vardır!”[122]

Ümummilli Liderin Naxçıvandakı dərin məzmunlu, taleyüklü çıxışının maraqlı tərəflərindən biri kimi – Azərbaycan kimi bir ölkəyə rəhbərlik edə biləcək bir şəxsiyyətin xarakteristikasını verməsidir: “Azərbaycan kimi bir dövlətdə hakim, yəni başçı olmaq üçün ağıl, zəka, insani keyfiyyətlər, mərdlik, cəsurluq, böyük təcrübə, dövlətçilik təcrübəsi və bir çox başqa xüsusiyyətlər lazımdır. Ən əsası isə - xalqa sədaqət lazımdır. Sədaqət hissi ilə yaşayan insan öz xalqını darda qoyub, canını qurtarıb dağlara qaçmazdı. O bura, bu ora qaçdı, şübhəsiz ki, mən Bakıda Azərbaycanın dərdləri ilə üzbəüz tək qaldım.”[123]

---

[122] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 283.
[123] Yenə orada, s. 284.

Bugünkü Naxçıvanın əsrlərdən üzü bəri gələn dövlətçilik irsinin, ənənəsinin daşıyıcısı kimi çox yüksək qiymətləndirilməsi də Heydər Əliyevin klassik irsə necə önəmli qiymət verməsinin və bu ənənənin gələcəyə daşınmasının vacibliyini xüsusi qeyd etməsinin bariz örnəyi sayılmağa layiqdir:

"Mən bir daha deyirəm: Naxçıvan Azərbaycanın elə bir diyarıdır ki, burada milli ruh, milli şüur çox yüksəkdir. Mən o gün Atabəylər dövləti haqqında danışdım. Bu gün Möminə Xatun məqbərəsinə getdim, orada xəritələrə baxdım, daha da dəqiq məlumatlar aldım. Baxmayaraq ki, bizim böyük alimimiz mərhum Ziya Bünyadovun "Atabəylər dövləti" kitabını diqqətlə oxumuşdum və çox sevmişdim, ona görə də mən o vaxt onu mükafatlandırdım, ona Dövlət mükafatı verdim, - amma məqbərədəki eksponatlar mənim yadıma çox şey saldı. Bəli, Naxçıvan belə olubdur. Naxçıvan XII əsrdə də, ondan sonrakı zamanlarda da dövlət olubdur. Naxçıvanda millilik, azərbaycançılıq, türkçülük çox dərin köklərə malikdir."[124]

Əlbəttə, təbiidir ki, Heydər Əliyevin qartal gözü nəhəng bir dövlət xadimi kimi, uğurlarla yanaşı nöqsanları da seçirdi və bütövlükdə ovqatın bayram notları üzərində kökləndiyinə baxmayaraq, bu nöqsanları muxtar respublika rəhbərlərinin nəzərinə eyhamla çatdırırdı: "Naxçıvan bu gün də inkişaf edir. Güman edirəm, əgər bundan sonra

---

[124] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 286.

da belə çalışsanız, işinizdəki nöqsanları aradan qaldırsanız, - onlar var, elə bilməyin ki, yoxdur. Mən buraya sadəcə, bayram üçün gəlmişəm. demək istəmirəm ki, bu və sair nöqsandır. Yaxşı olar ki, bunları özünüz biləsiniz, özünüz də bilirsiniz. Mən bilirəm ki, özünüz bu nöqsanları tənqid edirsiniz və onların aradan qaldırılması üçün lazımi işlər görürsünüz. Əgər bu nöqsanların aradan qaldırılması üçün daha da çox çalışsanız, imkanlardan daha da səmərəli istifadə etsəniz, Azərbaycan hökuməti, Prezidenti tərəfindən sizə göstərilən qayğıdan, diqqətdən səmərəli istifadə etsəniz, siz bundan sonra daha çox işlər görə bilərsiniz."[125]

Nə yazıq ki, Heydər Əliyevin ata nəsihətlərini huşguşla dinləyib qeyd-şərtsiz əməl etmək, Ümummilli Liderin işarə vurduğu nöqsanları aradan qaldırmaq əvəzinə, Naxçıvan rəhbərliyi mövcud nöqsanların üzərinə yeni, daha kobud nöqsanlar əlavə etdi və nəticədə təbii olaraq, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin etimadını itirib, ona etibar edilmiş yüksək postundan uzaqlaşmalı oldu…

Bunun da səbəbi, şübhəsiz ki, birinci növbədə, Heydər Əliyevin bu qədər önəm verdiyi və dövlət başçılarına təkidlə tövsiyə etdiyi lider-xalq birliyindən uzaqlaşmaq, xalqdan ayrı düşməklə onun dəstəyini itirmək oldu.

---

[125] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 22. – Bakı, Azərnəşr, - 2007.- s. 287.

Dövlətçilik tariximiz, bu sahədəki ənənələrimizin yaşarılığı bir daha sübut etdi ki, Ulu Öndərin tapşırıq, göstəriş, məsləhət və tövsiyələrinə əməl etməyən bir rəhbər işçi sonunda öz yüksək postunu buna daha çox layiq olan idarəçiyə verməli, öz nöqsanlarına göz yummağın, xalqdan ayrı düşməyin acı bəhrələrini dadmalıdır və nə yazıq ki, sonrakı peşmançılıq da bir fayda vermir; xüsusən dövlət işlərinin idarə edilməsində.

***

Həəə, deyəsən yavaş-yavaş əslində bitib-tükənməyən bir mövzunun sonunu gətirmək üçün vaxtın darlığını bəhanə etməyə başlayırıq. Günah olar ki, bu sonluqda, Azərbaycanın qədim və zəngin əlyazma xəzinəsinin toplandığı Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun özünün də klassik irs kimi taleyində Ümummilli Liderin rolundan, qayğısından, diqqətindən danışmayaq. Üstəlik ona görə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək etimadı ilə bu sətirlərin müəllifi artıq onuncu ildir ki, belə mötəbər bir elmi qurumun rəhbərliyinə tövsiyə edilib…

Azərbaycanda klassik irsimizin ən qiymətli əsərlərinin qorunduğu zəngin bir xəzinə olan Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu da bütün fəaliyyəti boyu Heydər Əliyevin

daimi diqqəti və qayğısı altında olmuş, Ulu Öndər bu institutun müasir yüksək səviyyəyə çatması üçün əlindən gələni əsirgəməmişdir. Doğrudur, Ümummilli Liderin Əlyazmalar İnstitutu qarşısındakı xidmətlərini saymaqla bitməz, ancaq onun bu instituta iki maddi hədiyyəsi xüsusi taleyüklü əhəmiyyət kəsb edir ki, bunlardan biri – hazırda institutun yerləşdiyi möhtəşəm tarixi bina, ikincisi isə "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin demək olar ki, orijinalla adekvat nüsxəsidir. O da əlamətdardır ki, bu qiymətli əlyazmanı instituta bağışlamaq haqqında Ümummilli Liderin xüsusi sərəncamı da vardır.

"Kitabi-Dədə Qorqud" eposunun Almaniya Federativ Respublikasının Drezden şəhərinin Kral kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikasının Prezidentinə bağışlanmış faksimilesinin Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilməsi haqqında" Prezident Sərəncamında deyilir:

"Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il tarixli 98 saylı sərəncamı ilə təsdiq edilmiş "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planının 25-ci bəndinə uyğun olaraq 1999-cu il oktyabrın 8-də Drezden şəhərində "Kitabi-Dədə Qorqud"a həsr edilmiş yubiley mərasimi keçirilərkən Almaniyanın Saksoniya əyalətinin Elm və İncəsənət üzrə Dövlət Nazirliyi və Kral Kitabxanası həmin əlyazmanın orijinala çox yaxın şəkildə hazırlan-

mış faksimilesi Azərbaycan Respublikasının Prezidentinə hədiyyə edilmək üçün Azərbaycan nümayəndə heyətinə təqdim olunmuşdur. Həmin faksimile Azərbaycan tətbiqi sənət ustaları tərəfindən məharətlə, Dədə Qorqud dövrünü əks etdirən milli ornamentlərdən istifadə olunmaqla cildlənmişdir.

Belə bir aksiyanı Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın genişləndirilməsi istiqamətində atılmış addım kimi qiymətləndirərək "Kitabi-Dədə Qorqud" irsinin gələcək nəsillərə daha dolğun çatdırılmasını və onun tədqiqatçılarının mötəbər bir nüsxədən istifadəsini təmin etmək məqsədilə qərara alıram:

1. "Kitabi-Dədə Qorqud" eposunun Almaniyanın Drezden şəhərinin Kral kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikasının Prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilsin.
2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİEV**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 aprel 2000-ci il"[126]

[126] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 26. – Bakı, Azərnəşr, - 2008.- s. 107-108.

Ümummilli Liderin Əlyazmalar İnstitutuna bağışladığı həyati əhəmiyyət kəsb edən ən böyük hədiyyə isə, yuxarıda artıq qeyd etdiyimiz kimi, XX yüzilliyin tam əvvəllərində böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin azərbaycanlı qızların təhsil alması üçün tikdirdiyi möhtəşəm binadır. Bu binanın Əlyazmalar İnstitutuna verilməsinin ən maraqlı detallarını biz yenə də Heydər Əliyevin öz dilindən öyrənirik.

1996-cı il iyulun 23-də Prezident Sarayında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə dövlət komissiyasının növbəti iclasında çıxışı zamanı Ümummilli Lider Əlyazmalar İnstitutuna Məhəmməd Füzulinin adının verilməsi və binanın ayrılması haqqında öz maraqlı mülahizələrini komissiya üzvləri ilə bölüşərək demişdir:

“...Əlyazmalar İnstitutunun əməkdaşları, vaxtilə Azərbaycanda qədim əlyazmaları yığıb bir yerə toplayanlar xalqımız qarşısında böyük xidmət göstərmişlər. Hər hansı bir xalqın tarixini onun arxivləri, muzeyləri, tarix boyu yaratdığı əsərlər əks etdirir. Azərbaycanda bu əlyazmalar fondu da onlardan biridir, Azərbaycanın böyük sərvətidir.

Ancaq mən bir məsələni də demək istəyirəm. Biz XX əsrdə, xüsusən 1920-ci ildən sonra elmimizi və mədəniyyətimizi inkişaf etdirmək sahəsində çox işlər görmüşük. Məsələn, Elmlər Akademiyasının yaradılmasının özü böyük bir hadisədir. O vaxtlar şəhərin mərkəzindəki

gözəl, möhtəşəm bir bina alimlərimizə verildi. Bundan sonra alimlərimiz bu binada toplaşdılar və 1945-ci ildə Elmlər Akademiyası, sonra ayrı-ayrı muzeylərimiz, arxivlərimiz yaradıldı.

Ancaq bu qədər zəngin əlyazmaları olan bir dövlətdə bu fonda münasibət təəssüf ki, o qədər də yaxşı deyildir. Həqiqəti demək lazımdır. Nədənsə bunu vaxtilə o qədər də təbliğ etmirdilər, bundan çox da ətraflı istifadə etmirdilər. Şübhəsiz ki, ayrı-ayrı alimlər, tədqiqatçılar Əlyazmalar fondundan istifadə edirdilər. Amma o vaxtlar Əlyazmalar fondunu böyük milli sərvətimiz kimi təbliğ etmirdilər. Xatirimdədir, bu məsələ 70-ci illərdə meydana çıxdı. O vaxtlar biz bu Əlyazmalar Fondu sarıdan çox narahat olduq, çünki o, indiki İstiqlaliyyət küçəsində olan binada, Musa Nağıyevin İsmailiyyə binasının aşağı mərtəbəsində bir neçə otaqda yerləşdirilmişdi."[127]

Azərbaycanda birinci hakimiyyəti dövründə Heydər Əliyevin nə kimi möhtəşəm işlərin öhdəsindən gəldiyini, Respublikanı, sözün həqiqi mənasında "bataqlıqdan" çıxardaraq İttifaq miqyasında necə yüksəklərə qaldırdığını yadımıza salsaq, bu "vurhavurun" içində bu dahi insanın əlyazmalara bu cür qayğı və diqqət göstərməsinə heyrtələnməmək olmur.

Bakının ən gözəl binalarından birinin, "müştərisinin" həddən artıq çox olmasına baxmayaraq, Əlyazmalar

[127] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 7. – Bakı, Azərnəşr, - 1998.- s. 171-172.

İnstitutuna ayrılması haqqında Ulu Öndərin göstərdiyi siyasi iradə isə daha çox maraq doğurur. Gəlin, bunu öz dilindən, təkraredilməz koloritli nitqindən eşidək:

"Biz 70-ci illərdə Ali Sovet (Azərbaycan SSR Ali Soveti – T.K.) üçün gözəl bir bina tikdirdik. Çox şükürlər olsun ki, indi bizim müstəqil Azərbaycan Respublikasının belə gözəl parlament binası var.

O vaxtlar Ali Sovetin yerləşdiyi binanın üstündə dava gedirdi ki, bu bina kimə verilməlidir. Necə deyərlər, müştəriləri çox idi, hətta olduqca çox idi. Müxtəlif təşkilatlar və onlara rəhbərlik edən çox hörmətli, mötəbər adamlar bu binanı götürmək istəyirdilər. Çünki doğrudan da tarixi bir binadır, şəhərin mərkəzində yerləşir. Həm memarlıq baxımından gözəl binadır, həm də işləmək üçün yaxşı bir yerdir. Cürbəcür təkliflər irəli sürürdülər. Bu təkliflər çox olduğuna, amma bir-birindən fərqlənmədiyinə görə qərar qəbul etmək çətin idi. Bu məsələ barəsində bir müddət düşündükdən sonra mən qəti qərar qəbul etdim ki, bu bina Əlyazmalar Fonduna verilməlidir. Elə o vaxt da Əlyazmalar Fonduna Akademiyanın Əlyazmalar İnstitutu statusu verdik. Bu barədə xüsusi qərar qəbul edildi."[128]

Əlbəttə, Əlyazmalar fondunun xüsusi elmi tədqiqat institutu statusu almasının öz səbəbləri var idi və əlamətdardır ki, bu səbəblər birinci növbədə, Heydər Əliyevin dahi bir dövlət başçısı kimi klassik irsə münasibətindən,

[128] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 7. – Bakı, Azərnəşr, - 1998.- s. 172.



*SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Azərbaycan SSR EA-nın Respublika Əlyazmalar Fondunun yenilənmiş ekspozisiyası ilə tanış olarkən (Bakı, 6 sentyabr 1983-cü il).*

*SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Azərbaycan SSR EA-nın Respublika Əlyazmalar Fondunun yenilənmiş ekspozisiyası ilə tanış olarkən (Bakı, 6 sentyabr 1983-cü il).*





*SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Azərbaycan SSR EA-nın Respublika Əlyazmalar Fondunun yenilənmiş ekspozisiyası ilə tanış olarkən (Bakı, 6 sentyabr 1983-cü il).*

*SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Azərbaycan SSR EA-nın Respublika Əlyazmalar Fondunun yenilənmiş ekspozisiyası ilə tanış olarkən (Bakı, 6 sentyabr 1983-cü il).*





*SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Azərbaycan SSR EA-nın Respublika Əlyazmalar Fondunun yenilənmiş ekspozisiyası ilə tanış olarkən (Bakı, 6 sentyabr 1983-cü il).*

*Ümummilli lider Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təqdimetmə mərasimindən (Bakı, 24 oktyabr 2002-ci il).*





*Ümummilli lider Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təqdimetmə mərasimindən (Bakı, 24 oktyabr 2002-ci il).*

*Ümummilli lider Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təqdimetmə mərasimindən (Bakı, 24 oktyabr 2002-ci il).*





*Ümummilli lider Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesini AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi Ağamusa Axundova təqdim edərkən (Bakı, 24 oktyabr 2002-ci il).*

*Ümummilli lider Heydər Əliyevin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təqdim etdiyi "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesi*





*Prezident İlham Əliyevin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna təqdim etdiyi əlyazma (Məhəmməd Füzulinin əsərinin əlyazması)*




*Ümummilli lider Heydər Əliyev tərəfindən Əlyazmalar İnstitutuna təqdim olunmuş "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin faksimilesindən bir səhifə*



*Prezident İlham Əliyev tərəfindən Əlyazmalar İnstitutuna təqdim olunmuş Füzuli əlyazmasından bir neçə vərəq*

müstəqilliyə doğru gedən yoldakı tunelin sonunda işığı görməsindən, bu işığa doğru möhtəşəm bir yolçuluq hazırlamasından irəli gəlirdi. Ümummilli Lider adını çəkdiyimiz çıxışında bunu özü izah edərək demişdi:

"Mən bunun tarixini bir balaca xatırlatmaqla demək istəyirəm ki, bu Əlyazmalar İnstitutu, oradakı fond, sənədlər, tarixi əsərlərimiz, milli sərvətimizdir. Biz onları göz bəbəyi kimi qorumalıyıq və şübhəsiz ki, bu sərvəti yığıb anbarda saxlamaq olmaz, biz ondan istifadə etməliyik. Amma elə istifadə etməliyik ki, onlar bir neçə yüz il, min il bundan sonra da yaşasın və Azərbaycanın tarixini gələcək nəsillərə göstərsin.

Mən belə hesab edir və o illərdə də belə düşünürdüm ki, millətimizin, Azərbaycanın tarixini yaratmaq üçün öz sərəncamımızda olan və dünyanın bir çox böyük və kiçik ölkələrinin bu cür fondlarda saxlanılan Azərbaycan tarixinə dair sənədlərin heç də hamısından istifadə etməmişik. Elə bu Əlyazmalar İnstitutunda olan əlyazmalardan, sənədlərdən az, həddindən az istifadə etmişik. Bu, başqa bir mövzudur. Bu, mənim iyirmi ildən, bəlkə də daha çox vaxtdan bəri qəlbimdə yaşatdığım bir niyyətdir və təəssüf ki, onu indiyədək həyata keçirə bilməmişəm. Niyyətim belədir ki, Azərbaycanın tarixini yaratmaq lazımdır.

Bilirsinizmi, başqa millətlərə nisbətən bizdə, Azərbaycanda tarixşünaslıq keçmiş əsrlərdə əslində olmayıbdır. Ayrı-ayrı alimlərin, ayrı-ayrı yazıçıların, ayrı-ayrı

tədqiqatçıların əsərlərindən savayı, sistemli tarixşünaslıq olmayıb. Biz bu tarixşünaslığı yaratmalıyıq, mütləq yaratmalıyıq, Bunun da əsasında Azərbaycanın tarixini – çox zəngin tarixini, böyük tarixini yaratmalıyıq. Mən belə deyəndə bəzi tarixçilər cavab verirlər ki, biz onu yaratmışıq. Yaratdıqlarınıza görə sağ olun, təşəkkür edirəm. Ancaq Azərbaycan xalqının həqiqi tarixi hələ yaranmayıbdır. Biz onu yaratmalıyıq."[129]

Azərbaycanın həqiqi, obyektiv, uydurma və nağıllardan uzaq tarixini yaratmağın vacibliyi Heydər Əliyevi görkəmli bir tarixçi kimi həmişə narahat etmiş, qayğılandırmışdır. Şübhəsiz ki, namərd qonşularımız kimi saxta tarix yaratmaqla dünya alimləri qarşısında gülünc olmamaq üçün Heydər Əliyevin tarixşünaslıq qarşısında irəli sürdüyü ciddi tələblərin çox böyük əhəmiyyəti var idi və bu işin yerinə yetirilməsində Ulu Öndər Əlyazmalar İnstitutunda qorunan sənədlərin də böyük əhəmiyyəti olduğunu vurğulayaraq deyirdi:

"Bu baxımdan Əlyazmalar İnstitutu çox mühüm bir institutdur. Akademiyanın rəhbərliyi bu instituta çox ciddi fikir verməli və qayğı göstərməlidir, institutdakı mütəxəssislərin işləməsi üçün ümumiyyətlə, bizim bütün tədqiqatçıların, alimlərin o fonddan istifadə etməsi üçün şərait yaratmalıdır."[130]

---

[129] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 7. – Bakı, Azərnəşr, - 1998.- s. 172-173.

[130] Yenə orada, s. 173.

Ümummilli Liderin Əlyazmalar İnstitutu ilə necə dərindən, necə məhrəmanə ilgiləndiyinin göstəricilərindən birini də onun hətta institutun kimin adını daşıması ilə bağlı narahatlığıdır. Belə ki, o vaxt Əlyazmalar İnstitutunun kimin adına olması barədə fikirlər haçalanmış, bir sıra alimlər tərəfindən Azərbaycanın böyük mətnşünas alimi, repressiya illərində erməni-bolşevik quldurları tərəfindən güllələnmiş Salman Mümtazın adını təklif etsələr də, bu, institutun o zamankı kollektivi tərəfindən qəbul edilməmiş, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin adı təklif edilmişdi. Ümummilli Lider bu barədəki mübahisələri yekunlaşdıraraq müdrik bir qərar qəbul etməyə nail olmuşdu:

"Füzulinin adı haqqında burada cürbəcür təkliflər var. Azərbaycanda Füzulinin adına çox yerlər var: Füzuli şəhəri, Füzuli rayonu, onun adını daşıyan məktəblər, küçələr. Yəni Füzulinin adı Azərbaycanda geniş əbədiləşdirilib... Bir halda ki, Füzuli doğrudan da əvəzedilməz bır şəxsiyyətdir, onda bu təklifə baxılmalıdır."[131]

Bunun ardınca Ulu Öndər ensiklopedik zəkalara uyğun bir erudisiya ilə Salman Mümtazın da xidmətlərini yada salaraq, xalqımız qarşısında böyük haqqı olduğunu göstərməyi unutmur:

"Salman Mümtaz... 38-ci ildə (1938-ci il nəzərdə tutulur – T.K.) repressiya olunubdur eşitdiyimə görə, gül-

[131] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 7. – Bakı, Azərnəşr, - 1998.- s. 173.

lələnibdir. Azərbaycan xalqı qarşısında onun xidmətləri böyükdür. Bilirsinizmi, 50-ci illərdə mən Bakıya DTK-da işləməyə gəldikdən sonra bir neçə adamla söhbət etdim. Onlar mənə danışırdılar ki, 37-38-ci illərdə ermənilər, başqa millətlərə mənsub olan adamlar Salman Mümtazın və onun kimi digər adamların evlərindən çox dəyərli əsərləri, əlyazmaları elə oradaca, evlərin həyətlərinə zibil kimi atmışlar. Bunu mənə danışıblar. Mən onu görməmişəm. Ancaq bunları arxivdə işləyərkən yəqin etmişəm. 38-ci ildən 50-ci ilədək baş vermiş hadisələrin şahidləri var və bunları mənə onlar danışıblar. Mən bu məsələ ilə o vaxtlar da maraqlanırdım, Salman Mümtaz haqqında məlumatım var idi. Bilirəm ki, onun doğrudan da çox dəyərli xidmətləri olmuşdur. Əlyazmalar İnstitutunun adına o da layiqdir, Füzuli də... Ancaq mənə elə gəlir ki, həmin instituta Füzulinin adının verilməsi daha məqsədəuyğundur."[132]

Əlbəttə, institutumuzun tarixi üçün bu, əbədi bir şərəfdir ki, onun adını zəmanəmizin ən müdrik dövlət xadimlərindən biri, dövrümüzün Dədə Qorqudu, Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyev qoyub. Min il öncə Dədə Qorqud Oğuz igidlərinə ad qoyan kimi...

Bu gün AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu klassik irsimizin ən zəngin xəzinələrindən bi-

[132] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. K.: 7. – Bakı, Azərnəşr, - 1998.- s. 173.

ri kimi, Ulu Öndərin 25 ildən artıq öncə onun qarşısında qoyduğu Vətənşümul vəzifələrin öhdəsindən gəlmək üçün bütün qüvvə və bacarığını sərf edir, Ümummilli Liderin verdiyi ada layiq olmağa çalışır və bu böyük adı şərəflə daşıyır.

***

Heydər Əliyevin ədəbiyyatımız və mədəniyyətimiz, klassik irsimizin ölməz simaları qarşısında müstəsna xidmətlərini yada salarkən elə bir önəmli hadisə, şəxsiyyət tapmaq olmur ki, onun həssas diqqətindən kənarda qalsın; istər-istəməz düşünürsən ki, ulu öndər öz vətən sevgisi, el qeyrəti, sənətə və mədəniyyətə göstərdiyi səmimi övlad mehribanlığı və atalıq qayğısı ilə ədəbiyyatımızın bu nəhənglərinə və onlarla başqalarına da yeni həyat, yeni can vermişdir.

*Aşiqə şövqünlə can vermək ikən müşkül degil;*
*Çün Məsihi-vəqtsən, can vermək asandır sana!*

Başqalarına, dahi sənətkarlara can verdiyi, ölməzlik bəxş etdiyi, keçmişimizdən gələcəyimizə körpü atdığı nurlu əməlləri ilə böyük öndər öz ölməzliyini də təmin etdi. Bu baxımdan Nizaminin məşhur sözlərini tam mənasilə Heydər Əliyevə də aid etmək olar:

*Özüntək diri bil məni cahanda,*
*Mən də canlanaram sən canlananda!*

Bu gün ədəbiyyatımıza və mədəniyyətimizə, özəlliklə klassik irsimizə Ümummilli liderimizin ləyaqətli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək dövlət səviyyəsində göstərilən qayğı və himayədarlıq – Heydər Əliyev ideyalarının yaşarılığını sübut edən ən böyük dəlillərdən biri kimi nəzərə çarpmaqdadır.

Qoy dünya durduqca, vətənimiz və xalqımız var olduqca bu böyük ənənələrə zaval gəlməsin!

2003-cü il dekabrın 12-də xalqımızın tarixi boyu tanıdığı ən böyük övladı müdrik və mehriban gözlərini bu işıqlı dünyaya əbədilik yumdu. Ancaq onun sönməz bir məşəl kimi xalq üçün yanan ürəyindən saçılan işıq zərrə qədər də azalmadı; bəlkə hələ ikiqat artdı. Zira bu uzaqgörən şəxsiyyət öz əməllərinin, ideyalarının, arzu və istəklərinin ölümsüzlüyünü artıq təmin etmiş, xalqa xidmət estafetini etibarlı və möhkəm əllərə tapşırmışdı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin fiziki yoxluğundan, əbədiyyətə qovuşmasından keçən 20 il ərzində müstəqil dövlətçiliyimizin günbəgün möhkəmlənməsi, dünya dövlətləri birliyində getdikcə daha inamlı addımlar atması, səsinin daha ali kürsülərdən daha inamla və qətiyyətlə gəlməsi, ölkənin nurlu və xoşbəxt gələcəyinə, xalqın rifah halının yaxşılaşdırılmasına,

mədəniyyətimizin, ədəbiyyatımızın inkişafına göstərilən yüksək dövlət qayğısı tam əminliklə belə deməyə əsas verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin simasında sözün ülvi mənasında ƏLİYEVLİK bu gün də yaşayır, inkişaf edir, xalqa və dövlətə xidmət, sənətə, ədəbiyyata qayğı və diqqət yolunda bütün gücü ilə fəaliyyət göstərir.

Klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə bu dərəcədə böyük diqqət və qayğı göstərən, bu ədəbiyyatın ictimai inkişafda, yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirən və buna görə də onların sənətinin ölməzliyinin qarantı kimi çıxış edən Heydər Əliyevin özü də klassiklərin cərgəsinə daxil olmuş, onlar kimi ölməzlik qazanmışdır. Zira:

*Qoca Şərqdə şərə qarşı duran insan ölərmi?*
*Qəlbi elin ürəyiylə vuran insan ölərmi?*
*Ürəyini məşəl edib doğma yurdun yolunda,*
*Yeni, gözəl Azərbaycan quran insan ölərmi?!*

Və bu ölməz İnsanın 98-ci doğum gününə həsr etdiyim, mövzumuza uyğun olaraq, klassik qəzəl janrında qələmə aldığım bir şeirimlə hələlik burada sözümü bitirmək istərdim:

# HEYDƏR DOĞULUB

*Ümummilli Lider Heydər Əliyevin*
*anadan olmasının 98-ci ildönümünə*

Nə gözəl gündü bu gün – yurduma HEYDƏR doğulub!
Bir qədim ər ocağından yeni bir ƏR doğulub!

Gün kimi şölə saçıbdır bir elə, bir obaya,
Qəlblərin sevgilisi, dillərə əzbər doğulub!

Düşmənin xərməninə çınqı kimi qorxu salıb,
Vətənə şanlı oğul, xalqıma rəhbər doğulub!

Göyə qalxıbdır o gün hay dığanın hay-harayı,
Düşmənin çaş gözünə bir iti neştər doğulub!

Barlı torpaq quru çör-çöplə tikandan arınıb,
Vətənin gül bağına sərvi-sənubər doğulub!

Neçə müddət ulu öndər sorağında dolaşan
Qəhrəman millətimə alp ULU ÖNDƏR doğulub!

Saldığı yolla gedir millətimiz zirvələrə,
Şəninə ÖNDƏRimin şanlı əsərlər doğulub!

Verdi özgürlüyün İLHAMlı zəfər müjdəsini,
Bu nəsil tariximə çünki müzəffər doğulub!

Teymurun bilgisi vardır ki, bəşər tarixinə
ULU ÖNDƏRtək az-az müdrik ərənlər doğulub.

*10.05.2021*

**Teymur KARIMLI**
*Academician*

# HEYDAR ALIYEV AND THE CLASSICAL HERITAGE

If you look at any area of life in the independent Republic of Azerbaijan, you will see a trace of Heydar Aliyev, a result of his activity, a perfectly executed work, a cultural and spiritual monument. In this regard, of course, the great activity of the National Leader regarding the classical heritage cannot be excluded. Because this activity is directly related to the ideology of Azerbaijanism, which Heydar Aliyev formed, systematized and turned into a social-political-historical concept. It is known that the National Leader attached great importance to the promotion of this ideology, to its transformation into an action incentive that every Azerbaijani would be proud of and to turn into a means of national existence.

When writing the monograph, the term "classical heritage" does not mean only classical literature. Probably, no one would argue that our greatest classical heritage is our Motherland, which has been handed down to us from our grandfathers for thousands of years. Classical heritage is our cherished traditions. It is our national mentality. Our great monuments of music, art and architecture are our gift to the golden fund of human culture that defines our identity among the nations of the world. These are also our world-famous classics in the example of Heydar Aliyev. Heydar Aliyev specifically noted that the special attention and care for culture and literature, especially the classical heritage that has survived the tumultuous trials of history and has preserved its relevance until today, the humanistic values it carries, is an inseparable sign of the mentality of the Azerbaijan people. He said that our

classical heritage, which supports the nation in its difficult struggle under today's global and political conditions, is a great cultural and moral advantage compared to many other nations of the world and brings honour and pride to our people.

Heydar Aliyev, who highly valued literature as a whole and the role it played in social and moral development, especially distinguished classical literature from this point of view and showed that the people of Azerbaijan have the right to be proud of their classics.

Heydar Aliyev, so to speak, was also a great connoisseur of the classical literary process and because he understood well that this literature comes at the cost of hard work, upheavals, spiritual experiences, sometimes the persecutions and punishment mechanism of the ruling-clerical class, he taught young people not to take the easy way in creativity and with this, he recommended to create necessary literary works for the people.

The great leader was not satisfied with putting forward the general theses of the exceptional role of literature in the life of society, but also showed the mechanism of its influence in specific historical situations on the example of a specific literary monument.

One of the most important aspects of the National Leader's approach to the classical heritage is his perspective attitude to this rich treasure, how it is promoted among future generations and the unique role it will play in the national mentality.

The main meaning and content weight of these words, which are programmatic for the study of Azerbaijan historiography and classical heritage, is the restoration mission set by the National Leader before himself and as well as classical heritage researchers and I think no one can deny its exceptional importance for Azerbaijan studies as a whole.

We must say that thanks to the blessing of this sacred restoration mission of the National Leader, many white spots of our history and classical heritage were filled with concrete materials, which in turn led to the presentation of our cultural history in a more complete and rich way to our people and the whole world.

The National Leader valued the immortal works of our classical heritage first of all as a bridge between generations and saw their main mission in raising worthy citizens for the country and society. According to him, our classical heritage should strengthen the feelings of pride in the young generation with its rich and honourable history, culture and literature and should make them proud of being a citizen of such a country and a representative of such a nation. Especially in an independent country, the Great Leader did not get tired of repeating the exceptional importance of the classical heritage for the high level of state education.

It is possible to illuminate the problem of Heydar Aliyev and Azerbaijan literature from various angles. Among them, one of the most important things is the patronage activity of our national leader, the great protection shown to our literary heritage - both classics and contemporary artists, especially to the literary youth and to the development, publication and promotion of Azerbaijan literature, which is an integral part of world literature and to its proper recognition in the world.

The exceptional importance that Heydar Aliyev gave to classical literature and the legacy of its immortal representatives was also connected with the fact, that in the later periods of literary development, our most talented poets and writers returned again and again to the universal humanistic themes and images set in classical literature and successfully used them to solve the problems facing the people and the nation, creatively using them in accordance with the idea-aesthetic requirements of their time. Like classical literature, one of the

main goals that Heydar Aliyev fought for is perfect human education in the society and classical literature is considered as one of the most important means for the realization of this goal.

In this regard, the National Leader considered the preservation of scientific objectivity as one of the main conditions and urged scientists to fulfill this important condition and not to distort scientific truths.

For Heydar Aliyev, classical literature was, first of all, interesting and relevant with its modernity, potential to provide cultural and spiritual service to the people in a specific historical situation. He put this demand before all the great representatives of classical literature and he himself justified the high level of response to that demand with logical arguments.

It is noteworthy that Heydar Aliyev's attitude to the classical heritage was not limited to Azerbaijan, but had a global, universal nature. From this point of view, the good intention shown by him for the return of works of art brought to Baku from Germany during the Second World War in 1999 can be considered very exemplary.

Heydar Aliyev, who took and analysed the classical heritage as a whole, as a living organism, specially noted its continuity and in this sense, its eternity.

Taking Azerbaijan's cultural heritage as a whole, Heydar Aliyev notes that the development of its various fields is organically connected with each other and the development of one field has a strong impact on other fields.

The Great Leader saw one of the colourful manifestations of the classical heritage in the history of the nation, in the survival of its traditions, especially in the national holidays that have been loved for thousands of years and passed down from generation to generation.

In Azerbaijan, which is known and proud of itself as a

multi-confessional country, where multiculturalism is a way of life throughout its glorious past and history, the National Leader, who shows great respect and care for the classic religious and spiritual heritage of not only the elite nation, but also the national minorities in Azerbaijan, treats all citizens of Azerbaijan with the same love and care, regardless of their nationality and religious belief and considered this to be one of the main attributes of statehood.

Of course, Heydar Aliyev, a great humanist person, loved his homeland, his people with all his being and was deeply interested in its classical heritage, but in addition to this, this great personality was also familiar with the cultural values and classical heritage created by humanity throughout its history and appreciated them as appropriate.

One of the main far-sighted goals of Heydar Aliyev to the classical heritage is that this legacy should live on forever, that it should not be lost for the sake of future generations and that it should ensure its longevity by making significant contributions to the socio-economic-cultural development of the homeland from time to time.

The National Leader measures the greatness of geniuses and classics of the Azerbaijan people by the criterion of their service to their people and their homeland. Undoubtedly, this comes from the Great Leader's endless love, trust and national bigotry for Azerbaijan.

Heydar Aliyev remains a GREAT CITIZEN, a GREAT AZERBAIJANI with the great classical legacy he left to the people of Azerbaijan and will continue to be even after centuries!

In the interpretation of an encyclopaedic genius like Heydar Aliyev, the classical heritage does not only mean the works created in ancient times and the Middle Ages, covering the most diverse areas of cultural life, which have been examples in their genre for centuries, but also contemporary

classics, that is, works that can be examples in their genre, from the time of their creation and covers regardless of circumstances. From this point of view, the National Leader's appreciation of classical cinema is also interesting and one cannot help but arouse sincere respect for the great leader's deep knowledge in this field and admiration for his phenomenal intelligence.

Of course, when talking about Heydar Aliyev's attitude to the classical heritage, one remembers first of all his love for the Motherland, his love for Azerbaijan and his pride in being an Azerbaijani. All of Azerbaijan - Like the Motherland itself, every corner of it was dear and beloved to Heydar Aliyev; in particular, the Small Homeland – Nakhichevan, where he was born and spent his childhood and early youth, always caused the sincerest feelings to awaken in Heydar Aliyev's heart.

When recalling the exceptional services of Heydar Aliyev to our literature and culture to the immortal representatives of our classical heritage, it is impossible to find such an important event, a person, that could be left out of his sensitive attention; you can't help but think that the great leader gave a new life and soul to these giants of our literature and dozens of others with his love for the country, his zeal, his sincere filial kindness and fatherly care for art and culture.

The great leader ensured his own immortality with his brilliant deeds, which he gave life to others, genius artists, gave eternal life and built a bridge from our past to our future. Today, the care and patronage shown to our literature and culture, especially to our classical heritage by the worthy successor of our national leader, the President of the Republic of Azerbaijan, Ilham Aliyev at a high state level, is one of the biggest evidences proving the longevity of Heydar Aliyev's ideas.

20 years that have passed since the physical absence of the National Leader of the Azerbaijan people Heydar Aliyev

and his passing into eternity. During this period the day-by-day strengthening of our independent statehood and the fact that it has taken more confident steps in the union of the world states, the voice of the Azerbaijan people coming decisively from the highest seats, the high state concern for the bright and happy future of the country, the improvement of the welfare of the people, the development of our culture and literature, gives reason to say with complete certainty, that in the person of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, the ALIYEV phenomenon in the highest sense of the word lives and develops today and operates with all its strength in the way of service to the people and the state.

Heydar Aliyev, who paid so much attention and care to our classical heritage, classical literature and its representatives and highly appreciated the role played by this literature in social development and new human education acted as a guarantor of the eternal life of their art. With this, Heydar Aliyev himself entered the ranks of the classics and gained immortality like them.

*Akademik*
Teymur KƏRİMLİ

# HEYDƏR ƏLİYEV VƏ KLASSİK İRS

*Academician*
Teymur KARIMLI

# HEYDAR ALIYEV AND THE CLASSICAL HERITAGE

**İşçi qrup:**

**Əzizağa Nəcəfzadə**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Cavid Cəfərov**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Sona Cabbarzadə**

---

Yığılmağa verilmiş: 27.03.2023. Çapa imzalanmış: 24.04.2023.
Qarnitur: Times. Kağız formatı: 60x84/16.
Həcmi: 11,8 f.ç.v. Ofset kağızı.
Ofset çap üsulu. Tiraj: 300. İllüstrasiyalı nəşr.

*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Ünvan: AZ1001. Bakı ş. İstiqlaliyyət küç. 26*
*URL: https://www.manuscript.az*

*"Elm və Təhsil" NPM-nin mətbəəsində*
*hazır elektron fayllardan çap olunmuşdur.*
*Ünvan: Səbail r-nu, İçəri Şəhər, 3-cü Maqomayev küç.,8, mən. 4.*
*AZ1000, Bakı ş.*
*Tel: +994 12 4971632*